ISSN 2218-0346

# AZƏRBAYCAN ARXEOLOGİYASI

2009 2



Cild: 12 Say: 2
2009

ISSN 2218-0346

# AZƏRBAYCAN ARXEOLOGİYASI

**Təsisçi**
Hamlet İsaxanlı

**Baş Redaktor**
Qüdrət İsmayılzadə

**Redaktor Müavini**
Roza Arazova
Tarix Dostiyev

**Redaksiya heyəti**

Alp Arslan (Türkiyə)
Vəli Baxşəliyev (Azərbaycan)
Bertill Lyonnet (Fransa)
Otar Caparidze(Gürcüstan)
Övəz Gündoğdiyev (Türkmənistan)
Mehmet İşıqlı (Türkiyə)
Lauren Listvet (ABŞ)
Vadim Masson (Rusyia)
Rauf Munçayev (Rusiya)
Mehmet Özdoğan (Türkiyə)
Konstantin Pisxelauri (Gürcüstan)
Maya Rəhimova (Azərbaycan)
Viktor Sarianidi (Rusiya)
Andreas Şaxner (Almaniya)

**Redaktor köməkçiləri**

Bəhlul İbrahimli
Təvəkkül Əliyev
Sevda Hüseynova
Günel Məmmədova
Röya Əliyeva

**Volume: 12 Number:2** **ISSN 2218-0346**
**2009**

# AZERBAIJAN ARCHAEOLOGY

**Founder**
Hamlet Isaxanli

**Editor in Chief**
Qudrat Ismayilzadeh

**Deputy Editors**
Roza Arazova
Tarikh Dostiyev

**Editorial Board**
Alp Arslan (Turkey)
Vali Baxshaliyev (Azerbaijan)
Bertille Lyonnet (France)
Ovez Gundoghdiyev (Turkmenistan)
Mehmet Japaridzeh (Georgian)
Mehmet Ishikli (Turkey)
LaurenListvest (USA)
Konstantin Pisxelauri ( Georgia)
Maya Rahimova (Azerbaijan)
Viktor Sarianidi (Russia)
Andreas Schachner (Germany)
Vadim Masson (Russia)
Rauf Munchayev ( Russia)
Mehmet Ozdoghan (Turkey)

**Editorial Assistants**
Bahlul İbrahimli
Tavakkul Aliyev
Sevda Huseynova
Gunel Mammadova
Roya Aliyeva

COPYRIGHT © 1999 BY KHAZAR UNIVERSITY PRESS
ALL RIGHTS RESERVED

AZ1096 Azərbaycan Respublikası
Bakı şəhəri, Məhsəti küçəsi, 11
Xəzər Universitəsi

Khazar University
11 Mesheti str., Baku AZ1096
Republic of Azerbaijan

Üz qabığında –*Tunc fiqur, Şəmkir-Qaracəmirli, e. ə. XVI-XV əsrlər*
Cover Page depicts the –*Bronze figure, Shamkir-Qaracamirli, ca XVI-XV centuries, B.C.*
На обложке – *Бронзовоя фигура, Шамкир-Гараджамирли, XVI-XV вв. до н.е.*

Telefon: (99412) 217927
Faks: (99412) 989379
E-mail: contact@khazar.org
jaa@khazar.org
Website: http://www.khazar.org
www.azerbaijanarcheology.com

KHAZAR UNIVERSITY PRESS



*"... Şəmkir qədim şəhər hesab olunur."*
*Ə. Bəlazuri (IX əsr)*

*«... Шамкур считается древним городом.»*
*А. Баладзори (IX век)*

*"Shamkir is considered as an ancient town."*
*A. Baladzori (IX century)*

# MÜNDƏRİCAT

**Baş redaktordan** ........................................................ 10
**Tarix Dostiyev.** Orta əsr Şəmkir şəhər yerinin arxeoloji tədqiqinin ilk yekunları ........................................................ 12


## TƏDQIQATLAR

***Nəcəf Müseyibli.*** Zəyəmçay nekropolunun qəbir tipləri ........................ 37
***İlyas Babayev, Yulon Qaqoşidze, Florian Knauss.*** Qaracəmirli kəndində Əhəmənilər dövrü tikintiləri ........................ 58
***Rəşid Bəşirov.*** Orta əsr Şəmkir şəhərinin zoomorf tapıntıları ........................ 72
***Namiq Hüseyinli.*** Orta əsr Şəmkir şəhərinin ticarət əlaqələri ........................ 80
***Samir Kərimov.*** Şəmkirin orta əsr təndirləri ........................ 88
***Rəsulağa Mirzəyev.*** Şəmkir narınqalasının bir bürcü haqqında ........................ 95
***Xalidə Səlimxanova.*** Orta əsr Şəmkirin dəmir məmulatının tarixi- analitik tədqiqi ........................ 101
***Qənirə Pirquliyeva.*** Şəmkir şəhər yerindən tapılmış sikkələrin kataloquna dair (2007-2008 illər) ........................ 105
***Məşədixanım Nemət.*** Şəmkir kitabələri ........................ 113


## MARAQLI TAPINTILAR

***Xaqani Həbibov.*** Orta əsr Şəmkir şəhər yerindən tapılmış bəzi kərpic nümunələri haqqında ........................ 118
***Seymur Hüseynov.*** Orta əsr Şəmkir şəhər yerindən tapılmış sümük məmulatı haqqında ........................ 123


## ELM TARİXİ

***Hidayət Cəfərov.*** Şəmkirçay hövzəsi tayfalarının eneolit və tunc dövrü mədəniyyəti (1974-1979-cu illərin arxeoloji tədqiqatları əsasında)......... 128


## KÖMƏKÇİ FƏNLƏR

***Emil Kərimov.*** Azərbaycan etnoqrafiyasının bəzi problemləri haqqında ......... 135


## BİZİM MÜSAHİBƏ

***Roza Arazova.*** Arxeoloqun salnaməsi ........................ 141

**XRONİKA, RƏYLƏR, XƏBƏRLƏR** ........................ 146

## CONTENTS

**By editor-in-chief** ........................................ 10

*Tarikh Dostiyev.* The first results of archaeological investigation of the medieval Shamkir city ........................................ 12

**Researches** ........................................

*Najaf Museyibli.* Types of graves of Zayamchay necropolis .................. 37

*Ilyas Babayev, Yulon Qaqoshidze, Florian Knauss.* The constructions of Garajamirli village during Ahamanids .................................. 58

*Rashid Bashirov.* Zoomorphous goods from the medieval Shamkir city ...... 72

*Namig Huseyinli.* Trade relations of medieval Shamkir city .................. 80

*Samir Karimov.* The medieval tendirs- ovens of Shamkir ...................... 88

*Rasulaga Mirzayev.* About one tower of Shamkir stronghold ................ 95

*Khalida Salimkhanova.* Historical analytical investigation of medieval iron artifact from Shamkir ........................................ 101

*Qanira Pirguliyeva.* Materials for the catalogue of coins found in the city site of Shamkir (2007-2008 years)........................................ 105

*Mashadixanim Neymat.* Inscriptions of Shamkir ................................ 113

**INTERESTING EXPLORATIONS.**

*Khagani Habibov.* Some samples of bricks from the medieval Shamkir ....... 118

*Seymur Huseynov.* Bone goods from the medieval Shamkir city .............. 123

**HISTORY OF SCIENCE**

*Hidayat Jafarov.* Culture of tribes of undecurrent of Shamkirchai river during Eneolithic and Bronze periods (according to the materials of archaeological research in 1974- 1979 years) .......................... 128

**SUBSIDIARIES.**

*Emil Karimov.* About some problems of Azerbaijan etnoghraphy ............ 135

**OUR INTERVIEW**

*Roza Arazova.* The chronicle of archaeologist .................................. 141

**CHRONICLES, REVIEWS, INFORMATION** .............................. 146

## СОДЕРЖАНИЕ


**От главного редактора** ........................................................ 10

*Тарих Достиев.* Первые итоги археологического исследования средневекового городища Шамкир ........................................ 12


## ИССЛЕДОВАНИЯ


*Наджаф Мусейбли.* Типы погребений некрополя Заямчай ................ 37

*Ильяс Бабаев, Юлон Гагошидзе, Флориан Кнаусс.* Сооружения Ахеменидского периода в селе Гараджамирли ........................ 58

*Рашид Баширов.* Зооморные изделия средневекового городища Шамкир ........................................................................ 72

*Намиг Гусейнли.* Торговые связи средневекового города Шамкир ....... 80

*Самир Керимов.* Средневековые тендиры Шамкира ........................ 88

*Расулага Мирзаев.* Об одной башне Шамкирской цитадели .............. 95

*Халида Селимханова.* Историко- аналитическое исследование железных изделий средневекового Шамкира ................................ 101

*Ганира Пиркулиева.* Материалы к каталогу монет из раскопок городища Шамкир (2007- 2008 гг.) .................................... 105

*Мешадиханым Неймат.* Надписи из Шамкира ................................ 113


## ИНТЕРЕСНЫЕ НАХОДКИ


*Хагани Габибов.* О некоторых образцах кирпичей средневекового Шамкира .......................................................................... 118

*Сеймур Гусейнов.* О костяных изделиях из средневекового городища Шамкир ........................................................................ 123


## ИСТОРИЯ НАУКИ.


*Гидаят Джафаров.* Культура племён бассейна Шамкирчая эпохи энеолита и бронзы (по материалам археологических исследований 1974-1979 гг.) ............................................... 128


## ВСПОМОГАТЕЛЬНЫЕ ДИСЦИПЛИНЫ


*Эмиль Керимов.* О некоторых проблемах науки этнографии Азербайджана ...................................................................... 135


## НАШЕ ИНТЕРВЬЮ


*Роза Аразова.* Летопись археолога ............................................ 141

**ХРОНИКА, РЕЦЕНЗИИ, СООБЩЕНИЯ** ........................................ 146

# BAŞ REDAKTORDAN

Azərbaycan Respublikasının qərbində yerləşən Şəmkir ölkəmizin arxeoloji abidələrlə zəngin bölgələrindən biridir. Son illərin tədqiqatları nəticəsində bölgə ərazisində eneolit dövründən son orta əsrlərədək mədəni-tarixi inkişafın uzun bir dövrlərinə aid yaşayış yerləri və qəbir abidələri aşkarlanmış, onların çoxunda arxeoloji qazıntılar aparılmışdır.

Məlumdur ki, bölgənin arxeoloji abidələrinin məqsədyönlü tədqiqinə keçən əsrin 70-ci illərində başlanılmış, xüsusilə rayonun Kür çayı boyunca ərazilərində abidələrin sıx yerləşməsi müəyyənləşdirilmişdir. 70-80-ci illərdə burada eneolit dövrünə aid Keçili yaşayış yerində, tunc dövrünə aid Osmanbozu, Qaracəmirli kurqanlarında, Keçili, Bittili yaşayış yerlərində, antik dövrə aid Alıqoca yaşayış yerində, antik və erkən orta əsrlərə aid Bulaqbaşı abidələr kompleksində, Muncuqlutəpə orta əsr yaşayış yerində aparılan arxeoloji qazıntıların nəticələri Azərbaycanın qədim və orta əsrlər tarixinin, mədəniyyətinin tədqiqi üçün zəngin faktik materiallar vermişdir.

Yeni minilliyin başlanğıcı Şəmkir ərazisində elmə məlum olmayan silsilə abidələrin qeydə alınması və geniş arxeoloji qazıntıların aparılması ilə əlamətdar oldu. Bakı–Tbilisi–Ceyhan neft və Cənubi Qafqaz qaz boru kəmərlərinin inşaası ilə əlaqədar bölgə ərazisində tunc dövrünə aid Zəyəmçay nekropolu, Şəmkirçay kurqanları, Çaparlı antik və erkən orta əsr kompleksi, Daşbulaq orta əsr yaşayış yeri arxeoloji qazıntılarla öyrənilmişdir.

Son illərdə Qaracəmirli kəndi yaxınlığında dəmir dövrünə aid geniş sahəli yaşayış yeri aşkarlanaraq Azərbaycan–alman-gürcü beynəlxalq arxeoloji ekspedisiyasının ixtiyarına verilmişdir. Burada e.ə.V-IV yüzilliklərdə fəaliyyət göstərmiş nəhəng saray kompleksinin qalıqları üzə çıxarılmışdır.

2008-ci ildən Orta əsr Şəmkir şəhər yerində başlanan arxeoloji qazıntılar miqyasına görə Azərbaycan Respublikasında, bütövlükdə isə Qafqazda ən geniş sahəli arxeoloji qazıntılardır. Həmin qazıntılar orta əsr Şəmkir şəhərinin qaranlıq səhifələrinə işıq saçmaqla yanaşı, həm də orta əsr Azərbaycan şəhərini səciyyələndirmək, VIII-XIII əsrlərdə Azərbaycanda urbanizasiya proseslərinin başlıca xüsusiyyətlərini müəyyənləşdirmək baxımından böyük önəm daşıyır. Arxeoloji qazıntılar nəticəsində üzə çıxarılmış istehkam qalıqları, məişət obyektləri, şəhər abadlığı ilə bağlı qurğular Arran memarlıq məktəbinin yüksək səviyyəsini nümayiş etdirir.

Arxeoloji qazıntılar nəticəsində şəhər yerindən əldə olunan tapıntılar: əmək alətləri, silahlar, məişət avadanlığı, yüksək sənətkarlıq nümunələri bəzəklər və sikkələr ümumazərbaycan səciyyəsi daşımaqla yanaşı həm də məhəlli xüsusiyyətləri ilə diqqəti çəkir.

Yuxarıda qeyd olunanlar nəzərə alınmaqla jurnalımızın hazırkı sayı Şəmkir bölgəsinin abidələrinin arxeoloji tədqiqinin uğurlu nəticələrinə həsr olunmuşdur. Bölgənin tunc dövrü abidələrindən Zəyəmçay nekropolu, e.ə.V-IV əsrlərə aid, Qaracəmirli kəndi yaxınlığında tədqiq olunan nəhəng saray kompleksi, keçən əsrin 70-ci illərində rayonun arxeoloji öyrənilməsi tarixi, Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntıların ilkin yekunları, bu abidədə üzə çıxarılmış təndirlər, arxeoloji qazıntılar zamanı tapılmış zoomorf elementli saxsı və metal məmulatı, müxtəlif təyinatlı sümük məmulatı, üzərində insan əlinin əksi, heyvan pəncəsinin izi olan, ox işarəsi qazılmış, yazı həkk edilmiş bişmiş kərpic nümunələri, epiqrafik tapıntılar, sikkələr, şəhərin ticarət əlaqələri təqdim olunan məqalələrdə öz əksini tapmışdır.

# ORTA ƏSR ŞƏMKİR ŞƏHƏR YERİNİN ARXEOLOJİ TƏDQİQİNİN İLK YEKUNLARI

***Tarix Dostiyev***
*(Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutu)*

Orta əsr coğrafiyaşünasları Azərbaycanın orta dərəcəli, abad və nemətlərlə zəngin şəhərləri arasında Şəmkir şəhərinin də adını çəkirlər (1, s. 89, 110, 129-130). Yazılı qaynaqlardan məlum olur ki, ərəb fəthləri dövründə Şəmkir şəhər kimi mövcud idi. IX əsr tarixçisi Əhməd əl-Bəlazuri qeyd edir ki, Salman ibn Rəbiə əl-Bahili qədim şəhər hesab olunan Şəmkiri fəth etdi. Şəmkir savartilər onu dağıdıb viran qoyanadək gur və abad şəhər idi. Hicri 240-cı ildə (854/855) sərkərdə böyük Buğa şəhəri bərpa etdi, burada islamı qəbul etmiş xəzərləri yerləşdirdi. Bərdə tacirlərindən buraya köçürtdü və şəhəri xəlifənin şərəfinə Mütəvəkkiliyə adlandırdı (2, s. 13-14). Tədqiqatçılar savartilərin Şəmkir şəhərini dağıtmasını 752-ci ilə aid edirlər (3, s.349). Böyük İpək yolu üzərində yerləşən Şəmkir şəhəri IX əsrin ikinci yarısı – X əsrdə yüksəliş keçirərək mühüm sənətkarlıq və ticarət mərkəzinə çevrilmiş, müxtəlif növ yun məmulatı və keyfiyyətli bıçaqlar istehsalı üzrə böyük şöhrət qazanmış (4; 5), XI-XII əsrlərdə çiçəklənmə çağını keçirmişdir. Monqol istilası Şəmkir şəhərinin taleyində faciəli olmuş, 1235-ci ildə inadlı müqavimətdən sonra şəhəri zəbt edən monqollar əhalini qılıncdan keçirmiş, şəhəri xarabazara çevirmişlər. XIV əsrin əvvəllərində şəhərdə həyatı canlandırmağa cəhd göstərilsə də, uğursuz olmuşdur.

Orta əsr Şəmkir şəhərinin xarabalıqları Şəmkirçayın sol sahilində, Azərbaycan Respublikasının Şəmkir rayonunun Muxtariyyə kəndinin şimalında, 40°45′, 46°07′ koordinatlarda, dəniz səviyyəsindən 316, 3 m hündürlükdə yerləşir. Vaxtilə qaynar həyatın çağladığı şəhərdən bu günə uçmuş, dağılmış istehkam qalıqları, keçmiş tikintilərdən xəbər verən ayrı-ayrı hörgü qalıqları, təpəciklər qalmışdır. Şəhər xarabalıqlarında addımbaşı şirli və şirsiz saxsı qabların xırdalanmış fraqmentlərinə, ara-sıra istehsal tullantılarına, mis sikkələrə rast gəlinir. Şəhərin qədim tarixi ilə bağlı maddi mədəniyyət qalıqları – ictimai-dini binaların, yaşayış evlərinin, döşənmiş küçə və meydanların, şaxələnmiş su təchizatı sisteminin, sənət istehsalı ilə bağlı emalatxanaların qalıqları, müxtəlif təyinatda alət və silahlar, çeşidli məişət avadanlığı, bəzək əşyaları torpaq qatları altında qalmaqdadır. Arxeoloji qazıntılar torpağın qoruduğu həmin maddi mədəniyyət qalıqlarına ikinci həyat verə bilər.

Orta əsrlərdə şəhərlər adətən üç topoqrafiq hissədən ibarət olurdu: narınqala (içqala), şəhristan (içərişəhər) və rabad (bayırşəhər). Şəmkir şəhər xarabalıqlarında istehkam qalıqları nisbətən yaxşı mühafizə olunduğundan şəhristan və narınqalanı vizual izləmək mümkündür. Şəhər xarabalıqlarının qala divarları

ilə əhatə olunan sahəsi (şəhristan) 28 hektar ərazini əhatə edir, qərb-şərq istiqamətində olmaqla planda dördbucağa yaxın formadadır (şəkil 1). Narınqala şəhristanın şərqində, Şəmkirçayın sahilində, çay yatağından 8,5 m hündürlükdə yerləşməklə 1 hektara yaxın sahəyə malikdir. Şəhristanın divarlarında qala darvazalarının yerini çətinlik çəkmədən müəyyənləşdirmək olur. Vizual müşahidə əsasında belə qənaətə gəlmək olur ki, şəhərin hər bir divarında olmaqla dörd qapısı olmuşdur.



Şəkil 1.

Şimal divarından bayırda, şəhristandan şimal-şərqdə müasir qəbiristanlıq yerləşir. Burada çaydaşı və bişmiş kərpicdən kirəc məhlulunda inşa edilmiş orta əsr tikililərinin qalıqları bu gün də qalmaqdadır. Orta əsrlərə aid mədəni təbəqə yatımının varlığı şəhristandan cənubda, müasir kənd ərazisində də qeydə alınıb. Rabadın qala divarları ilə əhatə olunmasını təsdiq və ya inkar etmək çətindir.

Şəhər xarabalıqlarından, narınqaladan şərqdə, Şəmkirçayın yatağında orta əsr körpülərinin qalıqları yerləşir. Onlardan nisbətən qədimi (ehtimal ki, XI əsr) bişmiş kərpic, ağ puç daş və çaydaşından keyfiyyətli yapışdırıcı məhlulda qarışıq hörgü texnikası ilə hörülərək şəhristana istiqamətlənmişdir. Qalıqlar bu körpünün çoxaşırımlı olduğunu düşünməyə əsas verir.

Orta əsr Şəmkir şəhər xarabalıqları haqqında məlumat hələ XIX əsrin birinci yarısında elmi dövriyyəyə daxil edilsə də, burada geniş arxeoloji tədqiqatlar XXI əsrin ilk on illiyində başlamışdır. Rusiya ordusunda xidmət edən

Don Juan van Halen 1820-ci ildə bir tacirdən Şəmkir şəhər xarabalıqlarından tapılmış Makedoniyalı İsgəndərin gümüş pulunu almışdır. 1826-cı ildə Eyxvald, daha sonra isə N. Florovski şəhər xarabalığına baxış keçirmiş, sonuncu Şəmkir minarəsinin geniş təsvirini vermişdir (6, s. 363-364). B.Dorn 1875-ci ildə Sankt-Peterburq şəhərində çap olunan "Kaspi" əsərində bu abidədən də bəhs etmişdir. Keçən əsrin 30-cu illərində Y.A. Paxomov şəhər xarabalıqlarına baxış keçirmiş, 70-80-ci illərdə burada memarlar tədqiqat işləri aparmış və həmin tədqiqatların yekunu olaraq şəhərin plan quruluşuna dair fikirlər söyləmişdilər. 1970-ci ildə arxeoloq Qara Əhmədov və epiqraf Məşədixanım Nemət Şəmkir şəhər yerində olmuş, M.S.Nemət buradan tapılmış kufi xətli, ərəbdilli kitabəni oxumuşdur (7). 1975-ci ildə o zaman fəaliyyət göstərən Şamxor arxeoloji ekspedisiyasının üzvləri şəhər xarabalıqlarına baxış keçirmişdir. 2001-ci ildə isə Azərbaycan-amerikan arxeoloji ekspedisiyası burada kəşfiyyat xarakterli tədqiqat işləri görmüşdür. 2006-cı ildə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu abidənin şəhristan sahəsində yoxlama qazıntısı aparmış, abidənin mədəni təbəqəsinin xarakteri müəyyənləşdirilmişdir. 2007-ci ildən isə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirliyi və Regionların İnkişafı İctimai Birliyinin birgə layihəsi üzrə geniş miqyaslı arxeoloji qazıntı işlərinə başlanılıb. 2006-2008-ci illərdə Şəmkir şəhər yerində altı sahədə qazıntı işləri aparılıb.



Şəkil 2.

I qazıntı sahəsi Şəmkir şəhər yerinin şəhristan hissəsində, narınqalanın cənub-qərb bürcündən 130 m qərbdə yerləşir və 16 kv m sahəni əhatə edir. Əslində bu yoxlama qazıntısı idi. Onun başlıca məqsədi abidənin mədəni təbəqəsinin stratiqrafiyasını, mədəni mənsubiyyətini və xronoloji çərçivəsini müəyyənləşdirmək idi.

İlk üç təpkeşin götürülməsi mədəni təbəqə yatımının 60 sm dərinliyədək tamamilə dağıdılaraq qarışdırıldığını göstərdi. Mədəni təbəqə yatımının pozulmamış qatı dördüncü təpkeşdə, 66-68 sm dərinliklərdən izlənilmişdir. Üst inşaat qatında bünövrə və divar qalıqları üzə çıxarılıb tədqiq edilmişdir (şəkil 2). Şərq-qərb istiqamətində yerləşmiş bünövrənin eni 80-82 sm idi. Cənub-qərbdən şimal-şərqə istiqamətlənmiş divarın kərpic hörgüsünün üç cərgəsi tam, dördüncü cərgəsi isə qismən salamat qalmışdı. Divarın eni 68-70 sm təşkil etməklə üç kərpicin yanaşı qoyulması ilə tikilmişdi. Divar üçün eni 80 sm olan, iri və orta ölçülü çaydaşlarından bünövrə qoyulmuşdu. Stratiqrafik müşahidə, əldə olunan arxeoloji materialların təhlili -150 sm dərinliyə qədər mədəni təbəqə yatımında XI-XII əsrlərin tikili qalıqlarının və maddi mədəniyyət nümunələrinin yerləşdiyini söyləməyə əsas vermişdir.

XI əsrin tikililərinin bünövrələri götürüldükdən sonra mədəni təbəqənin alt inşaat qatında iki təndirxana və quyular üzə çıxarılıb tədqiq edilmişdir. VIII əsrə aid edilən, -212 sm dərinlikdə aşkarlanan iri təsərrüfat quyusu quruluşu və tapıntıların zənginliyi ilə fərqlənmişdir. Planda düzgün olmayan dairə formasında, diametri ağzında 187-197 sm olan bu quyunun divarları tədricən aşağıya doğru konusvari genişlənib -340 sm dərinlikdə 220 sm-ə çatırdı. Daha sonra quyu divarları çıxıntı yaradaraq daralır və silindrik biçimdə -448 sm dərinliyə qədər davam edirdi. Quyunun dibində diametri 160 sm idi. Quyudan müxtəlif təyinatlı dəmir məmulat, misdən bəzək əşyası, şirsiz saxsı məmulat, xüsusilə çoxlu şüşə qab qırıqları, dən daşı fraqmenti tapılıb.

Stratiqrafik yoxlama qazıntısından əldə olunmuş arxeoloji materiallar arasında saxsı məmulat tam üstünlük təşkil edir. Şirsiz saxsı məmulat küp, səhəng, bardaq, küpə, güvəc, qapaq, çıraq, şarkonusvari və s. qab qırıqlarından ibarətdir. Şirli saxsı məmulatı əsasən boşqab, kasa, piyalə, dopudan ibarət olub açıq sarı, yaşıl və firuzəyi şirlə şirlənmişlər.

Beləliklə, 2006-cı ildə orta əsr Şəmkir şəhər yerində I sahədə aparılmış arxeoloji qazıntı şəhərin şəhristan hissəsində mədəni təbəqə yatımının 2,2 m-dən artıq olduğunu, burada VIII əsrin sonundan XIII əsrin ilk qərinəsinə qədər intensiv şəhər həyatının varlığını təsdiqlədi.

Narınqaladan cənubda, şəhristanın şərq divarından 40 m aralıda, Şəmkirçayla qala divarı arasındakı ərazidə mədəni təbəqənin varlığını müəyyənləşdirmək məqsədi ilə 25$m^2$ sahəni əhatə edən II qazıntı qoyulmuş, üst qatda, I təpkeşdə bişmiş kərpic ovuntularına, seyrək saxsı qab qırıqlarına rast gəlinib. 20-80 sm dərinliklərdə isə heç bir orta əsr maddi mədəniyyət nümunəsinə rast

gəlinmədiyindən bu sahədə qazıntı işləri dayandırılmışdır. Görünür, bu ərazidə orta əsrlərdə yaşayış olmamış və müvafiq olaraq mədəni təbəqə yatımı əmələ gəlməmişdir.

Narınqalanın şərq divarının tədqiqi məqsədi ilə 2007-ci ildə uzunluğu 80m, eni 4m olmaqla divarın bayır tərəfində III qazıntı qoyulmuş, tədqiqatın gedişatında qazıntı sahəsinin eni bəzi yerlərdə 10m- dək genişləndirilmişdir. 2008-ci ildə isə III qazıntının uzunluğu 160m-ə, sahəsi isə təxminən 1500m$^2$ çatdırılmışdır. Qazıntı işləri nəticəsində 140m-dən artıq məsafədə narınqalanın şərq divarı torpaq qalaqlarından təmizlənib. Divar bünövrəyədək tədqiq edilib. Təmizlənib üzə çıxarılmış qala divarının qalıqlarının hündürlüyü 5-7,5m arasında dəyişir (şəkil 3). III qazıntı sahəsində aparılmış arxeoloji qazıntılar narınqalanın plan quruluşuna, konstruktiv xüsusiyyətlərinə dair olduqca qiymətli faktik materiallar verib, memarların əvvəllər apardıqları tədqiqatlara əsasən irəli sürdükləri nəticələrin qüsurlarını üzə çıxarıb. Narınqalanın şərq divarı mərkəzi və künc bürcləri, düzbucaq biçimli divara dayaqlar (kontrforslar) ilə möhkəmləndirilmişdir.

Qala divarının ucaldılmasında bişmiş kərpic, çaydaşı və yerli ağ daş (Zəyəm daşı), əhəngli məhluldan istifadə olunmuşdur. Qala divarları təmizlənərkən götürülən mədəni təbəqə inşaat materialları – çaydaşı, bişmiş kərpic və ağ daşlardan, əhəng, kərpic ovuntusu, çınqıl qatları ilə zəngindir. Mədəni təbəqənin qalınlığı qazıntı sahəsinin müxtəlif kvadratlarında fərqli olub bəzi yerlərdə 7- 7,5m – ə çatır. Buradan XI – XIII və XIX əsrlərin müxtəlif maddi mədəniyyət nümunələri tapılmışdır. Mədəni təbəqənin 2m, bəzi yerlərdə daha artıq qatı bişmiş kərpiclərin, kərpic parçalarının və əhəng topalarının, qatlarının zənginliyi ilə fərqlənir. Stratiqrafik dəlillər bu təbəqənin qısa zaman kəsiyində yarandığını göstərir. Bu inşaat materialları qalaqlarının qala divarının XIII əsrdə monqol hücumu zamanı dağılması nəticəsində əmələ gəldiyi ehtimal



Şəkil 3.

olunur. 29 saylı kvadratda 2,2m enində sahə qazılmadan saxlanılmış, yan kəsiklərdən stratiqrafik müşahidə üçün imkan yaranmışdır. Bu hissədə təbəqə yatımının qalınlığı 5m-dən artıqdır. Üst, 1m qalınlıqda təbəqə tərkibində çaydaşları, təkbir bişmiş kərpic parçaları olan yumşaq torpaq qatı ilə səciyyələnir. 1,1-3,5m dərinliklərdə, yəni 2,5m qalınlıqda təbəqə inşaat materialları- bişmiş kərpic və onun qırıqları, çaydaşı, yerli ağ daş qırıqvarı, əhəng ovuntusu və hörgü məhlulu qalıqları ilə zəngin olub, içərisində heç bir alət, məişət avadanlığı, bəzək əşyası və digər maddi mədəniyyət nümunəsinə rast gəlinmir. Bu töküntü qatı uzun müddət ərzində, tədrici deyil, qısa zaman kəsiyində, bir neçə gündə güclü dağıntı nəticəsində əmələ gəlib. Görünür, bu təbəqə monqol işğalı ilə bağlıdır. Alt, qalınlığı 1,5m olan təbəqə çınqıllı-qumlu, tərkibində əsasən XI-XIII əsrin əvvəllərinin maddi mədəniyyət nümunəsi olan torpaq qatı ilə səciyyələnir.

IV qazıntı sahəsi narınqalanın içərisində, onun şərq tərəfində 1300m$^2$ sahəni əhatə edir (şəkil 4). Burada qalınlığı bəzi yerlərdə 6m-ə çatan mədəni təbəqə yatımı qeydə alınmışdır. Üst mədəni təbəqədə XIX əsrə aid rus hərbçilərinin istifadə etdikləri binanın qalıqları təmizlənərək öyrənilmişdir. Bina eyni ölçülü 2 otaq və dəhlizdən ibarət olmaqla 188,8m$^2$ sahəyə malik idi. Onun bünövrəsi çaydaşından, divarları çaydaşı və bişmiş kərpicdən hörülmüşdür. Cənubdakı otağın döşəməsi taxtadan idi. Döşəmədən altda zirzəmi yerləşirdi. Dəhliz və şimaldakı otağın döşəməsi bişmiş kərpiclə döşənmişdir. Binanın qarşısında yüngül, ağac konstruksiyalı eyvan var imiş. Qazıntı zamanı eyvanın səkisi və örtü-



Şəkil 4.

yünü saxlayan dirəklərinin qalıqları üzə çıxarılıb. Binanın və eyvanın dam örtüyü, görünür, şirsiz kirəmitlərdən qurulubmuş. Eyvanın qarşısında minik heyvanlarının bağlanması və yemlənməsi üçün düzəldilmiş axurun qalıqları da üzə çıxarılıb.

Qalınlığı 5 m-ə çatan alt, orta əsr təbəqəsində istehkam qalıqları, təsərrüfat və məişət təyinatlı tikililər üzə çıxarılmışdır. İlk növbədə qeyd edək ki, IV qazıntı sahəsində narınqalanın şərq divarı içəri tərəfdən 72m uzunluqda açılaraq təmizlənmişdir (şəkil 5). Məlum olmuşdur ki, narınqalanın şərq divarının eni 3,5-4m, divara dayaq (kontrfors) hissədə isə 5,3 m.

Narınqalanın içərisində, IV qazıntı sahəsində daha bir qalanın qalıqları aşkar edilib tədqiq olunmuşdur. Həmin qalanın şərq divarı demək olar ki tam, cənub divarı qismən izlənilmişdir. Şərq divarı 2 yarımdairəvi künc və düzbucaqlı mərkəzi bürclə möhkəmləndirilmişdi. Uzunluğu şimal-şərq bürcdən cənub-şərq bürcə 53,4m. Şimal-şərq bürcdən mərkəzi bürcə 16,8m, mərkəzi bürcdən cənub-şərq bürcə 17,6m. Mərkəzi bürcün uzunluğu 7,05-7,4m olmaqla yuxarıya doğru daralır. Bu istehkam tikilisinin hörgüsündə zəlzələyə qarşı ağac qurşaqlardan istifadə də qeydə alınmışdır. Ağac qurşaqlar daş hörgüdən çiy kərpic hörgüyə keçiddə yerləşdirilmişdir. Daş hörgüdən kərpic hörgüyə keçiddə üfqi atılmış tirlərin qalıqları qalmışdır. Şərq divarında bürcdən 1,2m şimalda isə tir qalığı altında diametri 16sm olan şərq-qərb istiqamətində atılmış başqa bir tir yeri vardır. Şərq divarında çiy kərpic hörgü sonradan təmir zamanı bişmiş kərpiclə üzlüklənmişdir. Bişmiş kərpiclə üzlüyün qalıqları divarın müxtəlif yerlə-



Şəkil 5.

rində fərqli olub, hündürlüyü 1,35m-dən 2,18m-dək dəyişir. Diqqəti çəkən bürcdən 6,4m şimalda bişmiş kərpicdən üzlük hörgünün daş hörgüdən 20sm şərqə, bayıra çıxmasıdır. Çıxıntı altında daş hörgünün olmaması təmir işlərinin aparıldığı zaman mədəni təbəqə yatımının daş hörgü bitənədək qalxdığını və bişmiş kəpic hörgüsünün o zamankı yer səviyyəsinə uyğun düzüldüyünə dəlalət edir. Beləliklə, bişmiş kərpic hörgünün sonrakı təmir işləri zamanı yerinə yetirildiyini və üzlük rolunu oynamasının şahidi oluruq. Diqqətəlayiq haldır ki, arxeoloji qazıntılar zamanı təmir işlərinə dəlalət edən qalıqlar da üzə çıxarılıb. Cənub-şərq bürcünün qarşısında 1,7m uzunluqda, 1,25-1,35m enində, 16-22sm qalınlıqda kirəc qatı, üst-üstə yığılmış, amma hansısa səbəbdən işlədilməmiş bişmiş kərpic qalağına rast gəlinmişdir. Kirəc qatından götürülmüş nümunənin fiziki-kimyəvi, rentgen faza, termiki analiz üsullarından istifadə olunmaqla aparılmış analizi həmin yapışdırıcı məhlulun əsasının gips təşkil etməklə tərkibində həm də kalsit və kvars, az miqdarda çöl şpatı olduğunu göstərmişdir. Ümumilikdə bişmiş kərpiclə üzlük hörgü səliqəsiz icra olunmuşdur. Divarın bayıra əyriliyi də buna dəlalət edir. Divarda diametri 25sm olan şaquli tir yerinin qalması vaxtilə onun dirəklə əlavə möhkəmləndirildiyini düşünməyə əsas verir.

6a və 6b kvadratlarında qalanın şərq divarına perpendikulyar birləşən, cənub divarına paralel, eni 1,7m olan çiy kərpicdən hörülmüş divar qalığı üzə çıxarılıb. Hazırda onun təmizlənmiş hündürlüyü 1,1m təşkil edir. Diqqətəlayiqdir ki, bu qalanın şərq divarında, çiy kərpic hörgüdə dərinliyi 2,8m olan quyu aşkarlanıb təmizlənmişdir. Həmin quyudan dəmir qın, bıçaq qırıqları, şirsiz saxsı səhəng, dar boğazlı bardaq, çıraq nümunələri, monoxrom və polixrom şirli saxsı qablar, fayans kasa qırıqları, şüşə qab və bilərzik qırıqları tapılıb. Tapıntılar əsasən IX-X əsrlər üçün səciyyəvidir.

IV qazıntı sahısində Orta əsr təbəqəsində üzə çıxarılmış IX-X əsrlərə aid təndirxana diqqətəlayiq qalıqlardan sayıla bilər (şəkil 6). Təndirxana çay daşları ilə hörülmüş divarla əhatələnmişdir. Burada 3 təndir qalığı və çirkli suyun hopdurulması üçün quyu aşkar edilib təmizlənmişdir. Təndirlər kiçik ölçülü olub diametrləri 48-52sm, salamat qalmış divarlarının hündürlüyü 44-48sm. Kompleksə daxil olan quyunun diametri ağzında 90sm, dibində 1m idi. Dərinliyi isə 1 metr 92sm idi. Quyunun ağzı hörülmüş, üstü uzun yastı daş və böyük ölçülü bişmiş kərpiclərlə örtülmüşdü. Quyunun mərkəzində yerləşdirilmiş kərpicin ortasındakı 9sm diametrində deşik suyun quyuya axmasını təmin etmişdir. Kompleksin sahəsi yastı daşlar və bişmiş kərpiclərlə döşənmişdi. Kompleksdən cənubda daha bir oxşar tikinti qalıqları üzə çıxarılmışdır.

IX əsrə aid edilən bişmiş kərpiclə inşa olunmuş kiçik bir tikintinin qərb divarında eni 60sm olan qapı vardı. Şərq divarı isə sonrakı dövr tikintiləri zamanı tamamilə dağıdılmışdı. Onun döşəməsi bişmiş kərpiclə səliqə ilə döşənərək üzərinə kirəclə suvaq çəkilmişdir.




Narınqalanın şimal-şərq bürcünü, şimal divarının öyrənmək məqsədini güdən, şərq tərəfdə III qazıntı ilə birləşən V qazıntı sahəsinin əvvəlcə uzunluğu 32m, eni 20m idi. Sonradan şəhristanın qala divarının üzə çıxarılması və tədqiqi ilə bağlı olaraq bu qazıntı sahəsi 8m enində olmaqla daha 16m şimala genişləndirilmişdir.

Qazıntı zamanı narınqalanın şimal-şərq bürcündən 17m qərbdə daha bir bürcün qalıqları üzə çıxarılıb. O yarımdairəvi formadadır və daha çox dağıntıya məruz qalıb. Narınqalanın şimal-şərq bürcünün, eləcə də şimal divarının tədqiqi burada monqol işğalı zamanı böyük dağıntının törədildiyini və qala divarlarının uzun müddət xarabalıq halında qaldığını göstərir. Sonradan burada bərpa və təmir işləri aparılmış, bərpa zamanı bürcün hörgüsündə çaydaşı və bişmiş kərpic parçalarından istifadə edilmişdir. Hörgü adi palçıqla icra olunmuş, kobudluğu və bəsitliyi ilə əvvəlki hörgüdən aydın şəkildə fərqlənir. Bu zaman bürclər arasındakı divar və yeni açılmış bürc isə çiy kərpiclə hörülmüşdür. Hörgü çox pis mühafizə olunmuş, xüsusilə şimal cərgələr uçub dağılmışdır. Qazıntı zamanı Narınqalanın şimal-şərq bürcündən divara keçiddə kiçik kül quyusu aşkarlanmışdır. Onun diametri 1m, dərinliyi 60sm idi. Quyu içərisində bir neçə heyvan sümüyü və saxsı parçasının olduğu kömür qırıntıları, kül ilə dolu idi.

V qazıntı sahəsində həm də şəhristanın qala divarının tədqiqinə başlanıb. Burada şəhristanın qala divarının narınqalanın şimal–şərq divarına birləşməsi faktı üzə çıxarılıb. Narınqalanın şimal-şərq bürcünün qalıqları ilə şəhristanın

bürcünün qalıqlarının səviyyəsi arasındakı fərq 2m-dən artıqdır. Bu isə qazıntılara qədər şəhristanın müşahidə olunan bürcünün narınqalanın şimal – şərq bürcü kimi qəbul edilməsinə səbəb olmuşdur. Arxeoloji qazıntılar zamanı isə tamamilə fərqli mənzərə üzə çıxarılıb. Məlum olub ki, narınqalanın şimal-şərq bürcünün qarşısında şəhristanın ona birləşən yarımdairəvi bürcü və şimal divarına paralel şəhristanın qala divarı vardır. Şəhər bürcünün qövsü 29,5m olub cənub tərəfdə bucaq altında dönərək narınqalanın bürcünə birləşir. Bürcün salamat qalmış hörgüsünün hündürlüyü 5,6m. Şəhristanın qala divarı narınqalanın şimal divarından 4,05-4,5m aralı olmaqla 14m uzunluqda ona paralel yerləşir, sonra isə şimala dönür (şəkil 7). Bu hissədə divarın salamat qalmış qalıqlarının qalınlığı hörgünün üst cərgələrində 1,8-2m və aşağıya doğru tədricən enliləşir. Şimala dönən şəhristan divarı V qazıntı sahəsində 25,4 m uzunluqda izlənilmişdir (şəkil 8). Şəhristanın şərq divarı da narınqala divarı ilə eyni üslubda, Arran memarlıq məktəbi üçün səciyyəvi olan bişmiş kərpic, çaydaşı və yerli ağ puç daşdan istifadə etməklə kombinə edilmiş hörgü ilə inşa olunmuşdur. Arxeoloji qazıntılar monqol işğalı zamanı düşmənin şəhristanın qala divarını dağıdıb şəhərə daxil olduğu yeri də müəyyənləşdirmək üçün əsas yaradıb. Diqqəti çəkən faktlardan biri də şəhristanın narınqalaya birləşən bürcünün hörgüsünün divar hörgüsünə nisbətən fərqli olmasındadır. Ehtimal etmək olar ki, o sonradan tikilmiş və yaxud dağıldıqdan sonra yenidən əsaslı şəkildə təmir edilmişdir. V qazıntı sahəsində arxeoloji qazıntılar sona yetmədiyindən, həmin hissənin təmizlənməsi davam etdiyindən bu məsələ hələlik tam aydınlaşdırılmayıb. Şübhəsiz ki, davam edən arxeoloji qazıntılar bu məsələyə aydınlıq gətirəcək.



Şəkil 7.

V qazıntı sahəsində, yeni artırılmış kvadratlarda çoxlu metal pasa qalıqlarının aşkarlanması diqqəti çəkir və XI-XII əsrlərdə burada dəmirçiliklə bağlı istehsalın mövcudluğuna dələlət edir. Buradan, bürc yaxınlığından habelə monqol işğalı zamanı həlak olan və uçmuş divar töküntüləri altında qalan döyüşçülərin skelet qalıqları aşkarlanmışdır.

Şəhristanın şimal-şərq sektorunda, şəhər qala divarlarından 15m aralıda şimal-şərq cənub-qərb istiqamətində yerləşən, uzunluğu 36m, eni 14m olan təpəlik sahə diqqəti cəlb etmiş, onun xarakterini müəyyənləşdirmək məqsədi ilə uzunluğu 32m, eni 2m olan yoxlama qazıntısı qoyulmuşdur. İlkin nəticələr əsasında cənub tərəfdə yoxlama xəndək qazıntısı 10m qərbə və 10m şimala genişləndirilərək VI qazıntı sahəsinə çevrilib. Burada mədəni təbəqədə tikili qalıqları üzə çıxarılıb. Divarlardan birinin uzunluğu 4,5m, təmizlənmiş hündürlüyü isə 1,8m. Digər divarın qalıqları 2,4m uzunluqda, 1,3m hündürlükdə izlənilmişdir. Onun qarşısında eni 70 sm olan səkiyəbənzər çıxıntı vardır. Divarlar əsasən çaydaşından hörülüb. Üzərinə kirəclə suvaq çəkilib.Qazıntı sahəsindən, xüsusilə çoxlu inşaat materialları, o cümlədən səliqə ilə yonulmuş yerli ağ daş tapılıb. Xeyli miqdarda səliqə ilə yonulmuş yerli ağ daşın tapılması bu tikintidə həmin inşaat materialından istifadə edildiyinə dəlalət edir. VI qazıntı sahəsində tikinti qalıqlarının təmizlənməsi və arxeoloji tədqiqi davam edir.

Orta əsr Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılar nəticəsində üzə çıxarılan tikili qalıqları, ilk növbədə istehkam qalıqları şəhərdə inşaat sənətinin yüksək səviyyəsindən xəbər verir. Yuxarıda qeyd edildiyi kimi, arxeoloji qazıntılar nəticəsində narınqalanın şərq divarı bütünlüklə, şimal divarı qismən torpaq qalıqlarından təmizlənmiş, şərq divarı bünövrəyədək tədqiq edilmişdir.

Məlum olmuşdur ki, qala divarında bünövrə və kürsülük ərazinin relyefin-



Şəkil 8.

dən, xam torpağın xarakterindən asılı olaraq fərqli olmuşdur. Şimal-şərq bürcündə səliqə ilə yonulmuş yerli ağ daşlardan və iri çaydaşlarından, keyfiyyətli əhəngli, gilli yapışdırıcı məhlulla qoyulmuş bünövrə kürsülüklə vahid konstruksiya təşkil edirdi və iki pilləli idi. Belə quruluş divarın dayanaqlığını artırır, onun antiseysmik imkanlarını gücləndirirdi. Bünövrə və kürsülüyün hündürlüyü 1,5m-ə çatırdı. Mərkəzi bürc və ona birləşən divarlar sahəsində torpaq qatı qaya sərtliyi və möhkəmliyinə malik olduğundan burada əsaslı bünövrə və kürsülüyə ehtiyac duyulmamış, bünövrə əvəzinə səthi hamarlamaq məqsədi ilə divarın altına qalınlığı 10 sm olan çox möhkəm, betonabənzər məhlul verilmiş, sonradan divar hörgüsünə başlanılmışdır.

Narınqalanın şərq divarı bürclər və düzbucaq biçimli divara dayaqlarla (kontrforslarla) möhkəmləndirilmişdir. Şimal-şərq bürcündən cənub-şərq bürcünün kənarına qədər 148m. Şimal-şərq bürcdən mərkəzi bürcə qədər məsafə 41,3m, mərkəzi bürcdən cənub-şərq bürcə qədər isə 49,9metrdir. Şimal-şərq bürclə mərkəzi bürc arasında yerləşən divara dayağın uzunluğu 13,1m, çıxıntısı 1,75-1,85metrdir. Mərkəzi və cənub-şərq bürcləri arasında yerləşən divara dayağın uzunluğu 15,3m, çıxıntısı 1,55m. Hər iki divara dayaq düzbucaq biçimlidir. Şimal-şərqdəki künc bürcü ənənəvi formada olmayıb uzunsov-qövsvari, şimalda yarımdairəvi formadadır. Onun qövsünün uzunluğu 37,7 m. Şimal-şərq bürcünün kürsülükdən ciy kərpic hörgüyə qədər hündürlüyü 6,3m. Çiy kərpic hörgü təmirlə bağlı olub, əsasən, bürcün yarımdairəvi hissəsində qalıb. Mərkəzi və cənub-şərq bürcləri ənənəvi yarımdairəvi formalıdırlar. Qala divarının ucaldılmasında bişmiş kərpic, çaydaşı və ağ puç daş, yüksək keyfiyyətli gilli-əhəngli yapışdırıcı məhluldan istifadə olunmuşdur. Bişmiş kərpic və ağ puc daş həm də üzlük materialı kimi işlədilmişdir. Ağ puc daşlar 60x45; 59x43; 59x47; 63x42; 72x45; 57x38; 77x35; 49x37; 50x52; 55x27; 61x32sm və s. ölçüdədirlər.

Ustalar divarın üzlüyünə xüsusi diqqət yetirmişlər. Bişmiş kərpic, çaydaşı və ağ puç daşdan yüksək peşəkarlıqla istifadə divarın monumentallığını və bədii-estetik təsir gücünü artırmışdır. Qarışıq hörgüdə daş və bişmiş kərpic cərgələrinin növbələşməsi, polixrom divar səthində ağ-boz, göy və qırmızı-çəhrayı rənglərin ritmik dəyişməsi göz oxşayır, seyrçidə xoş ovqat yaradır. Divarın içərisi isə bişmiş kərpic və çaydaşından gilli-əhəngli birləşdirici məhlulla hörülmüş və üzlük divarlar arasına çaydaşları tökülərək yüksək keyfiyyətli yapışdırıcı məhlulla doldurulmuş, nəticədə möhkəm kütlə əmələ gəlmişdir.

IX-XIII əsrlərin mülki tikililəri əsasən 22x22x5sm, 23x23x5sm, 23,5x23,5x5sm, 23,5x23,5 x5,5sm ölçüdə bişmiş kərpiclərdən və çaydaşından əhəngli yapışdırıcı məhlulda inşa olunmuşdur. Diqqəti çəkən IX-X əsrlər təbəqəsində 43x43x7sm, 45x45x6sm, 45x45x7sm ölçüdə iri bişmiş kərpiclərə rast gəlinməsidir. Belə kərpiclərdən beş ədədi üst-üstə qoyulmuş şəkildə qazıntının cənub tərəfində, 1a kvadratında üzə çıxarılıb. Azərbaycanda belə iri

ölçülü kərpiclərdən istifadə IV-VII əsrlər üçün səciyyəvidir.

2007-2008-ci illərdə Orta əsr Şəmkir şəhər xarabalıqlarında aparılan arxeoloji tədqiqatlar nəticəsində şəhər abadlığına dair maraqlı faktik materiallar əldə olunmuş, mühəndis qurğularının qalıqları üzə çıxarılmışdır. Şəhristanın qərb divarına paralel aşkarlanmış kəhriz, narınqalada üzə çıxarılmış kanalizasiya xətti bu qəbildəndir.

Şəhristanın qərb divarı qalıqlarından 20 m aralı, ona paralel, şəhərin rabad sahəsində aşkarlanıb tədqiq edilən kəhriz qalıqları şəhər sakinlərinin içməli su ilə təchizində kəhrizlərdən istifadə olunduğunu göstərir. Kəhrizin kürəsi bişmiş kərpiclə tağlı şəkildə hörülüb. Onun eni 82 sm, hündürlüyü 51sm. Kəhrizin yoxlama quyusu, aşağı genişlənən konus şəkilində olub, dərinliyi 1,45m, diametri ağzında 43sm, dibində 82sm. Quyu bişmiş kərpiclə səliqə ilə hörülüb (şəkil 9).

Narınqalada orta əsr təbəqəsində aşkar edilmiş, IX-X əsrlərə aid kanalizasiya xətti böyük elmi əhəmiyyətə malikdir və yüksək şəhər mədəniyyətindən xəbər verən maddi dəlildir. IV qazıntı sahəsinin 1c kvadratında qərb tərəfdən gələn əsas xəttə cənubdan yan xətt qoşulur. Əsas xətdə kanalın eni 35sm, yan xətdə isə 23sm. Kanalizasiya. bişmiş kərpic, çaydaşı və yastı ağ daş lövhələrdən istifadə etməklə kürəbənd üsulu ilə qurulmuşdur (şəkil 10).

Arxeoloji qazıntılar nəticəsində orta əsr təbəqəsindən əldə olunmuş tapıntılar əmək alətləri və silah nümunələrindən, inşaat materialları və məişət əşyalarından, şirli və şirsiz saxsı, fayans qab nümunələrindən, metal, sümük və şüşə məmulatdan, bəzək əşyalarından, mis sikkələrdən ibarətdir. Mavi şirli kirəmit fraqmentləri də maraqlı tapıntılardandır. Əmək alətləri içərisində bıçaqlar çoxluq təşkil edirlər. Polifunksional əmək aləti olan bıçaqlar ölçü və



Şəkil 9.



Şəkil 10.

formalarına görə fərqlənirlər (tablo I). Qarmaqlar da çox tapılır və onlar müxtəlif ölçüdədirlər. Məişətdə işlədilən ərsinlər bir nüsxə ilə təmsil olunub. Tapıntılar arasında dəmir və misdən hazırlanmış bizlər də vardır. Daş alətlərdən kirkirə daşının fraqmentləri, bülöv və çəki daşları tapılmışdır.

Silahlar əsasən xəncər və ox ucluqları ilə təmsil olunub. Xəncərlər ikiağızlı olub tiyəsi uca doğru daralaraq sivrilişir. Ox ucluqlarının hamısı sulğunclu olub, pərlərinin en kəsiyi və formasına görə qrup və tiplərə bölünürlər (tablo II). Dəmir inşaat materialları - mıx, bərkidici, həncəma, ilişgə və s. kütləvi tapıntılardandır.

Tapıntıların böyük əksəriyyətini saxsı məmulatı təşkil edir. Şirsiz və şirli olmaqla saxsı məmulatı iki böyük bölməyə ayrılır. Şirsiz saxsı məmulatı, əsasən, təsərrüfat və məişətdə işlədilən müxtəlif təyinatlı qablar - küplər, səhənglər, bardaqlar, sərniclər, güvəclər, tavalar, küpələr, çıraqlar, şarkonusvari qablar ilə təmsil olunmuşdur. Onların əksəriyyətinin gili təmiz olub dulus çarxında hazırlanmış, sabit hərarət rejimində bişirilmiş, saxsısı sıx, rəngi cəhrayı-qırmızıdır. Şirsiz saxsı məmulatın bəzədilməsində cızma düz və dalğalı xətlər, çərtmələr, nöqtələr və batıqlar, yapma düyməciklərdən ibarət naxışlara, bəzən inkrustasiyaya rast gəlinir. Güvəclərin bədii tərtibatına xüsusi diqqət verilməsi də qeyd olunmalıdır. Onlar yapma qurşaqlar, düyməciklər, cızma xətlər, batıqlar, nöqtələr və s. naxış elementləri ilə bəzədilib.

Orta əsr Şəmkir şəhərinin saxsı məmulatı üçün qırmızı boyalı qablar da səciyyəvidir. Onların arasında orjinal forması ilə seçilən nümunələr də vardır. Misal üçün, ağzı novçalı kiçik tutumlu qabın boğazında simmetrik dörd yarımsilindr formasında bayıra genişlənmə ona bənzərsiz görünüş verir (tablo III, şəkil 1). Digər qab zoomorf forması ilə fərqlənir (tablo III, şəkil 2). Boğazı

dövrələyərək dairə yaradan qırmızı zolaqdan qabın gövdəsinin aşağısınadək çəkilmiş əyri zolaqlar orta və kiçik tutumlu bardaq və ya dolçaları daha cazibədar göstərirdi (tablo III, şəkil 3-4). Qırmızı boyalı, üzərində möhürlə vurulmuş ornamental kəmər olan küp nümunələrinin çoxluğu da qeyd edilməlidir. Möhürlə salınmış ornamental kəmərlərdə, adətən, keçi, maral, at, it, quş, balıq təsvirlərinə, həyat ağacına, bəzən insan təsvirinə rast gəlinir (tablo IV).

Erkən şirli saxsı məmulatı içərisində anqob və marqansla naxışlanaraq şəffaf, rəngsiz, açıq sarı və ya yaşıl şirlə şirlənmiş qablar çoxluq təşkil edirlər. Anqob, marqansla və mis oksidi ilə (yaşıl rəng) naxışlanaraq şəffaf, rəngsiz və ya şəffaf, açıq sarı rəngli şirlə şirlənmiş erkən polixrom şirli qablar da IX-X əsrlər üçün səciyyəvidir (tablo V). Onlar əsasən həndəsi və stilizə olunmuş nəbati naxışlarla bəzədilib. X əsrin sonundan qabların bədii işlənməsində şir altından cızma üsulla naxışlar salınmağa başlanır. Belə qablar daha çox yaşıl rəngdə şirlə şirlənib.

XI-XIII əsrlərin şirli saxsı məmulatı arasında cızma, qazma naxışlı monoxrom qablar, ağ anqob üzrə şir altından marqansla naxışlanmış qablar, cızma üsulu və müxtəlif rənglərlə işlənmiş nəfis polixrom şirli qablar geniş yayılmışdı. XI-XIII əsrin əvvəllərində polixrom şirli qabların istehsalına üstünlük verilmişdi. Onların bədii işlənməsində həndəsi və nəbati naxışlar, quş təsvirləri geniş tətbiq olunmuşdur. Bir polixrom şirli boşqab üzərində isə ovçu təsvirinə rast gəlinir (tablo VI, şəkil 1).

Orta əsr Şəmkir şəhərinin şirli və.şirsiz saxsı məmulatının müqayisəli təhlili onun Gəncə, Beyləqan, Bərdə və Dəbil şəhərlərinin keramikası ilə oxşarlıq təşkil etdiyini, Arran keramika məktəbinin mühüm mərkəzlərindən biri olduğunu təsdiq edir.

Şəmkir keramikası içərisində fayans qab nümunələri də az deyil. Çıxar nümunələrinə rast gəlinməsi yerli fayans istehsalının mövcudluğundan xəbər verir. Nümunələr əsasında kasa və piyalələrin istehsalının kütləvi xarakter daşıdığını düşünmək olar. Orijinal, az rast gəlinən qablara da təsadüf olunur. Diskşəkilli altlığı, şarşəkilli gövdəsi, alçaq, gen boğazı olan kiçik tutumlı qab bu qəbildəndir. Fayans qabların şirlənməsində ağ süd rəngli, mavi, firuzəyi, qəhvəyi, göy rəngli şirlərdən istifadə olunmuşdu (tablo VI, şəkil 3-4). Yerli fayans qabların bədii işlənməsində boya, cızma, basma və oyma üsullarından istifadə edilmişdir.

Rey və Kaşandan gətirilmə fayans məmulatı strukturuna və bədii tərtibatına görə yerli nümunələrdən fərqlənir.

Tapıntılar məişətdə nəfis şüşə qab-qacaqdan da geniş istifadə edildiyini təsdiqləyir. Qrafin, bərni, bokal, piyalə, stəkan və flakon fraqmentləri onların əsasən şəffaf şüşədən yüksək peşəkarlıqla hazırlandığını göstərir (tablo VII). Pəncərə şüşələrinin fraqmentləri də maraqlı tapıntılardan hesab edilir.

Bəzək əşyaları metal sırğalar, sancaqlar, üzüklər, pasta və şüşə munçuqlar, kaurilər, metal və şüşə bilərziklərdən ibarətdir (tablo VIII). Şüşə bilərziklər adi tapıntılardandır. Onlar qara, yaşıl, göy, cəhrayı, qızılı, sarı rəngli şüşədən hazırlanmış, en kəsikləri dairəvi, oval, üçbucaq formalıdır. Lentşəkilli, içəri tərəfdən hamar, bayır tərəfdən qabarıq bilərziklərə də rast gəlinir. Metal bilərziklər az da olsa müxtəlif tiplidirlər. Onlardan ikisinin tərkibinin spektral analizi həmin bilərziklərin qurğuşun və sink qarışığının faizinin çox olduğu tuncdan hazırlandığını göstərmişdir (8, s. 241).

Sikkələr əsasən mis pullardan ibarət olub ən qədim nümunə VII əsrin ikinci yarısına son sikkələr üst, XIX əsrə aid rus pullarıdır. Təyin olunan sikkələr arasında Azərbaycan Atabəylərinin zərb etdirdikləri sikkələr üstünlük təşkil edir. Tapıntılar arasında yarımfabrikat və istehsal tullantılarının olması isə Şəmkirdə zərbxananın fəaliyyət göstərməsinə dəlalət edən faktdır (9).

2006-2008-ci illərdə Orta əsr Şəmkir şəhər yerində aparılmış qazıntı işləri intensiv şəhər həyatının mövcudluğunu təsdiqləmiş, bu şəhərin sosial-iqtisadi, siyasi və mədəni inkişaf tarixinə dair maraqlı faktik materiallar vermişdir. Zəngin arxeoloji dəlillər həm də orta əsrlərdə Azərbaycanda urbanizasiya prosesinin səciyyəsi baxımdan böyük elmi əhəmiyyətə malikdir. Ümidvarıq ki, davam edən arxeoloji qazıntılar yeni-yeni faktları üzə çıxaracaq, orta əsr şəhərləri və şəhər mədəniyyəti ilə bağlı olan və həllini gözləyən məsələlərə aydınlıq gətiriləcək.

## ƏDƏBİYYAT:


1. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, 1974.
2. Баладзори. Книга завоевания стран. Перевод с арабского П.К.Жузе. Баку, 1927.
3. Артамонов М.И. История Хазар. Ленинград, 1962.
4. Hudud al-Alam. The region of the world. A Persian geography 372 h.d. / 982 a.d. Trans. and expl. by V. Minorski. London, 1937.
5. Миклухо-Маклай Н.А. Географическое сочинение XIII в. на персидском языке. // Учёные записки Института востоковедения АН СССР, 1954, т.9.
6. Флоровский Н. Елизаветпольский округ. // Обозрение российских владений за Кавказом. Ч. II., Санкт- Петербург, 1836.
7. Нейматова М.С., Ахмедов Г.М. Новые данные о городе Шамкире. // АО 1970 года. Москва, 1971.
8. Гасанова А.М. Историко-аналитическое исследование металлических изделий, обнаруженных при археологических изысканиях из территории Шамкирского района. // Шамкир: археологическое наследие, история и архитектура. Материалы первой научно-практической конференции. Баку, 2008.
9. Pirquluyeva Q.Ə. 2007-ci ildə Şəmkir qazıntılarından tapılmış mis pullar haqqında. // Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı. Birinci respublika elmi-praktik konfransı. Bakı, 2008.

# THE FIRST RESULTS OF ARCHAEOLOGICAL INVESTIGATION OF THE MEDIEVAL SHAMKIR CITY

*Tarikh Dostiyev*

## Summary

This article is dedicated to the archaeological investigation in the medieval Shamkir city. As a result of archaeological excavations the remains of eastern and northern walls of stronghold have been revealed. The walls were built by the way of laying and the lines of flamed brick alternate with fluvial cobble and white stone. The research of remains of fortress walls of "shahristan"- that means the city, has been started since 2008.

The capacity of the medieval layer of stronghold is up to 6 m. This layer is full of remains constructions of various purposes and numerous material findings date back to the VIII-XIII centuries. The household yards with tendirs (ovens), hearth, wells and cause ways have been also revealed. On the IV pit have been revealed and studied remains of sewerage date back to the IX-X centuries. The line of kagriz found during excavations is made of burnt brick. There are tools, weapon, ceramics, glass, vessel, fragments of pane, as well as bone and stone findings, decorations and copper coins.

# ПЕРВЫЕ ИТОГИ АРХЕОЛОГИЧЕСКОГО ИССЛЕДОВАНИЯ СРЕДНЕВЕКОВОГО ГОРОДИЩА ШАМКИР

*Тарих Достиев*

## Резюме

Статья посвящена итогам археологических работ на средневековом городище Шамкир. В результате археологических раскопок вскрыты остатки восточной и северной стены цитадели. Стены возведены техникой комбинированной кладки, где чередуются ряды обожжённого кирпича, речного булыжника и белого камня.

С 2008 г. началось изучение остатков крепостной стены шахристана, т.е. собственного города. Мощность средневекового слоя в цитадели достигает до 5 метров, который насыщен остатками строений различного назначения, многочисленными вещественными находками VIII-XIII вв. Вскрыты хозяйственные дворы с тендирами, очагами, колодцами, вымостами. На раскопе IV обнаружены и изучены остатки канализации IX-X вв. Выявлена также кагризная линия, сооруженная из обожжённого кирпича.

Находки представлены орудиями труда, оружием, керамикой, стеклянными сосудами, фрагментами оконного стекла, костяными и каменными изделиями, предметами украшения и медными монетами.

I.Tablo



II Tablo



III Tablo



1



2



3



4



IV Tablo

V Tablo


1


2


3


4


5


6


7


8

VI Tablo


1


2


3


4

VII Tablo



VIII Tablo



TƏDQİQATLAR
RESEARCHES
ИССЛЕДОВАНИЯ

# ZƏYƏMÇAY NEKROPOLUNUN QƏBİR TİPLƏRİ

*Nəcəf Müseyibli*
*(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)*

2002-2005-ci illərdə Gəncə-Qazax bölgəsində, Bakı-Tbilisi-Ceyhan neft (BTC) və Cənubi Qafqaz qaz (CQ) kəmərləri marşrutunda aparılan arxeoloji qazıntılar Azərbaycan arxeologiya elminin inkişafında mühüm bir mərhələni təşkil edir. Kəmərlərin dəhlizindəki abidələrin tədqiqi üçün yaradılmış BTC ekspedisiyası Azərbaycan arxeologiyasının bir sıra elmi problemlərinin araşdırılmasını təmin etmiş oldu. Bu baxımdan son tunc-ilk dəmir dövrü Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının maddi və mənəvi mədəniyyətini özündə əks etdirən zəngin dəfn abidələrindən ibarət Zəyəmçay nekropolunun qazıntılarını xüsusilə qeyd etmək lazımdır. Bu nekropolun qazıntısı Xocalı-Gədəbəy mədəniyyətinin qəbir tiplərinə, xronologiyasına, arxeoloji materiallarına, dəfn adətlərinə, inamlarına və s. məsələlərə dair çoxlu yeni faktların aşkarlanması ilə nəticələnmişdir.

Nekropol 2002-ci ilin iyun ayında müəllifin rəhbərlik etdiyi ekspedisiya tərəfindən aşkar edilmişdir. Abidə Şəmkir rayonu ərazisində, Bayramlı kəndi yaxınlığında, BTC marşrutunun 356-cı km-də, Zəyəmçayın sağ sahilində, çaya doğru uzanan alçaq təpəliklərin üzərində, dəniz səviyyəsindən 310 m yüksəklikdə yerləşir. Ərazinin bitki örtüyü yarımsəhra tiplidir. Nekropol 2 hektara yaxın ərazini əhatə edir. Burada qazıntı işləri 2003-cü ilin aprel-oktyabr aylarında, boru kəmərlərinin keçdiyi zolaqda aparılmışdır. Nəticədə 130-dan artıq qəbir abidəsi tədqiq edilmişdir (2, s.62). Zəyəmçay nekropolunda struktur etibarilə üç qəbir tipi müəyyən edilmişdir: kurqanlar, torpaq və daş örtüklü qəbirlər. Mahiyyət baxımından, dəfn adətlərinin xüsusiyyətlərinə əsasən bu qəbir tipləri biri-birinə çox yaxındır və eyni xronoloji çərçivəyə aid bu qəbirlərin hamısından analoji arxeoloji materiallar aşkar edilmişdir. Bu qəbirlər nekropolda qarışıq, nizamsız halda yerləşmişlər.

**Kurqanlar**

Kurqan tipli qəbir abidələri qazıntı sahəsinin əsasən şimali-qərb tərəfində, Zəyəm çayın dərəsinə doğru enişdə aşkar edilmişdir. Nekropolda say etibarilə azlıq təşkil edən bu kurqanların çox da böyük olmayan örtüyü çay daşlarından

ibarət idi. Müəllif tərəfindən qazılmış bəzi kurqanların strukturu maraq doğurduğundan bu kurqanlar barədə tam məlumatın verilməsini zəruri hesab edirik.

**116№-li kurqan (I və II tablolar)**

Bu kurqan qazıntı sahəsinin şimali-şərq divarı ətrafında yerləşirdi. Yerin səthində müşahidə edilən və müasir səthdən hündür olmayan kurqanın seyrək daş örtüyünün bir hissəsi qazıntı sahəsindən kənarda qaldığından həmin hissə genişləndirilmişdir. Çay daşlarından ibarət kurqan örtüyü 3,4 m x 3,8 m ölçülərə malik idi.

Qəbir kamerası 1,5m dərinlikdə, cənubi-qərb – şimali-şərq istiqamətində qazılmışdır. Kameranın uzunluğu 2,05m, eni cənubi-qərbdə 1,65m, şimali-şərqdə isə 1,15m olmuşdur. İnsan skeleti qəbirin şərq küncündə aşkar edilmişdir. Meyit başı cənuba olmaqla sol yanı üstdə, bud sümüyü zəif, dizdən aşağı baldır sümüyü isə sıx bükülü vəziyyətdə dəfn edilmişdir. Qolları dirsəkdən bükülmüş, əlləri sifəti qarşısına qaldırılmışdır. Bilək sümüyü ətrafında 8 əqiq və 3 pasta muncuq aşkar edilmişdir. Skelet olan sahədə, ondan üst səviyyədə 130sm uzunluğunda, 40sm enində və 30sm qalınlığında boz kül qatı aşkar edilmişdir. Ehtimal ki, dəfn zamanı od yandırma adətindən də istifadə edilmişdir. Skeletdən arxada, onun ayaqları ətrafında bir ədəd kasa tipli qabın pərakəndə halda səpələnmiş fraqmentləri təmizlənmişdir. Qəbirdəki digər qablar səliqə ilə düzüldükləri yerlərində olduğu kimi aşkar edilmişdir. Yalnız qəbir örtüyünün ağırlığından onların bəziləri çatlamışdır. Qəbirin şimal küncündə bir nehrə və bir qazan tipli qab yanaşı qoyulmuşdur. Tünd boz və qara rəngli xeyrə, qazan, küpə, bardaq tipli digər 18 ədəd saxsı qab qəbirin cənubi-qərb tərəfində çox sıx və səliqəli şəkildə yığılmışdır. Onlardan bəziləri digərlərinin üstünə qoyulmuşdur. Ümumiyyətlə, qabların üst-üstə yığılması Zəyəmçay nekropolundakı dəfn adətinin xüsusiyyətlərindən biridir.

Skeletdən arxada aşkar edilmiş kasanın fraqmentlərinə qəbir kamerasının içərisinə doldurulmuş torpaq qarışıq daşların arasında da rast gəlinmişdir. Görünür, dəfn zamanı bu qabın parçalanması, meyidin ətrafına və qəbirin içərisi doldurulduqca ora səpilməsi dəfn adətinin mühüm hissəsi kimi icra olunmuşdur.

Skeletlə qabların arasındakı sahədə iki tunc əşya tapılmışdır. Onlardan biri diskşəkilli asma bəzək əşyası, digəri isə paltara tikmə üçün nəzərdə tutulan əşyanın fraqmentidir.

Skelet qadına məxsusdur və bu qəbirdə nehrə tipli qabın qoyulması da hələ o dövrdə – son tunc dövründə süd məhsullarının hazırlanması işi ilə qadınların məşğul olmasını göstərir.

**119№-li kurqan (III və IV tablolar)**

Bu kurqan 116№-li kurqandan 20 m şimali-qərbdə qazılmışdır. Digər kurqanlardan fərqli olaraq maraqlı örtüyə malik olmuşdur. Belə ki, 119 №-li kur-

qanın çay daşlarından ibarət örtüyü şimali-qərb – cənubi-şərq istiqamətində aypara formasında qurulmuşdur. Aypara formalı daş düzümünün uzunluğu 4,1m, eni 1,3 m, «ayparanın» sonluqları arasındakı məsafənin uzunluğu isə 2,4 m olmuşdur. Kurqan çökəklikdə yerləşdiyindən əsrlər ərzində yağış sularının gətirdiyi torpaqla örtülmüş və bu səbəbdən onun aypara formalı örtük daşlarının əksəriyyəti torpaq qatı altında aşkar edilmişdir. Qəbir kamerası bilavasitə hündürlüyü 50 sm-ə çatan aypara formalı bu daş düzümünün altında yerləşmişdi.

Çay daşları ilə doldurulmuş qəbir kamerası 1,4 m dərinlikdə qazılmışdır. Şimali-qərb – cənubi-şərq istiqamətli bu qəbir kamerasının uzunluğu 1,55 m, eni isə 0,9 m olmuşdur. Maraqlıdır ki, qəbir kamerasının divarları bərkidici məhluldan istifadə edilmədən döşəmədən yuxarıyadək çay daşları ilə daş qutu formasında hörülmüşdür. Lakin, bölgənin aran əraziləri üçün daş qutu tipli qəbirlər səciyyəvi deyildir.

Dəfn meyidin başı şimali-qərbə olmaqla arxası üstdə icra edilmişdir. Ayaqları isə sıx bükülərək dizləri sola yönəlmişdir. Eyni zamanda meyidin sifəti də sola istiqamətlənmişdir. Sağ qolu dirsəkdən bükülərək qarın nahiyəsinə qoyulmuşdur. Sol qolu çanaq sümüyünün üstünə uzadılmışdır. Bu qəbir Zəyəmçay nekropolunda arxası üstdə dəfnin icra edildiyi yeganə dəfn abidəsidir. Qadına məxsus skeletin üstündə və ətrafında çoxlu bəzək əşyası aşkar edilmişdir. Kəllə sümüyünün ətrafında və sinə hissədə tuncdan iki ədəd şəbəkəli asma bəzək və 11 ədəd iri ölçülü düymə, sağ biləkdə iki ədəd qolbaq aşkar edilmişdir. Sinə hissədə eyni zamanda, 3 ədəd kiçik ölçülü düymələr tapılmışdır. Boyun nahiyəsində 4 ədəd şüşə-pasta, bilək sümükləri yanında isə 19 ədəd əqiq muncuqlar aşkar edilmişdir. Ayaqları ətrafında kiçik ölçülü obsidian qəlpəsinə rast gəlinmişdir.

Skeletin qarın nahiyəsində, sağ qolunun üstündə hisdən qaralmış çölmək tipli qab qoyulmuşdur. Bu qabın içərisindən xırda buynuzlu heyvan sümükləri tapılmışdır. Digər bir qabın fraqmentləri skeletin ayaq sümükləri ətrafında səpələnmişdir. Sol çiyni yaxınlığında 1 ədəd kasa tipli qab, kəllə sümüyü ətrafında isə 1 ədəd dar ağızlı, şar gövdəli küpə, 1 ədəd qəhvəyi rəngli qazan və 1 ədəd kiçik ölçülü qəhvəyi rəngli kasa aşkar edilmişdir. Maraqlıdır ki, nekropolda qəhvəyi rəngli saxsı qablara çox təsadüfi rast gəlindiyi halda bu qəbirdə 6 qabdan ikisi bu rəngdədir. Bu qəbir eyni zamanda, digər qəbirlərdən fərqli olaraq zəngin metal məmulatının aşkar edildiyi qəbirlər sırasındadır.

Qəbir kamerasının döşəməsi çınqıl qatışıq gil məhlulu ilə 4-6 sm qalınlığında nazik qatla suvanmışdır.

Bütövlükdə Qafqaz ərazisində tunc dövrü qəbir abidələrində aypara formaya malik qəbirüstü örtüklərə az hallarda təsadüf edilmişdir. Azərbaycanda Zəyəmçay abidələrindən əlavə, Daşkəsən rayonu ərazisində ilk tunc dövrü kurqanında alt qorizontda sarı gildən qurulmuş aypara (9, s. 15), Şəki rayonu əra-

zisində e.ə. III minilliyin II yarısına aid kurqanlarda isə aypara formalı daş düzümləri aşkar edilmişdir. Kabardo – Balkarda Kişpek kəndi yaxınlığındakı kurqanda e.ə. XVI-XIV əsrlərə aid katakomba tipli qəbirdə çay daşlarından düzülmüş aypara aşkar edilmişdir (12, s. 41-42). Maraqlıdır ki, Zəyəmçay nekropolunun daş örtüklü qəbirləri ilə bəzi paralellərə malik Şərqi Gürcüstandakı Madnisçal nekropolunun bir neçə qəbirində də aypara formalı daş düzümləri aşkar edilmişdir (11, s. 168, tablo 7-1,2; XII- 2). Şübhəsiz aypara formalı bütün bu strukturlar qədim insanların dini inamları və bununla əlaqədar olaraq dəfn adətləri ilə bağlı olmuşdur.

**120№-li kurqan (V və VI tablolar)**

119№-li kurqandan 8m cənubi-qərbdə qazılmışdır. Diametri 4,5m olan çay daşlarından ibarət kurqan örtüyü müasir yer səthi ilə eyni səviyyədə idi. Bu daşlar təmizləndikdən sonra mərkəzi hissədə qəbir kamerası aşkar edilmişdir. Kameranın içərisi çay daşları ilə doldurulmuşdur.

Cənubi-qərb – şimali-şərq istiqamətli, 1,8m dərinlikdə qazılmış qəbir kamerasının uzunluğu 2m, eni 1,7m olmuşdur. Döşəmədə kameranın divarları boyu, daş qutu tipli qəbirlərdə olduğu kimi, bir neçə qat çay daşları düzülmüşdür. Qəbirin mərkəzində başı cənubi-qərbə olmaqla sağ yanı üstdə yaşlı kişi dəfn edilmişdir. Onun sol çiyni qarşıya əyildiyindən altdakı sağ qabırğalar sıxılaraq geriyə çıxmışdır. Qolları dirsəkdən bükülərək sinəsi qarşısında çarpazlaşmışdır. Zəif bükülü ayaqları da qaçış vəziyyətində olduğu kimi çarpazlaşmışdır.

Skeletdən arxada, qəbirin şimal küncündə quş sümükləri, şərq küncdə isə xırda buynuzlu heyvan sümükləri, dizlərinin qarşısında isə xırda buynuzlu heyvanın çənə sümüyü aşkar edilmişdir. Çanaq sümüyündən arxada isə ağac çürüntülərinə rast gəlindi.

Skeletin sinə nahiyəsində tuncdan hazırlanmış bir ədəd uzunsov-rombvari formalı iri muncuq aşkar edilmişdir. Zəyəmçay nekropolunda analoqu olmayan bu muncuğun uzunluğu 5,8sm, eni isə 2,5sm-dir. Çox ehtimal ki, bu muncuq onun sahibinin xüsusi statusa malik olduğunu göstərir. Onunla birlikdə bir neçə əqiq və pasta muncuqlar da aşkar edilmişdir.

Maraqlı faktlardan biri ondan ibarətdir ki, skeletdən arxada başqa bir insana məxsus bud və qol sümüyü aşkar edilmişdir. Bu qol sümüyünün ətrafında qırmızı, narıncı və solğun qırmızı rəngli əqiqdən 52 ədəd, boz, mavi və göy rəngli şüşə-pastdan 5 ədəd, ağ rəngli pastadan 1 ədəd uzunsov, balıqqulağından isə 1 ədəd muncuqlar aşkar edilmişdir. Burada eyni zamanda tuncdan hazırlanmış 2 ədəd böyük və 2 ədəd kiçik ölçülü düymə, nazik tunc məftildən spiralşəkilli – boru formada düzəldilmiş 2 ədəd muncuqlar tapılmışdır. İkinci insan skeletinin digər hissələrinə rast gəlinməmişdir.

Görünür, burada həm də başqa bir insanın (qadının (?)) parçalanmış meyi-

dinin hissələri – ayaq və qol sümükləri basdırılmışdır. Son tunc-ilk dəmir dövründə bu bölgədə digər dəfn adətləri ilə yanaşı meyidlərin parçalanaraq dəfn edilməsi adəti də mövcud olmuşdur (9, s. 86).

Skeletin və kameranın şimal küncündəki küpənin üstünə çoxlu miqdarda qırmızı oxra səpilmişdir. Alnının qarşısında dopu tipli qab qoyulmuşdur. Başqa bir kiçik həcmli qab skeletin ayaq sümükləri yanında aşkar edilmişdir. Digər bütün qablar dəfn edilənin qarşısında və arxasında düzülmüşdür. Ümumiyyətlə qəbirdə 14 saxsı qab tapılmışdır. Onlardan biri dopu, biri bardaq, qalanları isə küpə və qazan tipli qablardır. Maraqlıdır ki, nekropoldakı əksər qəbirlərdən, xüsusilə də qabların çoxlu sayda aşkar edilyi iri həcmli qəbirlərdən xeyrə tipli qablar aşkar edilmişdir. Bununla belə 120 №-li qəbirdə bir ədəd də olsun xeyrə tipli qaba rast gəlinməmişdir.

**126 №-li kurqan (VII tablo)**

Bu kurqan 120 №-li kurqandan 6 m qərbdə qazılmışdır. Çay daşlarından qurulmuş kurqan örtüyü şərq-qərb istiqamətində 5,3m, şimal-cənub istiqamətində isə 4,9 m diametrində olmuşdur. 40-50 sm hündürlüyündəki daş örtük 60 sm qalınlığındakı torpaq qatı altında aşkar edilmişdir. Kurqan təpənin bilavasitə ətəyində, dərədə yerləşdiyindən əsrlər boyu yuxarıdan yağış-qar sularının müntəzəm olaraq gətirdiyi torpaq kurqanın üstünü bağlamışdır.

Qəbir kamerası kurqanın mərkəzi hissəsində yerləşmişdi. Şərq-qərb istiqamətli qəbir kamerası 1,5x1,2m ölçüsündə 2,5m dərinlikdə qazılmışdır. Kameranın üstü ağac atmalarla örtülmüş sonra isə həmin ağacların üstünə çay daşları yığılmışdır. Zaman keçdikcə ağaclar çürüdüyündən kurqan örtüyünün mərkəzi hissəsi çökmüş və qəbir kamerasının içərisinə dolmuşdur.

Qəbir kamerasının içərisi təmizlənərkən ağacların çürüntülərinə rast gəlinmişdir. Yalnız bir ağacın kiçik parçası əsasında onun diametrinin 20-25 sm olması müəyyən edildi. Kameranın şərq, şimali-şərq və şimali-qərb tərəfində ağac çürüntülərinə rast gəlinmişdir.

Qəbirdə yaşlı kişi dəfn edilmişdir. Dəfn meyidin başı qərbə olmaqla sağ yanı üstdə bükülü vəziyyətdə icra olunmuşdur. Qolları dirsəkdən bükülmüş, əlləri çənəsinə doğru yönəlmişdir. Bud sümükləri çanaqdan üfüqi vəziyyətdə bükülmüş, dizdən aşağı ayaq sümükləri isə sıx bükülərək çanaq sümüyünə doğru yığılmışdır.

Skeletin başı ətrafında xırda buynuzlu heyvan sümükləri aşkar edilmişdir. Saxsı qablardan ibarət qəbir avadanlığı meyidin arxa tərəfində – qəbir kamerasının şimal divarı dibində düzülmüş, yalnız bir ədəd qazan tipli qab onun başından yuxarıda qoyulmuşdur. Qəbirdəki 6 ədəd qablardan üçü küpə, üçü isə qazan tiplidir. Bunlardan əlavə, kameranın şimali-şərq küncündə iri həcmli küpün bir parçası qoyulmuşdur. Bu küp parçası ilə yanaşı aşkar edilmiş küpənin içə-

risinə obsidian qəlpəsi qoyulmuşdur. Qəbirdə digər arxeoloji materiala rast gəlinməmişdir.

Bəzi qəbirlərdə obsidian qəlpələrinin qoyulması dövrün dəfn adətləri ilə birbaşa bağlı olmuşdur (1, s. 166).

Beləliklə, Zəyəmçay nekropolunda qazılmış 130-dan artıq qəbirdən yalnız bir neçəsinin kurqan tipli struktura malik olması maraq doğurur. Ümumiyyətlə, Kür çayının orta axarı hövzəsində kurqanlarda dəfn etmə adəti əsasən son tunc dövrünün erkən mərhələsinə – e.ə. XIII əsrə qədərki dövrdə yayılmışdır. Sonrakı mərhələdə kurqanlar tədricən bütöv nekropollarla əvəz edilir. Belə ki, arxeoloji tədqiqatlar göstərir ki, Xocalı-Gədəbəy mədəniyyəti arealının Gəncə-Qazax regionunda başlıca qəbir tipi bütöv məzarlıqları təşkil edən daş örtüklü və torpaq qəbirlərdən ibarətdir. Eyni zamanda, Şərqi Gürcüstan ərazisi üçün də bu dövrdə kurqanlar səciyyəvi deyildir (10, s. 23).

Zəyəmçay kurqanlarının örtüyü hündür olmayıb kiçik ölçülərə malikdir. Buna görə də onları klassik kurqanlar kateqoriyasına aid etmək olmaz. Bu kurqanlar son tunc dövrünün əvvəlinə aid olmaqla orta tunc dövründən son tunc dövrünə keçidin bəzi əlamətlərini saxlamışlar. Nekropolda qazılmış bəzi qəbirlər üzrə aparılmış radiokarbon analizlərin nəticələrinə əsasən burada dəfnlərin e.ə. XV-XIV əsrlərdən etibarən icra olunması müəyyən edilmişdir. Qəbirlərdə aşkar edilmiş bir sıra keramika nümunələri də bu xronologiya ilə səsləşir.

Çox ehtimal ki, Zəyəmçay nekropolundakı kurqan tipli qəbirlərdə cəmiyyətin xüsusi statuslu üzvləri dəfn edilmişdir. Bu qəbirlərin strukturundakı arxaik ənənələrə sadiqlik və qəbir avadanlığı belə bir nəticəyə gəlməyə imkan verir. Bir qayda olaraq kişilər sağ, qadınlar isə sol yanı üstdə dəfn edilmişdir. Analoji dəfn qaydası Tovuzçay nekropolunda da müşahidə edilir.

**Torpaq qəbirlər (VIII tablo)**

Zəyəmçay nekropolunda 43 torpaq qəbir qazılmışdır. Onlardan yalnız 9 qəbirdə insan dəfn edilmişdir. Digər 34 torpaq qəbirin heç birində insan skeletinə rast gəlinməmişdir. Müxtəlif dərinliklərdə qazılmış torpaq qəbirlərində saxsı qablar biri-birinə yaxın və ya biri digərinin üstündə yığcam halda yerləşdirilmişdir. Bəzən belə qəbirlərdə həm də muncuqlar və metaldan bəzək əşyaları da tapılmışdır. Torpaq qəbirlərin bəzilərində qabların düzülüşündə nizamsızlıq müşahidə edilir.

İnsan dəfnlərinin icra olunduğu qəbirlərdə skeletlər sağ və ya sol yanı üstdə uzadılmış vəziyyətlərdə aşkar edilmişdir. Bu qəbirlərdə rast gəlinən arxeoloji materiallar – keramika, bəzəklər, silahlar və s. digər qəbirlərin avadanlıqları ilə eyniyyət təşkil edir. Torpaq qəbirlərinin əksəriyyətində insan dəfnlərinin izlərinə rast gəlinməmişdir.

**Daş örtüklü qəbirlər (IX-X tablo)**

Daş örtüklü qəbirlər Zəyəmçay nekropolunda ən çox rast gəlinən qəbir tipidir. Daş örtüklü qəbirləri dəfn adətinə və strukturuna görə iki qrupa ayırmaq olar: 1) adi qəbir strukturuna malik olan və insan dəfninin icra edildiyi qəbirlər; 2) nisbətən kiçik sahəni əhatə edən, qəbir avadanlığının çay daşlarının çox sıx düzümləri ilə örtüldüyü, insan dəfninin heç bir əlamətinin olmadığı qəbirlər. Bu qəbirlərdə ölən insan real dəfn edilməsə də onlarda dəfn adəti rəmzi olsa da tam icra edilmişdir. Nekropolda 70-ə yaxın belə qəbir qazılmışdır. Bu qəbirlərin başlıca xüsusiyyəti ondan ibarətdir ki, bir neçə və daha artıq saxsı qab yığcam halda əvvəlcədən qazılmış qəbir kamerasına düzülmüş, bəzən isə biri-birinin üstünə yığılmış, sonra isə onların üstü bir neçə qat çay daşı düzümü ilə örtülmüşdür. Bəzən belə qəbirlərdə muncuqlar və metaldan digər bəzək əşyalarına da rast gəlinmişdir. Müxtəlif dərinliklərdə (bəzən 1 m-dən dərin) qazılmış belə qəbirlərin ölçüləri oraya qoyulmuş avadanlığın tutduğu sahədən asılı olmuşdur. Bir qayda olaraq belə qəbirlərdə insan skeletinə rast gəlinməmişdir. Daş örtüklü qəbirlərin ən yaxın analoqları Tovuzçay nekropolundan məlumdur.

Şərqi Gürcüstanda qazılmış, son tunc dövrünün ilk mərhələsinə aid Madnisçal nekropolunda Zəyəmçay nekropolu qəbirlərinin oxşarlarına rast gəlinir. Lakin Madnisçal nekropolundakı belə qəbirlərin çay daşlarından ibarət üst örtüyü hündür deyildir. N.N.Tuşuşvili Madnisçal nekropolunun bu qəbirlərinin üstünə çay daşları tökülmüş torpaq qəbirlər hesab edir (11, ç. 167-168).

Zəyəmçay nekroplunun üst örtüyü hündür qurulmuş daşlardan ibarət qəbirləri barədə bu fikirləri söyləmək olmaz. Torpaq, qum və ya xalis çınqıl qatında qazılmış bu qəbirlərin üstünün çay daşları ilə qurulması dəfn adətinin zəruri amili kimi icra edilmişdir.

Şərqi Gürcüstanda, Mtsxeta yaxınlığında Bakı-Supsa neft kəmərinin çəkilişi ilə əlaqədar son tunc-ilk dəmir dövrünə aid 42 qəbir abidəsi qazılmışdır. Bəzi istisnalarla buradakı qəbirlərin demək olar ki, hamısı daş örtüklü qəbirlər olmuşdur (6, s. 23). Görünür, son tunc – ilk dəmir dövründə qərbi Azərbaycan və Şərqi Gürcüstan ərazisində – Kür çayının orta axını hövzəsində yaşayan Xocalı-Gədəbəy mədəniyyətinin qədim tayfalarının dəfn adətlərində daş örtüklü qəbirlər müəyyən yer tutmuşdur.

Tədqiqatçılar bu dəfn abidələrini – yəni, daş örtüklü qəbirləri və insan skeleti aşkar edilməyən torpaq qəbirlərini qəbir deyil, kenotaf və ya qəbirlərin qurbangahı hesab edirlər. Daha çox son illərin qazıntıları zamanı Gəncə-Qazax bölgəsində, xüsusilə də Zəyəmçay və Tovuzçay nekropollarında aşkar edilmiş belə dəfn abidələrinin qurbangah adlandırılması, ümumiyyətlə, bu bölgədə nə zamansa qurbangahların mövcudluğu fikri bizcə yalnışdır. Zəyəmçay nekropolunun qazıntısı da bu fikrin düzgün olmadığını bir daha sübut edir. Belə ki, qazıntı sahəsində bəzən 100 $m^2$-dən artıq bir sahədə 10-15 belə dəfn abidəsi

aşkar edilmişdir. Həmin sahədə skeleti olan heç bir qəbirə rast gəlinməmişdir. Təbii olaraq belə bir sual meydana çıxır: əgər pərakəndə halda yayılmış, skeletli qəbirlərdən tamamilə kənarda yerləşən bu dəfn abidələri doğrudan da qurbangahdırlarsa, və onların sayı skeletli qəbirlərin sayından 3 dəfə çoxdursa o zaman onlar hansı qəbirlərə aiddirlər? Deməli, onların qurbangah hesab edilməsi fikrinin heç bir əsası yoxdur.

Qərbi Azərbaycanda XIX əsrin ikinci yarısından bu vaxtadək aparılan arxeoloji qazıntılar zamanı insan skeleti olmayan çoxlu sayda qəbir abidələririnə rast gəlinmişdir. Gədəbəy ərazisində 1888-1891-ci illərdə V.Belkin qazdığı son tunc - ilk dəmir dövrünə aid qəbirlərdən bəzilərində insan skeletinə rast gəlinməmiş, bir neçəsində isə hər hansı bir avadanlıq və ya skelet aşkar edilməmişdir (4, s.48, 164). İnsan skeleti olmayan qəbirlər A.A.İvanovskinin və E.Reslerin də Qarabağdakı həmdövr abidələrində apardıqları qazıntılar zamanı da aşkara çıxarılmışdır (8, s.87-88, 116). Belə qəbirlərə Y.İ.Qummelin Gəncəçay hövzəsində apardığı qazıntılar zamanı da rast gəlinmişdir (7). XX əsrin 60-70-ci illərində H.P.Kəsəmənlinin Daşkəsən rayonu ərazisində apardığı qazıntılar zamanı skeletsiz və ya tamamilə boş qəbirlərə dəfələrlə rast gəlinmişdir (9, s.45, 46, 47, 54, 60, 84). Tədqiqatçı arxeoloji materialların olduğu, lakin insanın dəfn edilmədiyi qəbirləri kenotaf (yəni xatirat qəbirləri – N.M.) adlandırır (9, s. 81). Amma müəllif onların meydana çıxma səbəblərini şərh etməmişdir. Şərur rayonu ərazisindəki Şahtaxtı nekropolunda qazılaraq tədqiq edilmiş 34 qəbir abidəsinin heç birində insan skeleti aşkar edilməmişdir (5, s.42-48). C.Ə.Xəlilov belə qəbirlərin kənarda ölmüş adamların şərəfinə tikildiyini (3, s.64), Q.Ağayev isə bu qəbirlərin qürbətdə həlak olmuş və ya əsir aparılmış tayfa üzvlərinin şərəfinə qurulmasını yazır (5, s. 50).

Fikrimizcə, Zəyəmçay və Tovuzçay nekropollarındakı skeletsiz, lakin arxeoloji materialların aşkar edildiyi həm torpaq, həm də daş örtüklü belə dəfn abidələri dəfn adətinin məzmunu baxımından xatirat qəbirləridir. Belə qəbirlərdə insan skeletinin aşkar edilməməsinin və onlarda insanların ümumiyyətlə dəfn edilməməsinin səbəbini bölgənin son tunc dövrü insanlarının təsərrüfat həyatının xüsusiyyətlərində axtarmaq daha düzgündür. Məlum olduğu kimi həmin dövrdə bütün Cənubi Qafqazda, o cümlədən Gəncə-Qazax bölgəsində yaylaq maldarlığı ən yüksək inkişaf səviyyəsinə qalxmış, iqtisadi həyatda aparıcı mövqe tutmuşdur. İlin 3-4 ayını qədim maldarlar özlərinin heyvan sürüləri ilə Zəyəm, Şəmkir, Tovuz və s. çayların yuxarı axarı hövzəsində – Kiçik Qafqaz dağlarının yaylaqlarında, indiki Gədəbəy, Daşkəsən və s. rayonların ərazilərində keçirirdilər. Yaylaq mövsümü müddətində vəfat edən insanlar elə oradaca dəfn edilirdilər. Həmin dağlıq ərazilərdə belə insanların dəfn edildiyi yüzlərlə qəbir abidələri mövcuddur. Arana, əsas yaşayış məskənlərinə döndükləri zaman yaxınlıqdakı məzarlıqda yaylaqda dəfn edilən insanların şərəfinə rəmzi,

xatirat qəbirləri salınmışdır. Zəyəmçay və Tovuzçay nekropollarındakı skeletsiz daş örtüklü və torpaq qəbirlər məhz belə xatirat qəbirləridir.

Qeyd edildiyi kimi, bölgənin qədim maldarlarının həyatının müəyyən hissəsi yaylaqlarla bağlı olmuşdur. Bu dağlıq ərazilərdə aşkar edilmiş skeletsiz qəbirlər isə çox ehtimal ki, aranda vəfat etmiş insanların xatirəsinə qurulmuşdur. Aranda və dağdakı qəbirlərin tip müxtəlifliyi isə coğrafi şəraitlə və təbii ehtiyatlarla bağlı olmuşdur. Onların hər ikisinin vahid mədəniyyətə aid olmasını həmin qəbirlərdən tapılmış avadanlığın eyniliyi sübut edir. Zəyəmçaydakı 119 və 120 №-li kurqanaltı qəbirlərdə dağlıq ərazinin qəbir tipinin (daş qutu) struktur elementinin təkrarlanması aran və yaylaq arasında mədəniyyət eyniliyini sübut edən faktlardan biridir. Bəzi xatirat qəbirlərinin insan skeletlərinin olduğu böyük qəbirlərlə bilavasitə yanaşı və ya onların üstündə aşkar edilməsi çox ehtimal ki, bu qəbirlərdə real və rəmzi dəfn edilmiş insanların qohumluq əlaqələri ilə bağlı olmuşdur.

Beləliklə, Zəyəmçay nekropolunda aparılmış arxeoloji qazıntılar bölgənin son tunc – ilk dəmir dövrü dəfn adətlərinin və maddi mədəniyyətinin tədqiqi üçün zəngin elmi baza yaratmışdır. Nekropolun qəbir tipləri, dəfn adətləri, arxeoloji materialları gələcəkdə uzun illər tədqiqat obyekti olacaqdır.

## ƏDƏBİYYAT

1. Abbasov A.A., Müseyibli N.Ə. Zəyəmçay nekropolunun bəzi dəfn adətləri. «Azərbaycan arxeologiyası və etnoqrafiyası» jurnalı. № 2, Bakı, 2003.
2. Müseyibli N.Ə. Zəyəmçay nekropolunda arxeoloji qazıntılar. «Azərbaycan arxeologiyası və etnoqrafiyası» jurnalı. № 2, Bakı, 2004.
3. Xəlilov C.Ə. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri. Bakı, 1959.
4. Nagel V., Strommenger Y. Qalakənd. Bakı, 1999.
5. Агаев Г. Шахтахты в эпоху поздней бронзы и раннего железа. Баку-Москва, 2002.
6. Апакидзе А.М., Николаишвили, В.В. Кициани Г.Г., Гиунашвили Г.Д. Археологические раскопки в с. Нареквани и на Армазцихе. // Кавказ и степной мир в древности и средние века. Махачкала, 2000.
7. Гуммель Я.И. Археологические очерки. Баку, 1940.
8. Ивановский А.А. По Закавказью. МАК, 1911, вып. VI.
9. Кесаманлы Г.П. Археологические памятники эпохи бронзы и раннего железа Дашкесанского района.Баку, 1999.
10. Пицхелаури К.Н. Восточная Грузия в конце бронзового века. Тбилиси, 1979.
11. Тушушвили Н.Н. Маднисчальский могильник. Тбилиси, 1972.
12. Чеченов И.М. Курган 2 у селения Кишпек в Кабардино-Балкарии // Новое в археологии Северного Кавказа. Москва, 1986.

# BURIAL TYPES OF THE ZEYAMCHAY NECROPOLIS

*Najaf Museyibli*

## Summary

The Zeyamchay necropolis of the epoch of late bronze - early iron is located on the right bank of the river with the same name, near the village Bayramly of Shamkir district, on 356 km of the oil pipeline of Baku-Tbilisi-Ceyhan. In connection with lining BTC in 2003 archeological excavations were mad here. It has been dug out more than 130 burials which are subdivided into 3 types: barrows (burial mounds), soil burials, burials with stone covering. Barrows, differing from classical barrows in small sizes and other data, concern an early stage of late bronze ( XIV-XIII B.C.) and keep some features of transition period from the epoch of middle bronze to the late. In the majority of soil burials human skeletons are absent.

In the quantitative sense burials with a stone covering prevail. The basic feature of these tombs without human burial place are that the funeral stock (equipment) is compactly placed in advance dug sepulchral hole then blocked by river stones in some numbers row upon row. The sizes of such burials depended on quantity of the stock in them. A number of researchers considered these burials to be sacrificial altars.

We consider that these burials are funeral tombs. Their occurrence is closely connected with economic activities of the population of the given region during the epoch of late bronze-early iron, during the epoch when the distant cattle breeding took the basic place in the economic life of the population. It is possible to offer, that soil burials and burials with stone covering with an archaeological material, but without the human burial place, meeting in a low-lying zone of the region including in the Zeyamchay necropolis, are burials in honor of the people died on high mountains during the time of distant pasture season. Burials with stock, but without the human skeletons, found out on high mountains, in turn, are burials in honor of people died in a low-lying zone. Despite distinction of types of burials of the Zeyamchay necropolis, all archaeological material it is identical and concerns to Khojaly-Gadabey archaeological culture.

# ТИПЫ ПОГРЕБЕНИЙ НЕКРОПОЛЯ ЗАЯМЧАЙ

*Наджаф Мусеибли*

## Резюме

Заямчайский некрополь эпохи поздней бронзы – раннего железа находится на правом берегу одноименной реки, близ селения Байрамлы Шамкирского района, на 356 км нефтепровода Баку-Тбилиси-Джейхан (БТД). В связи с проклад-

кой БТД в 2003 г. здесь проводились археологические раскопки. Было раскопано более 130 погребений, которые подразделяются на 3 типа: курганы, грунтовые, погребения с каменным покрытием. Курганы, отличаясь от классических курганов малыми размерами и другими данными, относятся к ранней стадии поздней бронзы (XIV-XIII в в. до н. э.) и сохраняют некоторые особенности переходного периода от эпохи средней бронзы к поздней. В большинстве грунтовых погребений человеческие скелеты отсутствуют.

В количественном отношении преобладают погребения с каменным покрытием. Особенностью этих могил без человеческого захоронения является то, что погребальный инвентарь компактно размещен в заранее вырытую могильную яму, после чего перекрыт речными камнями в несколько рядов. Размеры таких погребений зависели от количества инвентаря, находившегося в них. Ряд исследователей считают эти погребения жертвенниками.

Нам представляется, что эти погребения являются поминальными могилами. Их возникновение тесно связано с хозяйственной деятельностью населения данного региона эпохи поздней бронзы-раннего железа, в эпоху, когда отгонное скотоводство занимало основное место в экономической жизни населения. Можно предположить, и грунтовые, и с каменным покрытием могилы, с археологическим материалом, но без человеческого захоронения, встречающиеся в низменной зоне региона, в том числе и на Заямчайском некрополе, являются поминальными погребениями в честь умерших на высокогорьях во время отгонного сезона. А погребения с инвентарем, но без человеческих скелетов, обнаруженные на высокогорьях, в свою очередь, являются поминальными погребениями в честь умерших на низменной зоне. Несмотря на различие типов погребений Заямчайского некрополя, весь археологический материал составляет идентичность и относится к Ходжалы –Кедабекской археологической культуре.

I tablo




116 №-li kurqan: 1) kurqan őrtűyűnűn planı; 2) kəsik; 3) kurqanaltı qəbrin planı

II tablo




116 №-li kurqanın arxeoloji materialları

II tablo




116 №-li kurqanın arxeoloji materialları

III tablo




119 №-li kurqan: 1) kurqan örtüyünün planı; 2) kəsik; 3) kurqanaltı qəbrin planı

# IV tablo



119 №-li kurqanın arxeoloji materialları: № 1-6 metal; 7-10 keramika

V tablo




120 №-li kurqan: 1) kurqan örtüyünün planı; 2) kəsik; 3) kurqanaltı qəbrin planı

VI tablo




120 №-li kurqanın arxeoloji materialları: № 1-8 keramika; 9-12 metal

VII tablo



126 №-li kurqan: 1) kurqan őrtűyűnűn planı; 2) kəsik; 3) kurqanaltı qəbrin planı

VIII tablo




39 №-li torpaq qəbrin arxeoloji materialları: 1,2 –keramika; 3,4,5,6,7 metal məmulatı

# IX tablo




Daş őrtűklű qəbirlər: 1) 32 №-li qəbirin planı və kəsiyi; 2) 44 №-li qəbir; 3) 94 №-li qəbir; 4) 128 №-li qəbirin daş őrtűyű

X tablo



32 №-li daş őrtűklű qəbrin arxeoloji materialları

# QARACƏMİRLİ KƏNDİNDƏ ƏHƏMƏNİLƏR DÖVRÜ TİKİNTİLƏRİ

***İlyas Babayev, Yulon Qaqoşidze, Florian Knauss***
*(Azərbaycan- Almaniya- Gürcüstan beynəlxalq arxeologiya ekspedisiyası)*

Azərbaycanın bütün Kür çayı boyu ərazisi tarixin müxtəlif dövrlərinə aid arxeoloji abidələrlə çox zəngindir. Bu cəhətdən Qaracəmirli kəndi ətrafı da müstəsnalıq təşkil etmir. Kənd Kür çayının sağ sahilində Yenikənd dəryaçasının yaxınlığında yerləşir. Keçən əsrdən başlayaraq Azərbaycan arxeoloqları Qaracəmirli kəndi ətrafında qazıntılar apararaq bir sıra abidələri öyrənmişlər. Bunlar ilk tunc dövründən son orta əsrlərə qədərki böyük dövrü əhatə edən müxtəlif yaşayış yerləri və qəbir abidələrindən ibarətdirlər.

Kəndin ətrafında müxtəlif torpaq işləri zamanı da arxeoloji tapıntılara rast gəlinir. Tədqiqatçıların böyük marağına səbəb olan belə tapıntılardan biri də keçən əsrin 80-ci illərində kənddən 6-7 km şimalda təsərrüfat məqsədi ilə kiçik təpələr traktorla hamarlanarkən aşkar edilən Əhəmənilər dövrünə aid daş sütunaltlığıdır. Torpaq işləri zamanı sındırılan bu sütunaltının alt hissəsini Həmid Yusifov kəndə gətirib kəsib iki hissəyə ayıraraq öz həyətində saxlamışdır (şək.1). Belə monolit daş sütunaltlıqlarından e.ə. 550-330-cu illərə qədər mövcud olan Əhəmənilər İmperiyasının mərkəzi şəhərləri Pasarqad, Suz, Persopol tikintilərində geniş istifadə olunmuşdur.

Əhəmənilər İmperiyası qərbdə Misir daxil olmaqla Afrikanın şimali-şərqindən, şərqdə Hind çayı vadisinə qədər, cənubda Hind okeanı və İran körfəzindən, şimalda Böyük Qafqaz dağlarına qədər geniş ərazini əhatə edirdi. Əhəmənilər imperiyasının şimal sərhədləri və Cənubi Qafqazın bu imperiyanın tərkibinə daxil olması haqqında e.ə. V əsrdə yaşamış yunan tarixçisi Herodot məlumat vermişdir (Her: III, 97).

İranın Əhəmənilər dövrü tikinti qalıqlarının Cənubi Qafqaz ərazisində aşkar edilməsi Herodotun məlumatının doğruluğunu sübut edir.

Bütün Qafqazda ilk dəfə olaraq e.ə. V-IV əsrlərə aid saray tipli bina qalıqlarını iki ədəd sütunaltlığı ilə 1958-ci ildə arxeoloq İdeal Nərimanov Azərbaycanın Qazax şəhəri ərazisində, Sarıtəpə abidəsində aşkar



Şək. 1

etmişdi. İ.Nərimanov həmin sütunaltlıqları haqqında Moskvada «Sovetskaya arxeologiya» jurnalında məqalə nəşr etdirdikdən sonra (1), bu tapıntılar təkcə Azərbaycanın deyil, başqa ölkələrin tədqiqatçılarının da böyük marağına səbəb olmuşdur. Həmin tapıntılar sonralar müxtəlif müəlliflərin elmi məqalə və monoqrafiyalarında dəfələrlə nəşr olunmuşdur. Sarıtəpə abidəsi arxeoloji qazıntılar aparılana qədər torpaq işləri nəticəsində xeyli dağıntılara məruz qaldığından oradakı binanın yalnız bir hissəsinin qalıqları izlənmişdi. Lakin bu qalıqlara əsasən binanın ümumi planını müəyyənləşdirmək mümkün olmuşdu. Kvadrat formalı çiy kərpiclərlə tikilən bu binanın planı, tikinti texnikası, daş sütunaltlıqları İranın Əhəmənilər dövrü memarlığı üçün səciyyəvidir.

Qaracəmirli sütunaltlığı Sarıtəpədən sonra Qafqazda ikinci belə tapıntı idi. Bu tapıntı çox böyük elmi maraq doğursa da maliyyə vəsaiti olmadığından uzun müddət orada arxeoloji qazıntı aparmağa imkan olmadı.

Sarıtəpə tipli bina qalıqları 5 ədəd daş sütunaltlıqları ilə birlikdə keçən əsrin 90-cı illərində Gürcüstan-Almaniya arxeoloji ekspedisiyasının qazıntıları zamanı Şərqi Gürcüstanın Qumbatı adlı abidəsində aşkar edildi (2). O zaman İdeal Nərimanov Qaracəmirlidə tapılan sütunaltlığının əllə çəkilən rəsmini alman arxeoloqlarına vermiş və onlar bu rəsmi Berlində Qumbati qazıntılarına həsr etdikləri məqalələrində nəşr etmişdilər (3). Azərbaycanda aşkar edilən Sarıtəpə abidəsi və Qaracəmirli tapıntısı haqqında digər əsərlərdə də məlumat verilmişdir (4).

Beləliklə, Qaracəmirli sütunaltlığı Azərbaycandan kənarda da elm aləminə məlum oldu. Bu tapıntı göstərdi ki, orada Əhəmənilər İranın Qafqazda idarəçiliyi ilə əlaqədar xüsusi elmi əhəmiyyəti olan abidə vardır. Lakin bu abidədə qazıntı aparmaq üçün maliyyə vəsaiti lazım idi. Keçən əsrin 90-cı illərindən Sovet İttifaqının dağılması və yeni yaranan Azərbaycan Respublikasının ilk illərdə maliyyə imkanlarının məhdud olduğundan orada qazıntı işləri aparmaq mümkün olmamışdır.

2000-ci ildə Tbilisidə «Qafqaz İberiyası və qonşuları Əhəmənilər və Əhəmənilərdən sonrakı dövrdə» mövzusunda Beynəlxalq konfrans keçirilərkən konfransda iştirak edən bu məqalənin müəlliflərindən biri olan İ.Babayev Qumbatidə arxeoloji qazıntılar aparan Almaniya və Gürcüstan arxeoloqlarına Qaracəmirlidə sütunaltlığı tapılan yerdə birgə qazıntılar aparmağı təklif etdi.

2001-ci ildə Azərbaycanda Əhəmənilər dövrü abidələri ilə tanış olmaq üçün Almaniyadan Florian Knauss və Qundula Mehnert, Gürcüstandan prof. Yulon Qaqoşidze Azərbaycana gəldilər. Onlar Bakı şəhərində Tarix muzeyi materialları ilə tanış olandan sonra İlyas Babayev və İdeal Nərimanovla birlikdə Şəmkirin Qaracəmirli kəndinə gedərək, Həmid Yusifovun evində saxlanan sütunaltlığı hissəsi ilə tanış olub, yerlilərin müşaiyəti ilə tapıntı aşkar edilən sahəyə də baxdılar. Sahəyə baxarkən yaz vaxtı idi. Sütunaltı tapılan

düzdə taxıl əkilmişdi. Tapıntı aşkar edilən təpə tamamilə hamarlanmış və abidənin yerüstü əlaməti qalmamışdı. Lakin orada qazıntı aparılarsa, çox güman ki, binanın bəzi qalıqlarını aşkar etmək olardı. Yer üstündə əkin sahəsində Əhəmənilər və ilkin ellinizm dövrü üçün səciyyəvi olan keramika nümunələrinə rast gəlinirdi. İlkin müşahidələr göstərdi ki, bu ərazi qazıntı aparmaq üçün prespektivlidir. Nəzərdə tutduğumuz ekspedisiya yalnız 2006-cı ildə fəaliyyətə başlaya bildi. Ekspedisiyanın maliyyə xərclərini Almaniya tərəfindən Gerdə Henkel fondu (Gerda Henkel Fondation) ödəmişdir. Ekspedisiyanın ümumi rəhbəri prof. İ.Babayev təyin olundu.

Nəhayət, 2006-cı ilin iyul ayının 30-da ekspedisiya fəaliyyətə başladı. Birinci il ekspedisiya aşağıdakı tərkibdə fəaliyyət göstərmişdir.

Azərbaycandan ekspedisiyada İ.Babayev-t.e.d. ekspedisiya rəisi və C.Eminli-aspirant iştirak etmişlər. Azərbaycan tərəfindən Qafqazda Əhəmənilər dövrünə aid Sarıtəpə abidəsində qazıntılar apararaq daş sütunaltlıqları ilə birlikdə inzibati bina qalıqlarını aşkar edən AMEA-nın müxbir üzvü İdeal Nərimanov da ekspedisiyada iştirak etməli olsa da, xəstəliyi ilə əlaqədar o ekspedisiyada iştirak edə bilmədi.

Almaniyadan ekspedisiyada 5 nəfər: Florian Knauss (Münxen muzeyi, qrupun rəhbəri), Dirk Vicke (Mainz), Gundula Mehnert və Nadin Lüdviq (Halle Universiteti), Ulrix Sens (Berlin, Almaniya Arxeologiya İnstitutu) iştirak edirdi. Gürcüstandan isə Milli Muzeyin əməkdaşı, professor Yulon Qaqoşidze və rəssam Tsitsino Turkiaşvili (avqustun 12-dən 25-nə qədər) iştirak etmişlər.

2007-ci ildə də ekspedisiya yenə avqust ayında Qaracəmirlidə tədqiqat işlərini davam etdirmişdir. Bu ildə ekspedisiya əsasən həmin tərkibdə fəaliyyət göstərmişdir. Yalnız Azərbaycandan ekspedisiyanın tərkibinə aspirant Emin İskəndərov əlavə edilmişdir.

Almaniya qrupunda da dəyişiklik edilərək, Dirk Vickenin əvəzinə Münxen muzeyindən Hagen Schaaft və Halle universiteteindən Henrik Löhr iştirak etmişlər.

Gürcüstandan olan ekspedisiya üzvləri Yulon Qaqoşidze və rəssam Tsitsino Turkiaşvili ekspedisiyaya avqust ayının 12-də qoşulmuşlar. Onlardan başqa Gürcüstandan 2007-ci ildə ekspedisiyamızda avqust ayının 12-dən 14-nə qədər paleobotanik, professor Eliso Kvavadze də iştirak etmişdir.

Yuxarıda qeyd olunduğu kimi qazıntı aparılacaq sahə kənddən təxminən 6-7 km şimalda yerləşir. Sovet hakimiyyəti illərində əsasən pambıq əkilən bu yerlərdə hazırda yerli əhali əsasən maldarlıqla məşğul olur və ona görə də əkin sahələrində yem bitkisi yonca əkməyə üstünlük verir. Bu düzənliklərdə suvarmaq məqsədilə çoxlu artezian quyuları qazılmışdır. Əsasən qədim tikililərin qalıqları yerləşən kiçik təpəciklərin əksəriyyətinin üstü hazırda heyvandarların yataq yerləri kimi istifadə olunur. Şübhəsiz, keçmişdə bu ərazidə belə təpəcik-

lər çox olmuşdur. Keçən əsrin 2-ci yarısında sahənin suvarılmasını asanlaşdırmaq üçün traktorla belə təpəciklərin bir çoxu dağıdılaraq hamarlanmışdır.

2006-cı ildə qazıntıya başladığımız yer əvvəllər sütunaltlığı tapılan yerdən təxminən 220 m. şimalda yerləşir. Bura kiçik təpəcikdir. Onun yanında artezian quyusu qazılmışdır. Quyunun yanında su arxının qarşısını kəsmək üçün sütunaltlığı hissələrindən istifadə etmişlər (şək.2). Artezian quyusunun suyunu şimal istiqamətində axıtmaq üçün qazılan arxı (eni və dərinliyi 0,8 m.) və onun ətrafını nəzərdən keçirərkən arxın içində daha iki sütunaltlığına rast gəldik. Onların biri kəsik konusvari olub demək olar bütünlüklə salamat qalmışdı, digəri isə bir qədər başqa formalı idi. Bu sütunaltlıqlarını ekskavatorla arx qazılarkən yan üstə çevirmişlər. Sütunaltlıqların üstündəki reylef naxışlar onların Əhəmənilər dövrü memarlığı üçün səciyyəvi olduğunu göstərdi. Arxın içərisində belə sütunaltlıqlarının xeyli miqdarda digər parçaları tapıldı. Artezan arxı təpəciyi kəsərək şimala doğru uzanır (şək.3). Qazıntı apardığımız təpə mərhum arxeoloq İdeal Nərimanovun şərəfinə «İdealtəpə» adlandırılmışdır. İdealtəpədə qazıntı aparmaqla yanaşı ətraf ərazi diqqətlə nəzərdən keçirilmişdir. Müşahidələr göstərir ki, ərazidə Əhəmənilər dövrünə aid çoxlu binalar



Şək. 2



Şək. 3

olmuşdur. Qazıntı apardığımız sahədən təxminən 1 km şimalda və şimali qərbdə daş sütün hissəsi (baraban) nisbətən kiçik sütunaltlıqlarına rast gəlindi. Daş sütun hissəsi Qafqaz üçün nadir tapıntıdır. Belə ki, adətən sütunaltlıqları (bazalar) daşdan yonulmuş, onların üstünə ağac sütunlar qoyulmuşdur. Bu tapıntı isə daş sütunun hissəsi idi. urada, görünür, daş sütunlardan da istifadə olunmuşdur.

Qazıntı apardığımız sahədən təxminən 0,5 km şimali-şərqdə, təqribən o qədər məsafə də cənubi-qərbdə və 200 m qərbdə də təpələr yerləşir. Bu təpələrin üstlərinin təxmini diametri 100 m hüdudlarındadır. Şübhəsiz sahədə böyük tikinti qalıqları yerləşən belə təpəciklər çox olmuşdur. Lakin minillər ərzində şumlanma nəticəsində, xüsusilə XX əsrin II yarısında pambıqçılıqla əlaqədar traktorla həmin təpələr hamarlanmışdır. İlkin tədqiqatlar göstərir ki, e.ə. I minilliyin ortalarında burada salınan yaşayış yeri təxminən 1 kv km-dən artıq sahəni əhatə etmişdir. Bütün bu ərazidə Əhəmənilər və erkən ellinizm dövrünə aid maddi mədəniyyət qalıqlarına təsadüf olunur.

Qazıntı apardığımız sahənin 0,3 m qalınlığında ən üst təbəqəsi çox qarışmışdır. Bundan başqa bu sahədən müasir artezian arxından başqa da müxtəlif dövrlərdə cənub-şimal istiqamətində suvarma arxları keçirilmişdir. Belə arxlardan biri burada XIII-XIV əsrlərdə qazılmışdır. Bu arxın içərisindən göstərilən dövrə aid şirli və şirsiz saxsı qablar da tapıldı. Arxların çoxu isə XX əsrdə, xüsusilə əsrin II yarısında qazılmışdır. Arxlar qazılarkən və kotanla yer şumlanarkən buradakı Əhəmənilər dövrünə aid bina qalıqları xeyli dağıntılara məruz qalmışdır. Bütün bu dağıntılara baxmayaraq burada yerləşən binanın planını bütünlüklə izləmək mümkün olmuşdur. Binanın tikinti texnikası, planı, tikinti materialları eyni ilə əvvəllər Azərbaycanın Sarıtəpə, Şərqi Gürcüstanın Gum-

bati abidələrində olduğu kimidir. İlk aşkar edilən divarların qalınlığı 1,17 m. idi. Bu divarlar 12x35x35sm ölçülərində çiy kərpiclərlə hörülmüşdür. Divarların hər iki üzünə 3,5sm. qalınlığında suvaq çəkilmişdir. Divarlar təxminən 10 sm qalınlığında olan çınqıl bünörə üzərində hörülmüşdür. Sonrakı qazıntılar göstərdi ki, binanın tikintisində 12x32x32 sm ölçülərində kərpiclərdən də istifadə olunmuşdur. Qazıntı nəticəsində müəyyən edildi ki, binanın ara divarları 1,17 m qalığında olduğu halda, kənar divarların qalınlığı 1,5 m-dir.

Binanın orta hissəsində böyük bir zalın varlığı məlum oldu. Bu zalın ümumi sahəsi 100,8 kv. m-dir. Zalın içərisində iki ədəd daş sütunaltlığı aşkar edildi. Bu sütunaltlıqları bina tikilərkən qoyulduğu yerlərində idilər. İndiyə qədər Qafqazda (Sarıtəpə, Gumbati) tapılan o dövrə aid sütunaltlıqları ilkin yerində aşkar olunmamışdı. Zalın içərisində sütunaltlığının yerləşməsi göstərdi ki, bu zalın keçmişdə 4 sütunu olmuşdur. Sütunaltlıqlarının altına çınqıl daşı tikilmişdir. Sütunlu zalın ətrafında ona bitişik nisbətən kiçik otaqlar olmuşdur (şək.4).

Binanın fasadı şərq tərəfdə yerləşmişdir. Bu tərəfdən zala girişin eni 3,72m olmuşdur. Zalın qərb divarında da eyni ilə şərq divarında olduğu kimi 3,72m ölçüdə keçid vardır. Zalın şimal və cənub divarları boyunca eyni ölçüdə otaqlar yerləşir. Bu otaqların içəridən eni 3,4 m. Şərq tərəfdə girişdən cənub və şimal tərəflərdə kiçik otaqlar yerləşir. Onların içəridən ölçüləri 3,4x3,4m Bu otaqlardan qərbə doğru hər iki tərəfdə eyni böyüklükdə (3,4x10,1 m.) otaqlar yerləşir. Zalın şimal və cənub tərəflərində yerləşən bu otaqların hər ikisinin içərisində, 3-4m$^2$ sahədə döşəməsinin üstündə 15-20 sm qalınlığında kül qatı aşkar edildi. Böyük zalın bu otaqlara 1 m enində keçid qapı yerləri özə çıxarıldı. Bu uzun otaqlardan isə şimal və cənub tərəfdə yerləşən kvadrat planlı kiçik otaqlara giriş qapıları olmuşdur.



Şək. 4. Qazıntının cənubi-şərqdən görünüşü

Böyük zaldan qərb tərəfdə də digər zal yerləşir. Bu zalları 1-ci aşkar edilən zalın qərb divarında yerləşən 3,72 m keçid birləşdirir. Qərb tərəfdə yerləşən zalı cənub-şimal istiqamətində uzanan arxlar daha çox dağıntıya məruz qoymuşdur. Həmin zalda da, görünür, dörd sütun olmuşdur. Onlardan ikisinin alt hissəsi ***in situ*** tapılmışdır. Bir sütunaltıda artezian arxının içərisində yanı üstə çevrilmiş vəziyyətdə aşkarlanmışdır. Bu zalın da cənub və şimal tərəflərində divarlar izlənir. Görünür, şərq tərəfdə olduğu kimi burada da kiçik otaqlar olmuşdur.

2007-ci ildə təpədə qazıntı işləri başa çatdırılarkən məlum oldu ki, bu bina çox ehtimal ki, biz keçən 2006-cı ildə aparılan qazıntılar zamanı düşündüyümüz kimi müstəqil saray tipli bina deyil, saraya giriş binası-propleyadır[5] (şəkil 5).

Çox güman ki, əsil saray qazıntı apardığımız İdealtəpədən 250 m qərbdə yerləşən, hazırda üstündə maldarların yataq yeri düzəltdikləri böyük təpənin yerində yerləşmişdir.

Propleyadan şimala və cənuba doğru 1 m enində divar uzanır. Güman etmək olar ki, bu divarlar daha mühüm olan 250 m məsafədə qərbdə yerləşən binanın (sarayın) propileyası ilə birləşdirən ümumi hasarın divarlarıdır.



Şək. 5. Qaracəmirli. İdealtəpədə propleyanın planı



Şək. 6



Şək. 7

Binanın tikintisində istifadə olunan daş sütunaltlıqları yerli daşdan-yaxınlıqdakı dağların əhəng daşından yonulub hazırlanmışdır (şək.6). Bu sütunaltlıqları kobub şəkildə daş karxanasında yonulub istifadə olunacaq sahəyə gətirilmişdir. Onların tam yonulması və naxışlanması istifadə olunası yerin yaxınlığında başa çatdırılmışdır. Qazıntı apardığımız ərazidə çoxlu xırda qəlpələrin olması sütunaltıların yonulmasının istifadə yerində başa çatdırılması ilə əlaqədardır.

Daşyonan ustalar sütunaltlığı düzəltmək üçün nəzərdə tutulan monolit daşın alt hissəsində peripendikulyar kəsişən iki xətt cızmışlar. Qumbatidə də sütunaltlıqları belə yonulmuşdur. İdealtəpədə aşkar etdiyimiz bazalar oturacağı dairəvi enli olub yuxarıya doğru konusvari şəkildə daralır. Onların oturacağının diametri 88-89, yuxarıda üstlərinin diametri 73-74, hündürlüyü 29-30sm-dir (şək.7). Çox ola bilsin ki, ağac sütun bir başa bu bazanın üstünə qoyulmuşdur. Onda ağac sütunun bazanın üstünə qoyulan hissəsinin diametri 72-73sm olmuşdur. Lakin belə fikir də vardır ki, bazanın bu alt hissəsinin üstünə daha bir dəyirmi balışvari (tora) hissə də qoyulmuşdur[5]. Buna bənzər baza hissələri tapılmışdır. Digər fikirlərə görə balışvari yanı, aşağısı konelyurlu, üstü dəyirmi lövhə şəkilli baza hissələri müstəqil bazalardır. Onlar konusvari bazaların üstünə qoyulmayıb. Belə olduğda ağac sütunların durumu zəifləyir.

Qazıntı zamanı binanın döşəməsinin hər yerində yanıq izləri müşahidə olunurdu. Xüsusi ilə böyük zalın döşəməsinin üstündə olan dam örtüyü üçün istifadə olunan ağacların yanıb külə dönmüş izləri və bəzən tam yanmayan hissələri hər yerdə görünür. Yanıb döşəməyə tökülən bu ağac tikinti materiallarının hamısı üfüqü vəziyyətdə düşməmişdi. Onların bəziləri yanğın zamanı döşəmənin üstünə tökülərkən bir qədər maili vəziyyətdə qalmışlar. Bir sıra otaqlarda, xüsusi ilə aşkar etdiyimiz binanın cənubi-qərb hissəsində yanğın nəticəsində döşəmə və divarlar bozumtul qırmızı rəng almışdır. Bəzi yerlərdə bir neçə nazik yanıq təbəqə izlənirdi. Bu ola bilsin dam örtüyünün iki qat-biri üfüqi, digəri maili (ola bilsin iki çatlı) çardağın olması ilə əlaqədardır.

Binanın dağılmasının, burada həyatın dayanmasının dövrünü dəqiq müəyyənləşdirmək üçün arxeoloji tapıntılar əsas əhəmiyyət daşıyır. Tapıntıların böyük əksəriyyəti saxsı məmulatından ibarətdir. Onların çoxu Əhəmənilər və erkən ellinizm dövrü üçün səciyyəvidir (şək.8).

Burada hələ üst təbəqədə Əhəmənilər dövrü üçün səciyyəvi olan gil cam və digər parçaları tapılırdı. Bundan başqa təbəqədə üstü boya naxışlı qab parçalarına çox rast gəlindi. Bu qabların üstünə tünd qəhvəyi rənglə həndəsi naxışlar çəkilmişdir. Bu tapıntılar içərisində üstünə ağ anqobla üfüqi xətlər çəkilərək naxışlanan qab parçaları xüsusi əhəmiyyətə malik idilər. Belə naxışlı qablar qonşu Gürcüstan abidələrində çox inandırıcı şəkildə e.ə. IV-III əsrlərə aid edilir (şək.9).

Çox maraqlı tapıntılar sırasına binanın döşəməsində tapılan bir neçə nov formalı kirəmit parçaları daxildir. Bunlar ola bilsin bütün Qafqazda ən qədim kirəmitlərdir. Bu vaxta qədər Azərbaycanda ən qədim kirəmitlər Qafqaz Albaniyasının mərkəzi şəhəri Qəbələnin e.ə. III-II əsrlərə aid təbəqəsində tapılmışdı (6). İdealtəpədə aşkar etdiyimiz kirəmit parçaları isə e.ə. IV-III əsrlərə aid edilə bilər. Binaların örtülməsi üçün kirəmitdən istifadə tikinti texnikasında, memarlıqda mühüm əhəmiyyətə malikdir. Tikintidə bu yeniliyi qədim yunanlar gətirmişlər. Əhəmənilər imperiyasının tərki-



Şək. 8. Saxsı qabların parçaları



Şək. 9

binə Kiçik Asiyanın yüksək mədəniyyətə malik yunan şəhərləri də daxil idi. Əhəmənilər dövründə İran ordusunun tərkibində on minlərlə yunan mənşəli döyüşçülər xidmət edirdi. Yunanlar Əhəmənilərin saraylarında da xidmət edirdilər. İranlıların Yunanıstana hərbi yürüşlərində Qafqaz xalqları, o cümlədən kaspilər, albanlar iştirak etmişlər. Ona görə də hələ Əhəmənilər dövründə e.ə. IV əsrdən gec olmayaraq Cənubi-Şərqi Qafqazda yunanların inşaat mədəniyyətinin təsirinin olması təbii qarşılanmalıdır.

Binanın döşəməsi üstündə bir bişmiş kərpic parçasının tapılması da böyük maraq doğurur. Həmin vaxta qədər Azərbaycanda ən qədim bişmiş kərpiclərlə tikilən bina qalıqları Qəbələ şəhər yerində aşkar edilmişdi. Həmin bina eramızın I əsrinin ortalarında tikilmişdir (7). İdealtəpədə aşkar edilən tapıntı sübut edir ki, Qafqaz Albaniyası ərazisində bişmiş kərpiclərdən kirəmitlərlə eyni dövrdə e.ə. IV-III əsrlərdən istifadə etməyə başlamışlar. Lakin o zamanlarda belə tikinti materiallarından əsasən şəhər tipli yaşayış yerlərində xüsusi əhəmiyyət dayışan bəzi ictimai binaların tikintisində istifadə etmişlər.

Nadir tapıntılardan biri sütunlu zalın döşəməsi üstündə aşkar edilən tünd göy rəngli şüşə camın ağzının kənarının bir parçasıdır (şək. 10). Belə qablar o dövrdə çox qiymətli idi. Onlardan ancaq cəmiyyətin ən yuksək təbəqəsinin nümayəndələri istifadə edə bilərdilər. Şübhə etmədən demək olar ki, bu qab o zaman Suriya və ya Misirdə hazırlanmışdır. Bu ölkələr də həmin dövrdə Əhəmənilər imperiyasının tərkibinə daxil idilər.

Şək. 10



Qazıntı aparılan sahədə ara bir obsidian (vulkanik şüşə) və çaxmaq daşı qəlpələrinə rast gəlinirdi. Bu əlamətlər göstərirdi ki, alt təbəqələrdə daha qədim dövrə aid maddi mədəniyyət qalıqları olmalıdır. Onlar Əhəmənilər və sonra erkən ellinizm dövründə tikinti və digər torpaq işləri zamanı alt təbəqədən üzə çıxmışdır. Qazıntı sahəsinin şərq kənarında abidənin tam strafiqrafiyasını aydınlaşdırmaq üçün kiçik sahədə qazıntı xam torpağa qədər davam etdirildi. Məlum oldu ki, burada mədəni təbəqənin 1 m qalınlığında üst layı Əhəmənilər və erkən ellinizm dövrünə, ondanaltda 0,6 m qalınlığında lay isə e.ə. III minilliyə (erkən tunc dövrünə) aiddir. Çox maraqlıdır ki, bütün Qafqaz ərazisində Əhəmənilər və antik dövrə aid yaşayış yerlərinin əksəriyyəti heç bir ara təbəqə olmadan ilk tunc dövrü yaşayış yerlərinin üzərində yerləşir. Bu fenomenin səbəbləri hələlik aydınlaşdırılmamışdır.

İlkin tədqiqatlar göstərir ki, arxeoloji cəhətdən tədqiqinə başladığımız abidə bütün Qafqazda xüsusi elmi əhəmiyyətə malik olan nadir abidələrdən biridir. Çox ola bilsin burada e.ə I minilliyin ortalarında Əhəmənilərin Cənubi Qafqazda inzibati mərkəz kimi istifadə etdikləri şəhər tipli yaşayış yeri olmuşdur.

Məlum olduğu kimi, Əhəmənilər imperiyası e.ə. 330-cu ildə Makedoniyalı Aleksandrın Şərqə yürüşü ilə əlaqədar süqut etmişdir. Görünür, o zaman buradakı yaşayış yeri də inzibati mərkəz kimi əhəmiyyətini itirmişdir. Ola bilsin, bundan sonra yaşayış yerinin əhalisinin bir hissəsi ilkin ellinizm dövründə (e.ə. IV əsrin sonu-III əsrin əvvəlləri) də burada yaşamağda davam etmişdir.

Qazıntı sahəsində aşkar edilən tapıntıların çoxu Əhəmənilər dövlətinin mövcud olduğu dövrə aiddir. Lakin tapıntıların bir hissəsi, heç şübhəsiz, ilkin ellinizm dövrünə aiddirlər. Yuxarıda göstərilən sonuncuların sırasına kirəmitləri, üstü oxra ilə, əsasən həndəsi rəsmlərlə, ağ anqob xətlərlə naxışlanan qabların çox saylı fraqmentlərini daxil etmək olar. Ellinizm dövrü üçün səciyyəvi tapıntılar sırasına üstündə möhür əksləri olan iki gil qab parçalarını da aid etmək olar. Əkslər ellinizm dövrü (e.ə. IV əsrin sonu I əsrin 1-ci yarısı) üçün səciyyəvi sayılan möhürlərə məxsusdur. O zaman üzüyün qaş hissəsinə keçirilən, üstü qabarıq (kabaşon) intaliyalar (təsviri dərinə həkk olunan, əksdə qabarıq olan rəsmlər) geniş yayılmışdı. Bu intaliyalar adətən müxtəlif rəngli daşlardan düzəldilir və üzüklərin qaşı kimi istifadə olunurdu. Gil qab parçalarının üstündə möhür əkslərini yaxşı izləmək mümkün olmasa da təsvirlərin bəzi əlamətləri onların ellinizm dövrünə aid olmağına şübhə yaratmır.

2008-ci ildə İdealtəpədən 250 m qərbdə yerləşən, əsil saray qalıqlarının yerləşməsi güman olunan təpədə kəşfiyyat qazıntıları aparılmış və orada həqiqətən böyük tikinti qalıqlarının olması müəyyənləşdirilmişdir (şək. 11).



Şək. 11. Saray divarları, dam örtüyü ağaclarının qalıqları ilə

Beynəlxalq arxeoloji ekspedisiyamız Qaracəmirli abidəsində arxeoloji qazıntılar aparmaqla yanaşı Gəncəyə, Göygölə və Şəmkirin bəzi abidələrinə baxmaq üçün səfərlər təşkil edərək, muzeylərə baxmış, abidələrlə tanış olmuşdur. Ekspedsiya üzvləri Gəncədə Tarix muzeyində olmuş, Nizaminin məqbərəsini ziyarət etmişlər, Göygöl və Şəmkir şəhərlərində almanların bu ərazidə XIX-XX əsrin əvvəllərində tikdikləri kilsələrə, yaşayış evlərinə baxmışlar.

Ekspedisiya üzvləri Daşbulaq kəndində hazırda yerli əhali tərəfindən pir kimi ziyarətgaha çevrilən yerli albanların xristian əhalisinin orta əsrlər dövründə istifadə etdikləri kilsəyə də baxmışlar (şək. 12).



Şək. 12. Alban kilsəsi – İrmaşlı piri

Ekspedisiya Qaracəmirlidə qazıntılar apararkən həmişə rayon və kəndin hakimiyyət orqanlarının, yerli əhalinin qayğısını hiss etmişdir. Şəmkir rayonu İcra hakimiyyətinin başçısı cənab Nazim Veyisov, Almaniya Federativ Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Pier Stankina, Azərbaycan Mədəniyyət Nazirliyinin şöbə müdiri Rizvan Bayramov, Şəmkirin orta əsrlər dövrü şəhər yerində qazıntılar aparan tarix elmləri doktoru Tarix Dostiyev ekspedisiyamızın qazıntı sahəsinə gələrək aşkar etdiyimiz abidə ilə yerində tanış olmuşlar.

Ekspedisiyamızın fəaliyyəti haqqında respublika və xarici ölkələrdə böyük həcmli məqalələr nəşr olunmuş, beynəlxalq və respublika əhəmiyyətli elmi konfranslarda məruzələr oxunmuş, radio, televiziyada geniş məlumat verilmiş, cari mətbuatda işıqlandırılmışdır. Qazıntılar davam etdiriləcək.

ƏDƏBİYYAT:

1. Нариманов И.Г. Находки баз колонн V-IV в.в. до н.э. в Азербайджане.// Советская археология, 1960, №4, с. 162-164.
2. Furtwangler A,Gumbati. Archeologishe Expedition in Kachetian 1994. Vorbericht, Eurasia Antiqua, 1, 1995, s. 177-211; Furtwangler, A.,Knauss F.Gumbati. Archaologishe Expedition in Kachetian 1995, Eurasia Antiqua, 2, 1996, s. 363-381; Archeologishe Expedition in Kachetian 1996, Ausgrabungen in den Siedlungen Gumbati und Ciskaraant-Gora 3., Vorbericht, Eurasia Antiqua. 3. 1977, s. 353-387; Knauss F.Persian Rule in the North. Achaemenid Palaces on the Periphery of the Empire. The Royal Palace in the First millenium B.C. Monographs of the Danish İnstitute at Athens. Vol. 4. Athens, 2001, p. 125-133.
3. Furtwangler A.,Knauss F.Gumbati. Archeologishe Expedition in Kachetian. 1995, s. 375-376.
4. Gagoschidse Y. und Kipiani. G.Nene Beobachtungen zur achaimenidischen Baukunst in Kartlı- Archeologishe Mitteilungen aus İran und Turan. Band 32, Berlin, Berlin. 2000, s. 60. Abb.6.
5. İlyas Babayev, Julon Gagoschidse und Florian S. Knauss mit Beitragen von Nadin Ludwiq, Gundula Mehnert, Ulirch Sens und Dirk Wicke. Ein Perserbau in Azerbaidschan. Ausgrabung auf İdeal Tepe bei Karacamirli 2006- Archeologishe Mitteilungen aus İran und Turan. Band 38, 2006, s. 291-330; İlyas Babayev, Julon , Florian S. Knauss. Achaemenid «Palace» at Garajamirli (Azerbaidschan). Preliminary Report on the Excavations in 2006- Achaemenide Culture And Local

Traditions in Anatolia, Southern Caucasus and İran. New Discoveries. Leiden-Boston, 2007, p. 31-45; Florian S. Knauss, Nadin Ludwiq, Gundula Mehnert, Ulirch Sens und Dirk Wicke. Ein Perserbau auf dem İdeal Tepe bei Garacamirli (Azerbaidschan). Arta. 2007, s. 24. Abb. 14, 20; İ.Babayev, F. Knauss, Y.Gaqoşidze. Azərbaycan, Almaniya və Gürcüstan birgə beynəlxalq arxeoloji ekspedisiyasının 2006-2007-ci illərdə Şəmkir rayonunun Qaracəmirli kəndində apardığı qazıntıların ilkin nəticələri. İdealtəpədə arxeoloci qazıntılar.-Şəmkir. Arxeolooi irsi, tarixi və memarlığı. Birinci respublika elmi-praktik konfransının materialları. Bakı, 2008, s. 10-21; Бабаев И., Гагошидзе Ю., Кнаусс Ф., Раскопки памятника Ахеменидского времени вблизи селения Гараджамирли Шамкирского района Азербайджана (Первые итоги и перспективы). Материалы Международной научной конференции 2008 г. Баку , 2009, с. 192-195; Babayev İ., Knauss. F.A Persian propaleum in Azerbaijan (Excavations in Garajamirli). Yenə orda, s. 196-2001.

6. Бабаев И. А. Античная черепица Кавказской Албании.- Советская археология, 1974, №2: Города Кавказской Албании в IV в до н.э. III в н. э. Baku, 1990, s. 74-77: Yenə onun. Excavations of Communal buildings (Fourth Century BC-First Century AD) at Gabala, the Capital of Caucasian Albania.- The Royal Palace İnstitution in the First millenium B.C. Monoqraphs of the Danish İnctitute at Athens 2001, Vol. 4. p. 285-286.

7. Yenə onun. Города... s. 69-73. Yenə onun. Excavations..., p. 290-291.

## THE CONSTRUCTIONS OF GARAJAMIRLI VILLAGE DURING AHAMANIDS

*Ilyas Babayev, Yulon Gagoshidze, Florian Knauss*

***Summary***

Since 2006 joint archaeological expedition of Azerbaijan, Germany and Georgia has been carried out archaeological excavations of construction remains of Ahamanid period near of Garajamirli village. There are found remains of administrative constructions. In 2006-2007 archaeologists revealed remainders of propylaeum with halls and other placements. There are 4 column bases in the halls. Presumably, the main building (palace) is located in 250 kilometres to the west of propylaeum.

Walls of construction are made of mudbrick of square on the gravel foundation. The thickness of foundation is 10 centimetres. The thickness of intermediate walls is 1,17 m while the thickness of utmost walls is 1,5 m. The monolithic base of columns are on gravel foundation. The columns are made of wood.

The entrance to the spacious is from the east and the thickness it is 3,75 m. The square of spacious hall is 100,8 m. There is also another hall after spacious hall. There

are other placements from the north and south. After the decline of Ahamanid Empire these constructions lost their administrative role. But even after that people still lived there. That fact is proved by ceramics findings date back to the IV-III centuries B.C. There are fragments of vessels, burnt bricks and tile among them.

The expedition has been started excavations from the main palace where revealed remainders of grandiose building. The excavation are going on.

## СООРУЖЕНИЯ АХЕМЕНИДСКОГО ПЕРИОДА В СЕЛЕ ГАРАДЖАМИРЛИ

***Ильяс Бабаев, Юлон Гагошидзе, Флориан Кнаусс***

### *Резюме*

Совместная археологическая экспедиция Азербайджана, Германии и Грузии с 2006 г. ведёт раскопки по изучению строительных остатков ахеменидского времени вблизи селения Гараджамирли. Здесь на большой площади встречаются остатки общественных зданий. В 2006-2007 гг. выявлены остатки пропилеи с залами и другими помещениями. В залах были поставлены по 4 базы колонн. Предположительно, основное здание (дворец) расположено в 250 м к западу от пропилеи.

Стены здания возведены сырцовыми кирпичами квадратной формы на гравийном фундаменте толщиной 10 см. Толщина промежуточных стен составляет 1,17 м, а крайних- 1,5 м. Монолитные базы колонн также поставлены на гравийном фундаменте. Колонны были деревянными.

С востока вход, шириной 3,75 м, ведет в просторный зал площадью 100,8 м, за которым расположен другой зал. С юга и севера этих залов расположены другие помещения. После падения Ахеменидской империи эти здания, по-видимому, потеряли административное значение. Но некоторое время здесь люди продолжали жить. Об этом свидетельствуют находки IV-III вв. до н.э., представленные в основном керамическими изделиями.

Они состоят из обломков различных сосудов, обожженных кирпичей и черепиц.

Экспедиция начала раскопки основного дворца, где выявляются остатки грандиозного здания. Раскопки продолжаются.

# ORTA ƏSR ŞƏMKİR ŞƏHƏRİNİN ZOOMORF TAPINTILARI

***Rəşid Bəşirov***
*(AMEA Arxeologiya və Etnoqrafiya İnstutu)*

Orta əsr Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılar zamanı əldə olunan çoxsaylı maddi-mədəniyyət nümunələri arasında gil və metaldan hazırlanmış zoomorf məmulatı da vardır.

Zoomorf məmulatı ən qədim dövrlərdən başlayaraq xalqın mənəvi həyatında, dini təsəvvüründə, zaman keçdikcə formalaşan bədii-estetik baxışlarında özünü təcəssüm etdirirdi. Azərbaycanın ayrı-ayrı arxeoloji abidələrindən tunc dövrünə aid abidələrindən çox sayda zoomorf əşyalar qeydə alınmışdır (1, s. 75). Məsələn, Şəmkir rayonunun Qaracəmirli kəndi yaxınlığında aparılan arxeoloji qazıntılar zamanı orta tunc dövrünə aid 6 nömrəli kurqandan quş və vəhşi heyvanların kiçik fiqurları aşkar olunmuşdur. Mütəxəssislər quşları daha çox ördəyə və qaza, vəhşi heyvanları isə itə və ya tülküyə bənzədirlər (2, s.38). Əvvəlki dövrlərə nisbətən antik dövrdə zoomorf məmulatı daha geniş yayılmışdı və özünün bədii tərtibatı, geniş çeşidi ilə fərqlənirdi. Bu formada (3) hazırlanmış məmulatlar antik dövr Azərbaycan əhalisinin yüksək mənəvi mədəniyyətə malik olmasını əks etdirirdi. Mingəçevir (4), Xınışlı (5), Qaratəpə (6) və s. arxeoloji abidələrindən bu qəbildən çoxsaylı məmulatlar aşkar olunmuşdur. Gil və metaldan zoomorf formalı və ya elementli əşyaların, qabların hazırlanması ənənəsi orta yüzilliklərdə də davam etdirilmişdir. Orta əsrlərdə zoomorf məmulatı özlərinin mükəmməlliyi və konkretliliyi ilə fərqlənirdi. Şəmkirdən tapılmış zoomorf məmulatı həm təyinatına, həm də hazırlanma texnologiyasına görə bir-birindən fərqlənir. Qeyd etmək lazımdır ki, zoomorf məmulatı əsasən heyvanat aləminin və mifik varlıqların formasında hazırlanmış qablardan və ya ayrı-ayrı qabların qulp, boğaz ya da ağzının zoomorf görünüş almış hissələrindən ibarətdir.



Şəkil 1.

Saxsı məmulatlarda zoomorf elementlərə daha çox su qablarında təsadüf edilir. Aşkar edilmiş su qablarından biri qırmızı boyalı, dar boğazlı bardağın zoomorf elementli ağız hissəsidir. Ağzının yanlarına qulaqcıqlar yapışdırılıb. Qulaqcıqların hər ikisinin üzərində qabartma üsulu ilə üç ədəd nöqtəvarı düyməcik vurulub. Bardağın qulpu sınmışdır. Qulpun əks tərəfindəki novça formasındakı ağız hissə sınmışdır. Novçanın altında, boğazda yapma çıxıntı qotazı əks etdirir. Qotazın olması onu göstərir ki, bardaqda əks olunan canlı ev heyvanına, ehtimal ki, qoyuna aiddir. Bardağın boğazının ortasında isə iki

qabarıq xətdən ibarət bəzək salınmışdır (şəkil 1.).

Oxşar ikinci bardaq fraqmentinin də ağzı novça formasındadır və demək olar ki, bütöv qalmışdır. Boğazın altında yapma çıxıntı qotazın olmasını göstərmək üçündür. Yapma qulaqcıqlar nisbətən dik təsvir olunmuşdur. Qulpun bir hissəsi salamat qalmışdır. Bu bardağın da boğaz hissəsində iki qabarıq xətdən ibarət bəzək vurulmuşdur. Qırmızı boya tədricən silinmiş, az bir hissəsi qalmışdır (səkil 2).

Daha bir zoomorf elementli bardağın boğaz tərəfi sınıq vəziyyətdə aşkar olunmuşdur. Qeyd etmək lazımdır ki, digər zoomorf qab nümunələrinə nisbətən bu məmulatın qırmızı rəngli boyası cüzi halda bir neçə yerdə qalmışdır və daha keyfiyyətsiz bişirilmişdir.



Şəkil 2.



Şəkil. 3., 4., 5.

Su tökülən novçanın ağız hissəsinin bir parçası və qulaqcıqlardan biri tamamilə sınmışdır. Digər qulaqcıq salamat qalmışdır, aşağı tərəfində kiçik bir deşik açılmışdır. Qulpun çox kiçik hissəsi bardağın boğaz hissəsi ilə birlikdə qalmışdır (şəkil. 3).

Açıq qəhvəyi rəngli bardaq boğazı daha keyfiyyətli hazırlanmışdır. Ağzı uzun novça halında düzəldilmişdir. Ön tərəfdən cüzi hissəsi sınmışdır. Arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş zoomorf elementli su qablarının içərisində təkcə onun qulaqcıqları digərlərindən fərqlənir. Yapma üsulu ilə bərkidilmiş qulaqcıqların ortasında deşik vardır. Qulaqcıq çubuq halında düzəldilmiş, sonra əyilərək bardağın boğazına yapışdırılmışdır. Onlardan biri salamat qalsa



Şəkil. 6.



Şəkil. 7.

da, digəri sınmışdır. Bardağın boğazının sınan hissəsindən görünür ki, onu gövdəyə birləşən yerdən ayırmaq üçün qabartma üsulu ilə xüsusi bəzək elementi işlənilmişdir (şəkil 4).

Böyük bir hissəsi sınmış zoomorf formalı bardaq boğazının təkcə bir qulaqcığı salamat qalmışdır (şəkil 5). Oxşar formalı, zoomorf elementli kiçik tutumlu su qabının ancaq novçası və qulaqcığının bir hissəsi qalmışdır. Qırmızı boya ilə boyanmış novçanın uzunluğu 6 sm-dir (şəkil 6).

Qırmızı boya ilə boyanmış zoomorf elementli bardağın fraqmenti ağzı novçalıdır və uc tərəfdə sınmışdır. Yanlarda qövsvarı qulaqcıqlar qoyulmuş, arxa tərəfdə qulpa yapışdırılmışdır. Boğazın ortasında bayıra tədricən genişlənmə vardır. Qulp tamamilə sınmışdır. Bardağın boğazında dairəvi qabarıq xətt vardır (şəkil 7).

Maraqlı tapıntılardan biri də zoomorf formalı qulp qalığıdır. Uzunluğu 8,7 sm olan qulpun qırığından görünür ki, o zövqlə düzəldilmiş su qabına məxsus olub. Qırmızı boya ilə boyanmış qulpun uc tərəfi tısbağaya bənzəyir. Yuxarıdan və yanlardan 0,5 mm diametrində olan cızma üsulla dairələr bəzək kimi istifadə olunmuşdur. Burun tərəfdən arxaya doğru tədricən genişlənən iki xətt çəkilmişdir (şəkil 8).

Haqqında danışdığımız bardaqların hamısında zoomorf elementlər stilizə edilmişdir. Burada bardağın ağzı novça kimi düzəldilir, ağzının yanlarında qoyulmuş qulaqcıqlar isə ona sifət görünüşü verirdi.

Orta əsr Şəmkir şəhər yerində tapılan zoomorf formalı qablardan üçü səhənglərə aiddir. Onlardan biri gövdədən qulpu ilə bərabər bütünlüklə qopub ayrılmışdır. Səhəng boğazının novçalı ağzı və ağzının kənarına yapışdırılmış qulaqcıqlar onu qoça bənzədir. Səhəngin ağzı və vurulmuş çıxıntı qoçun alnında olan xalı xatırladır. Qırmızı boya ilə boyanmış səhəngin boğazına qabartma üsulu ilə boyanmış iki ədəd xətt



Şəkil. 8.



Şəkil. 9., 10.



çəkilmişdir (şəkil 9).

Zoomorf xarakterli digər səhəngin də boğazı qulpla birlikdə gövdədən qopmuşdur. Üç gil çubuğu burub bir-birinə yapışdırmaqla hazırlanmış bu qulp qabın ağzına və çiyninə bərkidilmişdir. Səhəng boğazına zoomorf görünüş verən novça və qulaqcıqlardan biri tamamən sınmışdır. Boğazın ortasında qabartma üsulu ilə salınmış üç qurşaq vardır. Bu fraqment də qırmızı boya ilə örtülmüşdür (şəkil 10).

Üçüncü səhəng boğazı digərlərindən bir qədər fərqlənir. Bu nümunədə ehtimal ki, it əks olunub. Onun da qulpu üç gil çubuğu burub bir-birinə dolamaqla düzəldilmişdir (şəkil 11).

Yuxarıda göstərdiyimiz nümunələrin oxşarlarına Şimal-Şərqi Azərbaycanın orta əsr arxeoloji abidələrində də rast gəlinir (7,s. 150).

Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılar zamanı tapılmış iri həcmli küp qalıqları arasında zoomorf elementli qulpları olan nümunələr də vardır. Onlar üç ədəddir. Aşağı ucu küpün gövdəsinə birləşən birinci qulp tutuquşu formasında işlənmişdir. Tutuquşunun dimdiyi azca yana əyilmidir. Hər iki gözü yapma üsulu ilə hazırlanmışdır. Fraqment qırmızı boya ilə örtülmüşdür (şəkil 12).

Sonrakı küp qulpları da qırmızı boya ilə örtülmüşdür. Bir-birilərinə çox bənzəyirlər. Onların hər ikisi ilan formasındadır. Zoomorf görünüş qulpun yuxarı tərəfində yaradılıb. Onlardan birində ilanın başının yuxarı tərəfində açılmış çökəklik onu daha zəhmli göstərir (şəkil 13).



Şəkil. 11.

İkincidə burunun üstündə olan iki kiçik xətt və gözə bənzədilən kiçik deşik ustanın öz istəyinə çatmasına imkan vermişdir (şəkil 14).

Zoomorf elementli saxsı məmulat arasında çölməyə məxsus qulpun yuxarı tərəfi dik dayanmış iki qulaq şəklindədir. Qulaqların yan tərəfləri çərtmə üsulu



Şəkil 12., 13., 14

ilə bəzədilmişdir. Ön tərəfi elə qabardılmışdır ki, o sanki çöl pişiyinə və ya vaşaqa bənzəyir (şəkil 15).

Daha çox maraq doğuran əşyalardan biri hansısa əfsanəvi varlığa bənzədilmiş qırmızı boyalı saxsı qabdır. Arxeoloji qazıntılar zamanı bu fiqurun qabaq tərəfi ayrı, arxa ayaqlarından biri isə ayrıca tapılmışdır. Onun hündürlüyü 24 sm-dir. Bir vaxtlar bütöv halda olan bu fiqurun gövdəsi boru şəklində işlənmişdir. Hazırda gövdənin az bir hissəsi qalmışdır. Bu əşyanın əfsanəvi xüsusiyyət daşıması özünü ayaqlarında daha çox biruzə verir. Belə ki, öndən baxanda onlar daha çox çəkmə geymiş insan ayaqlarına bənzəyir. Yandan və ya arxadan baxdıqda isə ayaqlar iribuynuzlu heyvanın ayaqlarını xatırladır.

Fiqurun yuxarı tərəfində deşik açılmışdır. Deşiyin ətrafında qopma izləri vardır. Qopan hissənin əşyanın başı olmasına şübhə yoxdur. Bu insan başı və ya hansısa varlığın başı ola bilərdi (şəkil 16). Beyləqanda aparılan arxeoloji qazıntılar zamanı onun bənzəri olan fiqur aşkar olunmuşdur. Həmin fiqur metaldan tökmə üsulu ilə hazırlanmışdır. Onun gövdəsi heyvan, başı insan şəklindədir. Başının üstündəki üç çıxıq diş tacı xatırladır (8, s.55).



Şəkil. 15.

Arxeoloji qazıntılar zamanı aşkar olunan maddi-mədəniyyət nümunələrindən biri, şirli saxsı qabın boğazı orijinal forması ilə diqqəti çəkir. Qabın əcaib varlıq formasında işlənmiş ağzı və boğazı hansısa ideyanı simvolizə edir. Fraqmentə diqqət yetirdikdə, elə ilk baxışda adamın ağlına şeytan obrazı gəlir. Onun kənara çıxmış enli qulaqları, qabarıq gözləri, uzun burnu vardır. Həm alnında, həm da boğazında yapma düyməciklər vardır. Qab angob ləkələrlə bəzədilərək şirlənmişdir. Xüsusilə burnunun ətra-



Şəkil 16.

findakı çəp angob zolaqlar dekorativ mahiyyətdən başqa, görünür, həm də ideya yükü daşımışdır (şəkil 17).

Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılarda zoomorf tipli saxsı qablarla yanaşı metal əşyalarda əldə olunmuşdur.

Onlardan biri tökmə üsulu ilə tökülmüş vəhşi heyvan və ya stilizə edilmiş əfsanəvi heyvan fiqurudur. Fiqurun ancaq boyun və baş hissəsi qalmışdır. Görünür, bu əşyanın digər üzü də olmuşdur. Ola bilsin ki, onlar tökmə üsulu ilə hazırlandıqdan sonra bir-birinə lehimləmə ya da qaynaq üsulu ilə yapışdırılmışdır. Əlimizdə olan fraqment fiqurun sağ tərəfini əks etdirir. Fiqurun sifəti sındığı üçün onun kimliyi və təyinatı haqqında fikir söyləmək mümkün deyil. Yalnız dik vəziyyətdə olan qulağı salamat qalmışdır (şəkil 18).



Şəkil 17.

Zoomorf fiqurlu nümunələr bəzək əşyaları arasında da vardır. Tuncdan hazırlanmış sancağın baş tərəfi ördəyə bənzər quş formasındadır və çox məharətlə hazırlanmışdır. Uzunluğu 12 sm-dir. Çox güman ki, sancaq orta əsrlərdə qadınların bəzək əşyalarından biri olmuşdur (şəkil 19). Azərbaycanın digər abidələrindən də bu tip sancaqlar aşkar olunmuşdur. Mingəçevirin erkən orta əsr mədəni təbəqəsindən misdən hazırlanan quş fiqurlu iki ədəd sancaq tapılmışdır (9,s. 61-62).

Şəmkirdən tapılan sancaqla həmdövr olan (XI-XII əsrlər) sancaqlar Beyləqanda da qeydə alınmışıdır (8, s.56). F.Ə.İbrahimov onlardan birinin xalq arasında xoş xəbərlərin müjdəçisi sayılan sağsağana bənzədir (10, s.118). İkinci quş fiqurunu, həmçinin Gəncədən tapılmış misdən hazırlanmış quş fiqurunu bəzi mütəxəssislər şanapipiyə oxşadırlar (11, s. 61).



Şəkil 18.

Orta əsr Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılar zamanı əldə olunmuş saxsı və metaldan hazırlanmış zoomorf xarakterli əşyalar burada sənətkarlığın yüksək səviyyədə inkişaf etdiyini göstərməklə yanaşı şəhər əhalisinin ətraf aləmə olan münasibətini, müxtəlif inanclarla bağlı, yəni xeyir qüvvələrə bel bağlamaq, şər qüvvələrdən qorunmaq, həyatın ayrı-ayrı

sahələrində uğur qazanmaq üçün inandıqları zoomorf himayədarlara sığındığını da göstərir.

Bu bir daha göstərir ki, dünya dinləri meydana gəlməmişdən qabaq yaranan təsəvvürlər xalqın yaddaşında qalmış, transformasiya olunaraq İslamın hakim olduğu orta əsrlərdə də yaşamağa davam etmişdir. Təbii ki, coğrafi və təbii şərait, bölgə əhalisinin iqtisadi və mədəni həyat tərzi insanların dünya görüşündə və əməllərində mühüm rol oynayırdı.

Şəkil 19.



## ƏDƏBİYYAT:


1. İbrahimov Bəhlul, Hüseynova Sevil, Əliyev Elvin. Xaraba – Gilandan tapılmış zoomorf əşyalar. Azərbaycan arxeologiyası, 2006, № 1-4.
2. Гусейнова М.А., Алиев И.Н.. Среднебронзовые курганы с. Гараджамирли Шамкирского района Азербайджана. Şəmkir: Arxeoloji irsi, tarixi və memarlığı. Birinci respublika elmi-praktik konfransının materialları. Bakı, 2008.
3. Рзаев Н.И. Искусство Кавказской Албании (IV в.до н..э. – VII в.н.э.). Баку, 1976.
4. Казиев С.М. Альбом кувшинных погребений. Баку, 1960.
5. Халилов Дж.А. Раскопки на городище Хыныслы – памятника древней Кавказской Албании. СА, 1962, №1.
6. Исмизаде О.Ш. О зооморфной керамике из Каратепе. ДАН Азерб. ССР, 1959, т. XV, №1.
7. Tarix Dostiyev. Şimal-Şərqi Azərbaycan IX-XV əsrlərdə. Bakı, 2001.
8. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri. Bakı, 1979.
9. Vahidov R.M. Mingəçevir III-VIII əsrlərdə. Bakı, 1961.
10. İbrahimov F.Ə. Metaldan quş fiqurları. AMM, X c. Bakı, 1987.
11. Abbasova F.Ə. Azərbaycanın orta əsr zoomorf əşyaları. Bakı, 2004.

# ZOOMORPHOUS ARTIFACTS FROM THE MEDIVAL SHAMKIR CITY

***Rashid Bashirov***

***Summary***

This article is dedicated to zoomorphous artifacts found in the medieval Shamkir city. They are presented by ceramic and painted jugs. The aureole, throat or handle of these jugs are made in the form of animals. Basically it's indicated ships, dogs, snakes and birds descriptions. There was also found the fragment of metallic figure that is presented by pin with the statuette of a bird. Zoomorphous forms were established by ancient people of Azerbaijan as a result of early religion and cosmological view and continued Islamic period as a tradition.

# ЗООМОРФНЫЕ ИЗДЕЛИЯ СРЕДНЕВЕКОВОГО ГОРОДИЩА ШАМКИР

***Рашид Баширов***

***Резюме***

В статье исследуются зооморфные изделия, выявленные из средневекового городища Шамкир. Они, в основном, представлены керамическими кувшинами, крашеными кюпами, венчик, горло или ручка которых сделаны в виде животных. В основном это изображения барана, собаки, змеи и птиц. Имеется также фрагмент металлической фигуры, а также булавка с фигуркой птицы. Появление изделий зооморфной формы связано с астрально-космогоническими взглядами и ранними религиозными представлениями населения древнего Азербайджана, пережитки которых сохранились и в исламский период.

# ORTA ƏSR ŞƏMKİR ŞƏHƏRİNİN TİCARƏT ƏLAQƏLƏRİ

*Namiq Hüseynli*
*(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)*

E.ə II əsrdən fəaliyyət göstərən qədim Böyük İpək yolu orta əsrlər dövründə gücünü bir qədər də artıraraq Aralıq dənizi sahilindən tutmuş Yaxın və Orta Şərq, Mərkəzi Asiya, Hindistan və Uzaq Şərq xalqları arasında müxtəlif səpgili ticarət əlaqələrinin yaranmasında müstəsna rol oynamışdır (1, 97).

Şərq-Qərb dünyalarını birləşdirən Böyük İpək yolunun beynəlxalq əhəmiyyəti VII-X əsrlərdə, ərəb-müsəlman dövlətinin Çin və Hindistandan tutmuş geniş bir ərazini öz hakimiyyəti altında birləşdirdiyi dövrdə daha da artdı (1, 99).

VII əsrdən başlayaraq Ərəb xilafəti güclənərək başqa ölkələri fəth etməklə yanaşı, Böyük İpək yolu üzərində nəzarəti ələ almışdı. Xilafətin mühüm vilayətlərindən olan Azərbaycanı da bu yollar, dövrün beynəlxalq ticarətinə qovuşdurmuş, xarici aləmlə hələ qədim zamanlardan mövcud olan iqtisadi, mədəni və siyasi əlaqələri daha da genişləndirmiş və möhkəmlətmişdi.

Böyük İpək yolu ilə həyata keçirilən ticarət əlaqələrində fəal iştirak edən Azərbaycan şəhərlərindən biri də Şəmkirdir. Orta əsr müəllifləri Böyük İpək yolunun Bərdədən Tiflisədək keçdiyi ticarət xəttində Şəmkiri başlıca məntəqə kimi göstərirlər.

Əl- İstəxri Bərdədən Tiflisə gedən beynəlxalq ticarət yollarının coğrafi kordinatlarını aşağıdakı kimi qeyd edir: Bərdədən Cənzə şəhərinə – 9 fərsəx, Cənzədən Şəmkirə – 10 mənzil, Şəmkirdən Xunana- 21 fərsəx, Xunandan ibn Qandaman qalasına- 10 fərsəx, Qaladan Tiflisə- 12 fərsəxdir.

Müqəddəsi bildirir ki: Bərdədən Cənzəyə- 1 mənzil, Cənzədən Şamkura- 1 mənzil, sonra Xunana- 3 mənzil, sonra İbn Qandaman qalasına- 1 mənzil, sonra Tiflisə- 2 mənzil yol vardır.

Bütün bunlarla yanaşı, müəllif Arranın coğrafi təsvirini verir və vilayətin üçdə birini təşkil etdiyini qeyd edir. 14 şəhərin, o cümlədən Şəmkirin adı çəkilir.

Qüdaməyazır: Bərdədən Mütəvəkkiliyyə (Şəmkir) şəhərinə- 6 mənzil, sonra Tiflisə- 10 mənzil yoldur. İdrisi isə yazır ki, Bərdədən Cənzəyə- 27 mil, sonra Şamkura – 30 mildir. Şamkurdan Xunana- 63 mil, sonra İbn Qandaman qalasına- 30 mildir. Tiflisə- 36 mildir. Bərdədən Tiflisə cəmi 186 mildir (2, 145).

Orta əsr gürcü mənbələrində "Kartlis Svoxreba" (Kartlinin/ Gürcüstanın həyatı, tarixi) toplusuna daxil olan "Kartli salnaməsi"nin müəllifi IX əsrin ortalarında baş vermiş hadisələri təsvir edərək Şəmkir şəhərinin əhəmiyyətini

xüsusi qeyd edir və vurğulayır ki, Cənubi Qafqazda Xilafət hakimiyyətini möhkəmləndirmək məqsədilə ərəb sərkərdəsi Buğa Türk Şəmkir şəhəri və yörələrinə "üç yüz xəzər ailəsini köçürüb məskunlaşdırdı" (3, 83).

Orta əsr qaynaqlarında qeyd olunduğu kimi Azərbaycan və Arran ərəblər tərəfindən işğal edilməzdən əvvəl, habelə ərəblərin hökmranlığı dövründə həmin ölkələrdən keçən ticarət yollarının birinci dərəcəli əhəmiyyəti var idi. Bu ticarət yolları bütün Xilafət sistemindəki ən aparıcı maqistral yollardan biri sayılırdı (4, 136; 5, 78).

Ərəblər Bizansın Qara dənizdən keçən əsas ticarət yollarını pozaraq, bu yolları Şərqə, Xəzərə tərəf keçirmişdilər. Bu isə Xəzər ətrafındakı şəhərlərin coşğun inkişafına təkan verdi. Ərəblərin hərbi siyasətdə əsas məqsədləri böyük cənub-şimal ticarət yollarının cinahını qorumağa yönəlmişdi.

IX əsrin ikinci yarısından Azərbaycanda iqtisadi dirçəliş baş verir: sənətkarlıq və ticarətin inkişafı şəhər həyatının canlanmasına və karvan yolları boyunca ticarət mərkəzlərinin inkişafına səbəb olur. Belə şəhərlərdən biri də Şəmkir idi. Bu şəhər artıq IX- X əsrlərdə mühüm ticarət- sənətkarlıq mərkəzlərindən biri idi.

Orta əsr Şəmkir şəhəri beynəlxalq ticarət yolunun üzərində yerləşdiyi üçün bölgədə karvan yollarının salınması, körpülərin və karvansaraların tikilməsi zəruri şərtlərdən biri idi. Təbii maneələri azaltmaqla yanaşı, Azərbaycan ərazisini kəsib keçən qitələrarası ticarət marşurutlarında da gediş- gəlişi təmin etmək üçün körpülər salınması vacib amillərdən idi.

Dövrün ticarət yolları üçün xüsusi əhəmiyyət kəsb etmiş körpülərin qalıqları hal-hazırda Şəmkir bölgəsində, yalnız Şəmkirçay və Zəyəmçay yataqlarındakı körpülərin dayaq sütunlarıdır. Ticarət əlaqələrinin genişlənməsi və göstəricisi olan Şəmkirçay üzərində qurulmuş iki körpünün qalıqları bu gündə öz əzəmətini əks etdirməkdədir.Onlardan biri, çoxaşırımlı körpü, ehtimal ki, XI-XII əsrlərdə inşa olunmuşdur. Şəmkirçayda bu körpünün səkkiz dayaq sütununun qalıqları müasir dövrümüzə qədər qalmaqdadır.

Bəzi tədqiqatçıların qeyd etdiyinə görə Şəmkirçay üzərində inşa edilmiş orta əsr yadigarı olan bu körpü xronoloji və üslub baxımdan Gəncə körpülərinə oxşardır (7, 135).

Yerli əhali tərəfindən "Sınıq körpü" və ya "Dəvə körpü" adlandırılan ikinci böyük korpü Şəmkir rayonu ərazisində Zəyəmçay üzərində yerləşir və Şəmkir körpüsünə oxşardır. Vaxtilə orta əsr ustaları tərəfindən yüksək peşəkarlıqla inşa edilmiş həmin körpünün dövrümüzə qədər altı dayaq sütunu qalmışdır. Zəyəmçay körpüsü də dövrün tələblərinə cavab verən, karvan yolları üzərində yerləşən, uzunluğu 100 metrdən, eni 3,5 metrdən az olmayan, Arran memarlığına xas olan monumental abidələrdəndir (8, 62).

Yazılı qaynaqlardan bəlli olur ki, Şəmkir şəhərinin ixracat malları arasında keyfiyyətli bıçaqlar, yun parça və libaslar xüsusi yer tuturdu (9, 98; 10, 154).

Orta əsr Şəmkir şəhərinin ticarət əlaqələrinin geniş öyrənilməsində arxeoloji qazıntılar zamanı əldə olunan maddi-mədəniyyət nümunələrinin əhəmiyyəti olduqca böyükdür.

2006- 2008-ci illərdə tarix elmləri doktoru T.M.Dostiyevin başçılığı ilə aparılmış arxeoloji tədqiqatlar əsasında Şəmkir şəhərində VIII əsrdən XIII əsrədək şəhər həyatının mövcudluğu elmi ədəbiyyatda təsdiqlənmiş, XI- XII əsrlərdə şəhərin çiçəklənmə çağını keçdiyi vurğulanmışdır (11, 201; 12, 27).

Beynəlxalq ticarət əlaqələrinin öyrənilməsində arxeoloji qazıntılar nəticəsində tapılmış fayans qablar, bəzək əşyaları, muncuqlar, sikkələr böyük maraq doğurur.

Bilindiyi kimi fayans qabların yayılma arealı çox geniş olub. Onlar nəinki Azərbaycanda, həmçinin Uzaq və Yaxın Şərq ölkələrində, Orta Asiya, Cənubi Qafqaz, Rusiya və İran şəhərlərində belə tapılmışdır.

Metal parıltısına malik, zərifliyi və gözəlliyi ilə qızıl və gümüş qablardan heç də geri qalmayan zərnaxışlı fayans qabların başlıca istehsal mərkəzləri Rey və Kaşan şəhərləri hesab olunur. Şəmkir şəhər xarabalığından arxeoloji qazıntılar zamanı tapılmış fayans tipli qablar gili ağ, kül rəngi, çəhrayı rəngdə olub, sarı- qızılı, qəhvəyi və süd rəngli şirlə içərisi şirlənmişdir. Onlar əsasən kasa, piyalə, boşqab və bardaq tipli qablar ilə təmsil olunublar. Bu qablar yüngül, formaca cəlbedici, divarları isə nazikdirlər. Fayans qabların dekorativ bəzədilməsi ilə yanaşı, həmçinin dulusçular tərəfindən böyük məharətlə qabların ağız hissəsində və ya arxa hissəsində ərəb əlifbası ilə yazılar yazılırdı.

Arxeoloji qazıntılar zamanı əldə olunmuş fayans qablar içərisində həm yerli istehsalın təcəssümü olan fayans qablar, həm də orta əsr Şəmkir şəhərinin digər ölkələrlə sıx ticarət əlaqələrinin göstəricisi kimi gətirilmə qablar da vardır.

Rey və Kəşanda istehsal olunmuş zərnaxışlı fayans qab nümunələrini aşağıdakı qruplara ayırmaq olar.

1. ağ süd rəngli şir üzrə qızılı şirlə işlənmiş fayans qablar
2. tutqun göy şir üzrə qızılı şirlə işlənmiş fayans qablar

Tapılmış iri boşqab tipli zərnaxışlı fayans qab fraqmenti xüsusi diqqətə layiq olub, ağ şəffaf şir üzrə sarı- qızılı şirlə nəfis şəkildə işlənmişdir. Öz bədii tərtibatı və zərif naxışlanması ilə diqqəti cəlb edir. Bu fraqment, alçaq halqavari oturacağı və oturacaqdan yanlara doğru genişlənən divarının bəzi hissələri əks etdirir. Ağzının kənarı basılaraq yastılaşdırılmış, yana doğru əyilərək qaba xüsusi forma verilmişdir. Qabın ortasına və ağzının əyilmiş hissəsinə iri konsentrik dairə çəkilmişdir. Qabın mərkəzi və divarları nəbati naxışlarla bəzədilmiş, yalnız ağız hissəyə qab boyunca ərəb əlifbası ilə ardıcıl yazılar yazılmışdır (şəkil 1).

Üzərində ərəb əlifbası ilə yazılar yazılmış fayans qab tutqun göy şir üzrə zərlə işlənmişdir (şəkil.2). Azərbaycanın digər bölgələrindən aşkar olunmuş fayans qab fraqmentlərinin də üzərində oxşar yazılara rast gəlinmişdir. Şəmkir şəhərindən tapılmış bu fayans qab fraqmentinin üzərindəki yazı hələlik oxunmamışdır. Örənqalada (13, 188) və Gəncədə aparılmış arxeoloji qazıntılar zamanı tapılmış zərnaxışlı fayans qablar üzərində də eyni üslubda epiqrafik naxışlanmaya rast gəlinir. Bəzi hallarda bu yazılarda dulusçu ustaların adları göstərilir, bəzən hər hansı bir şairin şeir və ya rübaisindən bir parça sitat gətirilir.



Şəkil 1.

Nəbati naxışlarla bəzədilmiş kasa tipli fayans qabın fərqli xüsusiyyəti onun arxa tərəfinə yazı yazılmasındadır.



Şəkil 2.

Həmin qabın hazırlanmasında dövrün dulusçuları ağ şəffaf şir üzrə sarı-qızılı şirdən istifadə etmişlər. Ağzının kənarı düz olub, üfqi istiqamətdə ağız hissəsi boyunca düz xətt çəkilmişdir. Bu kasa tipli fayans qabın da divarı nazikdir (şəkil 3).

Üzərində insan təsviri olan digər fayans qab fraqmenti xüsusilə diqqətəlayiqdir. Bu tip fayans qabın da hazırlanmasında eyni üslubdan istifadə edilmiş, ağ şəffaf şir üzrə sarı-qızılı şirlə naxışlanmışdır. Qabın yuxarı ətrafına və ağız hissəyə sarı qızılı şirlə konsentrik dairələr çəkilmiş, mərkəzi hissəsində isə iki qız təsviri verilmişdir. Azərbaycanın digər orta əsr şəhərlərindən arxeoloji qazıntılar



Şəkil 3.

zamanı aşkar olunmuş oxşar fayans qablarında üzərində oxşar təsvir kompozisiyalarından istifadə edilmişdir. Bu cür fayans qablarda bir qayda olaraq yerdə bardaş qurub oturmuş və ya at üzərində qaçış səhnəsi, enlisifət qız təsvirləri verilir (14, 87). Şəmkir şəhər xarabalığı ərazisindən tapılmış nazik divarlı fayans qab fraqmentinin ağız hissəsi düz formadadır. Qızların hər ikisi enli sifətlidir, iri gözləri, çatma qaşları, yanlara doğru daranmış qısa saçları vardır. Qız təsvirlərinin hər ikisi antropoloji cəhətdən monqoloid irqinə daha çox oxşardırlar. Lakin fayans qab sınıq olduğundan qabın üzərindəki təsvirlərin tam izahını vermək çətinləşir. Qabın üzəri həmçinin nəbati naxışlarla bəzədilmişdir (şəkil 4). Bu cür zərnaxışlı fayans qab fraqmentinə arxeoloji qazıntılar zamanı orta əsr Gəncə şəhərinin xarabalıqlarında rast gəlinmişdir (15, 259).



Şəkil 4.

Tutqun göy şirlə şirlənmiş zərnaxışlı fayans qab fraqmentlərindən birinin üzərinə nəbati naxışlarla yanaşı iri nöqtələrlə naxışlar salınmışdır. Qabın ağız hissəsinə qab boyunca zərnaxışla üfiqi istiqamətdə düz xətt salınmışdır. Bu qabın da arxa hissəsinə əvvəlki zərnaxışlı fayans qablarada olduğu kimi yazı vardır.

Digər belə fayans qab fraqmentinin də üzəri göy şirlə şirlənmiş, iri konsentrik dairələrin içərisinə xırda sarı-qızılı nöqtələr salınaraq, dairələrin kənarları nəbati



Şəkil 5.

naxışlarla bəzədilmişdir (şəkil 5). Bu qabın da ağız hissəsinə üfüqi istiqamətdə düz xətt çəkilərək, eyni naxışlanma üsulundan istifadə olunmuşdur.

Beynəlxalq ticarət əlaqələlərinin göstəricisi olan digər maddi-mədəniyyət nümunələrindən arxeoloji qazıntılar zamanı tapılmış bəzək əşyalarını, xüsusi ilə kauri muncuqlarını qeyd etmək lazımdır.

Şəmkir şəhər xarabalıqlarında arxeoloji qazıntılar zamanı tapılmış kauri muncuqların sayı 2 ədəddir. Beynəlxalq ticarət əlaqələrinin öyrənilməsində böyük rol oynayan kauri muncuqlarının vətəni isə Maldiv adaları hesab olunur (16, 143). Kauri muncuqlarının arxeoloji qazıntılar zamanı aşkarlanması həmçinin orta əsrlərdə Azərbaycanın Maldiv adaları ilə əlaqəsindən xəbər verir. Etnoqrafik materiallar əsasında aydın olur ki, kauri adlanan asmalar həm bəzək, həm də amulet kimi istifadə olunurmuş. Kaurilər həmçinin azərbaycanlılar arasında «qarnıyarıq» adlandırılır (17, 150). Bu cür muncuqların həmçinin insan sağlamlığında və müxtəlif xəstəliklərin qarşısının alınmasında mühüm rol oynadığı bildirilir.

Aparılan tədqiqat və təhlillər əsasında qeyd etmək olar ki, orta əsrlərdə Azərbaycanın digər orta əsr şəhərləri kimi Şəmkir şəhərinin də beynəlxalq ticarət əlaqələrinin genişlənməsində böyük xidmətləri olmuşdur. Şəhərin əlverişli strateji mövqedə yerləşməsi, şərqlə qərbi birləşdirən ticarət yollarının buradan keçməsiylə yerli məhsulların dünya bazarına çıxarılmasına və daha əhəmiyyətlisi isə orta əsr sənətkarlığında tətbiq olunan texniki yeniliklərin və kəşflərin Azərbaycan ustaları tərəfindən tətbiq olunmasına imkan verirdi.

## ƏDƏBİYYAT


1. Vəlixanlı N. Böyük İpək yolu və orta əsr imperiyaları. // İpək Yolu, №4 Bakı, 1998.
2. Orta əsr mənbələrində Azərbaycan tarixinə aid materiallar. Bakı, 2005.
3. Nəsibli Y.M. Şəmkir orta əsr gürcü qaynaqlarında. // Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı. Proqram və tezislər. Şəmkir, 2007.
4. Vəlixanlı N. IX-X əsr ərəb coğrafiyaşünas- səyyahları Azərbaycan haqqında. Bakı, 1974
5. Bünyadov Z. Azərbaycan VII- IX əsrlərdə. Bakı, 1989.
6. Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993.
7. Qiyasi C. Nizami dövrü memarlıq abidələri Bakı, 1991.
8. Dostiyev T.M., Kvaçidze V.A. Zəyəmçayda orta əsr körpü qalıqları // Azərbaycan arxeologiyası, 2003, № 1-4.
9. Hudud al- Alam. The regions of the world. Persian geography 372 a.h // 982 a.d. Trans. and exp. By V.F Minorski. London, 1937.
10. Миклухо- Маклай Н.А. Географическое сочинение XIII в. на персидском языке. // Ученые записки Института Востоковедения АН СССР, 1954, т.9.
11. Достиев Т.М. Исследование городища Шамкир. // Археология, этнография и фольклористика Кавказа. Материалы международной научной конференции

«Новейшие археологические и этнографические исследования на Кавказе». Махачкала, 2007
12. Dostiyev T.M. 2006- 2007- ci illərdə Şəmkir şəhər yerində aparılmış arxeoloci tədqiqatlar. // Şəmkir: arxeoloci irsi, tarixi və memarlığı. Birinci respublika elmi-praktik konfransı. Tezislər. Şəmkir, 2007
13. İbrahimov F.Ə. Örənqaladan tapılan zərnaxışlı fayans qablar haqqında. AMM. VI. Bakı, 1965. tablo II. Şək 1.
14. Əhmədov Q.M. Örənqala. Bakı, 1962.
15. Халилов Дж.А., Мусаев Д.Л., Мехтиев Т.С Находки китайского фарфора на городище средневековой Гянджи. // Советская археология, 1988, № 2.
16. Хейердал Тур. Малдивская загадка. Москва, 1988
17. Rəcəbova B.Ə. Qadın bəzəkləri və onunla əlaqədar olan adət- ənənələr. // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, №1, 2008

## TRADE RELATIONS OF MEDIEVAL SHAMKIR CITY

*Namig Huseyinli*

***Summary***

This article is about the medieval trade relations of Shamkir city. As a result of archaeological investigation of Shamkir city it was determined that the life in the city was continued from the VIII till the XIII centuries.

Due to the fact that Shamkir has a favorable geographic location, this city played an active role in the international trade on the Silk way. It's proved by the remains of material culture found during the archaeological excavations. A lot of handicrafts made in Front and Middle Asia were found in the cultural stratum on the site. Basically, found luster ceramics which made in Rey and Kashan as well.

# ТОРГОВЫЕ СВЯЗИ СРЕДНЕВЕКОВОГО ГОРОДА ШАМКИР

*Намиг Гусейнли*

**_Резюме_**

Данная статья посвящается связям средневекового города Шамкир. В результате археологического исследования городища установлено, что период его существования охватывает VIII- XIII вв.

Благодоря географическому положению, город сыграл активную роль в международной торговле, шедшей по Великому Шёлковому пути. Доказательством этому являются не только письменные источники, но и архелогические данные. В культурном слое обнаружены многочисленные образцы ремесленной продукции, изготовленные в городах Ближнего и Среднего Востока, Византии и т.д. Особенно часто встречаются образцы люстровой керамики Рея и Кашана.

# ŞƏMKIRIN ORTA ƏSR TƏNDIRLƏRI

*Samir Kərimov*
*(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)*

Azərbaycanın orta əsr şəhər məişətində ən zəruri və geniş istifadə olunan bişirmə və isitmə vasitəsi təndirlər olmuşdur. Təndirlər orta əsr şəhər əhalisinin məişət həyatında böyük əhəmiyyət kəsb etmiş və onlar vasitəsi ilə şəhər sakinlərinin məişət tələbatları və ehtiyaclarının bir qismi ödənilmişdir. Aşkar olunan təndirlər təyinatına görə məişət və təsərrüfatın müxtəlif sahələrində istifadə edilmişdir.

2006 - 2008-ci illərdə orta əsr Şəmkir şəhər yerində aparılan sistemli və geniş miqyaslı arxeoloji qazıntı işləri şəhər məişətinin bir çox sahələrini səciyyələndirməyə imkan verən zəngin faktoloji materialların üzə çıxarılması ilə nəticələnmişdir. Arxeoloji qazıntılar sübut edir ki, digər orta əsr şəhərlərində olduğu kimi Şəmkirdə də təndirlərdən məişətdə geniş istifadə edilmişdir.

Şəmkir şəhərinin şəhristan və narınqala ərazilərində aparılan arxeoloji qazıntılar zamanı xeyli miqdarda təndirlər tapılmışdır.Həmin təndirlər mədəni təbəqənin müxtəlif inşaat qatlarında qeydə alınmışdır.

2006-cı ildə Şəmkir şəhərinin şəhristanının mərkəzində aparılan arxeoloji qazıntılar zamanı mədəni təbəqənin VIII- X əsrlərə aid inşaat qatından iki təndirxana qalıqları və təndirxanalardan isə 4 təndir üzə çıxarılmış, XI-XII əsrlərə aid inşaat qatından isə bir təndir aşkarlanmışdır (1,s.275; 2,s.33-34). Təndirlər ölçülərinə görə bir-birindən fərqlənirlər. Birinci təndirxanadan aşkar edilən təndirin dibinin diametri 45 sm, ağzının diametri 42 sm , divarının qalınlığı 4-5 sm, salamat qalmış hündürlüyü 42 sm idi. İkinci təndirxanadan qeydə alınan təndirlərin dibinin diametri 52-56 sm, ağzının diametri 48-52 sm, divarlarının qalınlığı 3-4 sm, hündürlükləri 26-28 sm idi. XI-XII əsrlərə aid təndirin diametri 53 sm, divarlarının qalınlığı 3-4 sm idi (2,s.33-34). Şəhristandan üzə çıxarılan təndirlərin dibinin diametri ilə ağzının diametri arasındakı fərqlər və standartlıq göstərir ki, onlar üç cür düzədilmişdir. Təndirlərin ikisinin ağzı yuxarıya doğru daralmış, birində isə ağzından dibə doğru genişlənmə, digərinin dibi ilə ağzının diametri arasında bir standartlıq müşahidə edilmişdir. Oxşar təndirlər Şəmkirin orta əsr Daşbulaq yaşayış yerinin arxeoloji qazıntılarından məlumdur (3,s.227, şək.1-5). İkinci təndirxanada iki təndirin birinin-digərini kəsməsi onların müxtəlif dövrlərdə istifadə olunduğuna dəlalət edir. Görünür, təndirlərdən biri sıradan çıxdıqdan sonra ikinci təndir düzəldilmişdir. Təndirlər təmizlənən zaman onlardan bir çox mətbəx avadanlıqları və ləvazimatların tapılması, bəzi təndirlərin nalşəkilli ocaq ilə müşayiət olunması onların mətbəx tikilisinə aid edilməsi ehtimalını yaradır. Digər tərəfdən təndirlərin içərisindən

daha çox güvəc və onun qırıqlarının, bıçaq tiyələrinin tapılması da bu fikri bir qədər möhkəmləndirir. Yəqin ki, vaxtilə həmin təndirlər çörək və xörək bişirmədə istifadə olunmuşdur.

A.N. Mustafayev ölçülərdən asılı olaraq təndirlərin üç növə ayrıldığını və "qış təndirinin - 18 çörəklik, yay təndirinin- 12 çörəklik, gündəlik təndirin isə 6 çörəklik olduğunu və bəzən eyni təndirxanada bunların üçünün də düzəldiyildiyini" qeyd etmişdir (4,s.107). Onun fikrinə əsasən qeyd edək ki, təndirlər mövsümi xarakter daşımışdır. Qış aylarından fərqli olaraq yay aylarında çörəyi uzun müddət saxlamaq mümkün olmaması üzündən daha az bişirirdilər. Şəmkir şəhərindən tapılan müxtəlif ölçülü təndirləri də təyinatına görə qış və yay təndirlərinə bölmək olar. Nisbətən iri ölçülü təndirlər qış üçün, orta ölçülü təndirlər yay üçün, kiçik ölçülü təndirlər isə gündəlik istifadə üçün hazırlanmışdır. Bunu heç də şəhər əhalisinin bütün təbəqələrinə aid etmək olmaz. Şəhərin daha yoxsul təbəqələri yalnız bir təndirdən istifadə etmişdir.

V.A. Əhmədova etnoqrafik müşahidələrə əsaslanaraq qeyd edir ki, "Azərbaycanda təndirlər bir neçə funksiyaya malikdir: çörək bişirmək, meyvə qurutmaq, saxsı məmulatı bişirmək və başqa işlərdə istifadə olunurdu" (5,s.56). Bu baxımdan Şəmkirdən tapılan təndirlərin çörək və xörək bişirmədə, qış aylarında mətbəx və yaşayış evlərinin isidilməsində və digər ev işlərinin görülməsinə yardımçı olmasını güman etmək olar.

2007-ci ildə narınqaladakı IV qazıntı sahəsinin IX-X əsrlər və XI-XII əsrlər inşaat qatından 7-dən artıq təndir üzə çıxarılmışdır (6,s.288, 7,s.8 ; 2,s.39-40). Narınqalanın IV qazıntı sahəsinin 1a-4a kvadratlarında aşkar edilən təndirlər ölçülərinə görə bir-birindən fərqlənir. Buradan tapılan təndirlərin dördü külbəlidir. Külbələr təndirlərin dib hissələrində maili istiqamətdə düzəldilmişdir. Təndirlərdə külbələrin düzəldilməsi bir neçə məqsəd daşıyırdı. Birincisi külbə, adətən, təndirin dibində düzəldilərək təndir qalanan zaman yanacağın yaxşı və gur yanmasını təmin edirdi. Təndir külbə vasitəsi ilə hava çəkərək yanacağın tez alışmasını və onun divarlarının çörək bişirmək üçün normal qızmasına şərait yaradırdı. İkincisi isə təndir qızandan sonra külbə yaş əski, saxsı qapaq və yaxud daş əşya ilə qapanaraq istiliyin itkisinin qarşısı alınırdı. Şəmkir şəhər yerində külbənin qapadılması üçün arxeoloji qazıntılar zamanı əşya tapılmasa da, Daşbulaq orta əsr yaşayış yerindən külbənin qapadılmasında istifadə olunan yastı əhəngdaşları və saxsı qapaqlar aşkar edilmişdir (3,s.227). Külbənin qapadılması vasitəsi ilə təndirdə çörək bişirildikdən sonra saxlanan istilikdən müxtəlif məqsədlər üçün istifadə olunurdu.

Orta əsrlərdə çörək bişirilməsi və digər ev-məişət işlərinin əksəriyyəti qadınlar tərəfindən yerinə yetirilirdi. Təbii ki, təndirlərin təmiz saxlanması və onun içindəki külün çıxarılması, çörək bişirmək və digər işlər qadınların öhdəsinə düşürdü.

S.M.Ağamalıyeva etnoqrafik müşahidələrə əsasən təndirlərin qadınlar tərəfindən hazırlanması qənaətinə gəlmişdir (8,s.23). Yəqin ki, orta əsrlərdə Şəmkir şəhərində də təndirlər qadınlar tərəfindən hazırlanmışdır. Müasir dövrdə də təndirlərin qadınlar tərəfindən hazırlanması ev peşəsi kimi Azərbaycanın müxtəlif etnoqrafik zonalarında indiyədək qalmaqda davam edir. Tarixən Azərbaycan ərazisində təndirlərin "döymə", "badlı" və "kərpic" növləri yayılmışdır (9,s. 108). Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən təndirlər, əsasən, badlı təndirlərdən ibarət olmuşdur. Şəhərdən tapılan təndirlər yüksək hərarətə tab gətirən odadavamlı gildən yoğrulan müxtəlif qalınlıqda lentvari badların bir-birinin üzərinə hörülməsi üsulu ilə hazırlanmışdır. Bundan sonra təndirlərin daxili və xarici gillə suvanaraq badların üstü örtülürdü. Təndir bir neçə gün ərzində quruduqdan sonra onun içində od qalanaraq çörəkbişirmə üçün hazır vəziyyətə gətirilirdi.

Badlı təndirlər Azərbaycanın orta əsr şəhərlərində geniş yayılan təndir tiplərindən biri idi. Arxeoloji qazıntılar zamanı IX-XIII əsrlərə aid badlı təndirlər Beyləqan, Bakı, Dərbənd, Qəbələ, Şabran və s. şəhərlərindən yaxşı məlumdur (10,s.55-99;11,s.53-58;12,s.76;13,s.23-28). Şəmkir şəhər yerindən tapılan badlı təndirlər forma və quruluşlarına görə Muncuqlutəpə şəhər tipli yaşayış yerindən və Daşbulaq orta əsr kənd tipli yaşayış yerindən aşkar edilən təndirlərlə daha çox eynilik təşkil edir (14,s.57-58;3,s.226-228). Şəmkir şəhərindən tapılan badlı təndirlər yeraltı təndirlər qrupuna daxil olmuş və onlar torpağa basdırılmışdır. Təndirlərin torpağa basdırılması onları həm də gün işığının təsirindən çatlamasının və yağışlı-yağmurlu havada isə dağılmasının qarşını alırdı.

Narınqalanın IV qazıntı sahəsinin IX-X əsrlərə aid inşaat qatında məişət tikililəri və qurğuları ilə müşaiyət olunan iki həyət qalığı üzə çıxarılmış və həmin həyətlərin daxilində təndirlərə rast gəlinmişdir. Birinci həyətin xırda çaydaşları və bişmiş kərpic qırıqları ilə səliqəsiz halda hörülmüş hasarın içərisində diametrləri 48-52 sm, salamat qalmış divarlarının hündürlükləri 44-48 sm olan üç kiçik ölçülü təndir qalıqları və su hopdurulması üçün quyu üzə çıxarılmışdır (2,s.39,şək.10). Şəhristanda olduğu kimi təndirlərin ikisinin ölçülərində standartlıq müşahidə edilmiş və biri isə orta hissədən yuxarıya doğru genişlənmişdir. Təndirlərin üçünün bir həyət daxilində kiçik bir ərazidə qeydə alınması onu sübüt edir ki, müəyyən müddət ərzində istifadə edilən təndir sıradan çıxdıqdan sonra onun yaxınlığında yenisi düzəldilmişdir (şək. 1). Təndirlər xalq arasında müqəddəs sayıldığından və onun dağıdılması günah hesab olunduğundan istifadəyə yararsız təndirlər dağıdılmamışdır. Ola bilsin ki, onlardan ocaq kimi və yaxud digər məqsədlər üçün istifadə edilmişdir. Birinci həyətdən cənubda qeydə alınan oxşar hörgülü ikinci həyətin şimal-qərb tərəfində oturacağının diametri 50 sm, salamat qalmış divarının hündürlüyü 57 sm, ağzının diametri isə 40 sm olan, orta hissədən yuxarıya doğru daralan və kəsik konus formasında olan daha



Şək. 1.



Şək. 2.

bir təndir aşkarlanmışdır (şək.2). Həmin təndirin ağzının ətrafında 1,5 m uzunluqda, 1 m enində, döşəmədən 15-20 sm hündürlükdə bişmiş kərpicdən səki qurulmuş və təndirdən 60 sm cənub qərbdə bişmiş kərpiclərin dikinə qoyulması ilə düzəldilən ocaq qeydə alınmışdı (2,s.40). İkinci kicik həyətin daxilində qeydə alınan təndirin ocaqla müşahidə olunması təsadüfi olmamış və həmin kompleksin yay mətbəxi olması ehtimalını artırır. Digər tərəfdən kompleksin döşəməsinin torpaqdan olub və üzərinə suvaq çəkilməsi də bunu təsdiqləyir. Adətən, orta əsr şəhərlərində qeydə alınan mətbəx tikililərində təndir və onun yaxınlığında isə ocaqlara rast gəlinir. Təndirlər qalanaraq çörək bişirildikdən sonra onda qalan od və közdən yaxınlıqdakı ocağın qalanması üçün istifadə edilirdi. Bu da orta əsr şəhərlərində yanacaqdan səmərəli istifadəni şərtləndirirdi.

IV qazıntı sahəsinin cənubunda qeydə alınan beşinci iri təndirin oturacağının diametri 60 sm, divarının hündürlüyü 63 sm, ağzının diametri isə 42 sm olmuşdur. Beşinci təndir də oturacaqdan yuxarıya doğru daralmışdır. Bu təndir ölçülərinə görə qazıntı sahəsində üzə çıxarılan ən böyük təndir idi (şək.3). Qazıntı sahəsinin 1c kvadratında oturacağının diametri 28 sm, divarlarının hündürlüyü 65 sm və ağzının diametri 30 sm olan daha bir kiçik təndir aşkar edilmişdir. Bu qazıntı sahəsinin müxtəlif kvadratlarında qeydə alınan 6 təndir nis-



Şək. 3.

bətən yaxşı mühafizə olunmuşdur. Onların bəzilərində oturacaqlardan ağıza doğru daralma və yaxud genişlənmə, digərlərinin ölçülərində standartlıq müşahidə olunur. Yeddinci təndirin divarlarının yalnız bir hissəsi qalmışdır. Təndir güclü dağıntıya məruz qaldığı üçün onun ölçülərini müəyyənləşdirmək olmadı. Həmin təndiri digərlərindən fərqləndirən əsas cəhət isə nisbətən salamat qalmış divarlarında yuxarıdan aşağıya doğru cızma xətlərin çəkilməsidir. Oxşar naxışlı təndirlər Daşbulaq və Salmanbulağı orta əsr yaşayış yerlərindən, Bakı və Qəbələ şəhərlərinin arxeoloji tədqiqi zamanı tapılmışdır (15,s.14-16; 11,s.54; 5,s.59). Cızma naxışlar təndirin divarlarının möhkəmliyini və davamlığını artırmaq üçün vurulurdu. T.M.Dostiyevin fikrincə, həmin naxışlar təndir divarının quruyarkən çat verməsinin qarşısını alır və xəmirin divara möhkəm yapışmasını təmin edirdi (15,s.15). Bu baxımdan cızma naxışlı təndirlər uzun müddət istifadə üçün yararlı olurdu.

Şəmkirin orta əsr təndirlərində də orta əsr məişətinin tələblərindən doğan xüsussiyyətlər əksini tapmışdır. Şəhər əhalisi çörəkbişirmə və xörək bişirmə vasitəsi kimi təndirlərdən daha məqsədəuyğun və səmərəli şəkildə istifadə etmişlər.

## ƏDƏBİYYAT

1. Dostiyev T.Şəmkir qalasında 01-30 avqust 2006-cı ildə aparılan çöl tədqiqatları haqqında. // Azərbaycan arxeologiyası və etnoqrafiyası, 2006, №2.
2. Dostiyev T.M. 2006-2007-ci illərdə Şəmkir şəhər yerində aparılmış arxeoloji tədqiqatlar.// Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı. Birinci respublika elmi-praktiki konfransının materialları. Bakı, 2008.
3. Hüseynov M.M.,Cəlilov B.M. Orta əsr Daşbulaq yaşayış yeri.// Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı. Birinci respublika elmi-praktiki konfransının materialları. Bakı, 2008.
4. Mustafayev A.M. Şirvanın maddi mədəniyyəti. Bakı, 1977.
5. Əhmədova V. Azərbaycan təndirləri. // Azərbaycan arxeologiyası, Xəzər Universitəsi, 2000, №1-2.
6. Dostiyev T.M., Bəşirov R.Y., Hüseynli N.N. Şəmkir şəhər yerində 2007- ci ildə aparılmış arxeoloji qazıntıların yekunlarına dair. // Azərbaycan arxeologiyası və etnoqrafiyası, 2007, N-2.
7. Dostiyev T.M.Şəmkir arxeoloji ekspedisiyası 2007. Bakı, 2008.
8. Агамалиева С.М. Гончарство Азербайджана. Баку, 1987.
9. Каракашлы К.Т. Материальная культура азербайджанцев. Баку, 1964 .
10. Якобсон А.Л. Раскопки на городище Оренкала 1953-1955 гг. (раскоп-1). //МИА, №67, Москва, 1959.
11. Исмизаде О.Ш., Ибрагимов Ф.А. О средневековых тендирах из раскопок в городе Баку. // Изв.АН Азерб. ССР, серия история право и философия, 1974, №2.

12. Исмизаде О.Ш. О раскопках в Кабале на южной части городища 1960 г. //МКА, Баку, 1964, т.5.
13.Халилов Дж.А., Кошкарлы К.О., Аразова Р.Б. Археологические памятники северо-восточного Азербайджана. Баку, 1991.
14. Əliyev Ə.Ə. Muncuqlutəpədə aparılan arxeoloji tədqiqatlar haqqında (1985-1988). // Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı. Birinci respublika elmi-praktiki konfransın tezisləri. Bakı, 2007.
15. Dostiyev T. Salmanbulağı yaşayış yerinin arxeoloji tədqiqinin bəzi nəticələri. //, Azərbaycan arxeologiyası, Xəzər Universitəsi, 2000, №1-2.

## THE MEDIEVAL TENDIRS- OVENS OF SHAMKIR

***Samir Kerimov***

### *Summary*

The article is dedicated to the ovens found in medieval Shamkir town city in 2006-2008. The author gives information about ovens discovered in town site and strong hold of Shamkir, as well as typological features of remains everyday functions of ovens.

He also notes that during the clearing of tendirs the patterns of kitchen ceramics, knives and ersins (dishes) have been found. Sometimes there are bow-shaped hearth near tendirs.

## СРЕДНЕВЕКОВЫЕ ТЕНДИРЫ ШАМКИРА

***Самир Керимов***

### *Резюме*

Статья посвящается тендирам, обнаруженным в 2006-2008 годах на городище Шамкир. Даются сведения о тендирах, выявленных на территории шахристана и цитадели города, а также рассматриваются типологические особенности тендирных остатков и их бытовое назначение. При расчистке тендиров обнаружены образцы кухонной керамики, бытовые ножи и эрсины. Иногда тендиры сопровождаются дугообразными очагами.

# ŞƏMKIR NARINQALASININ BIR BÜRCÜ HAQQINDA

*Rəsulağa Mirzəyev*
*(Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti)*

Orta əslərdə şəhərlərin etibarlı müdafiə sistemi ilə təmin olunmasına xüsusi önəm verirdilər. Şəhər istehkamlarını ucaldan memarlardan həm böyük qüvvə ilə sürətli hücumlara, həm də uzunmüddətli mühasirələrə davam gətirə bilən, dövrün hərb sənətinin inkişaf səviyyəsinə cavab verən, sakinlərin təhlükəsizliyini təmin edə biləcək qala və qəsrlər inşa etmək tələb olunurdu. Dövrümüzə qədər gəlib çatmış şəhər istehkamları orta əsrlərdə Azərbaycanda hərb memarlığının yüksək inkişaf səviyyəsini təsdiqləməyə imkan verir.

Belə maraqlı memarlıq əsərlərindən biri son illər Şəmkir şəhər yerində arxeoloji qazıntılarla üzə çıxarılan narınqala və şəhər qala divarlarıdır [1;2 ]. Narınqala divarları daha yaxşı tədqiq olunub.Vaxtı ilə torpaq qalaqları altında olan onun şərq divarı arxeoloji qazıntılar nəticəsində tamamilə üzə çıxarılaraq bünövrəyədək tədqiq edilmişdir.

Narınqala divarları Arran memarlıq məktəbi üçün səciyyəvi olan, çaydaşı, bişmiş kərpic və yerli ağ daşdan istifadə etməklə qarışıq hörgü ilə inşa olunub. Narınqalanın şərq divarında mərkəzi mövqe tutan bürc daha çox dağıntıya məruz qalıb və onun konservasiyasına daha böyük ehtiyac vardır.




Şəkil 1. Narınqalanın şərq divarında mərkəzi bürcün mövqeyi. 1-mərkəzi bürc, 2-divar dayaqları, 3-qala divarları, 4-cənub bürc, 5-şimal bürc




Şəkil 2. Şərq divarının və mərkəzi bürcün birlikdə xətti ölçüləri.




Şəkil 3. Mərkəzi bürcün planı.

**Mərkəzi bürcün mövcud halı**

Narınqalanın şərq divarında yerləşən mərkəzi bürcün sağ və sol tərəfində-ki divarların mərkəzi bürclə birləşdiyi nöktələri düz xətlə birləşdirsək və o xətti davam etdirsək o zaman sağ və sol divarların bir-biri ilə bucaq əmələ gətirdi-yini və ya bir düz xətt üzərində olmadığını görərik. Bu cəpliyi iki cür ifadə edə bilərik.

Birinci halda divarların uzantısını çəkib bir-biri ilə kəsişməsindən alınan bucaqla (sxem-1).




Mərkəzi bürc (sxem 1)

İkinci halda isə Mərkəzi bürcün divarlarla kəsişdiyi "A" və "B" nöqtələrini birləşdirən "A-B" düz xəttinin mərkəzi bürcün sağ və sol tərəfində Narınqala divarları ilə əmələ gətirdiyi bucaqlarla (sxem 2).




Mərkəzi bürc (sxem 2)

Narınqalanın divarlarının mərkəzi bürclə birləşdiyi yerdə qalınlığı 4100 mm-dir.

Mərkəzi bürcün bünövrənin üstündən olan hündürlüyü 7700 mm, bünövrənin qalınlığı (şərti olaraq desək ) 100 mm-dir. Belə başa düşə bilərik ki, əslində divarın bünövrəsi təbii olaraq kipləşmiş qruntun özüdür. Lakin biz bünövrə adlandırdığımız 100 mm qalınlığında olan yapışdırıcı məhlul qatı

əslində hamarlayıcı və ya düzləndirici qatdır. Belə qatın funksiyası divar hörgüsü başlanan zaman istifadə olunan ilk daşların üzərinə düşən yükləri həmin məhlul ilə birlikdə səpələnmiş yük kimi bünövrəyə ötürməkdən ibarət idi.

### Mərkəzi bürcün konstruktiv quruluşu

Mərkəzi bürc qala divarları ilə bir yerdə olaraq hörülmüşdür.O aşağıdakı qatlardan ibarətdir:

a) daxili üzlük qatı (bu qat narınqalanın içərisinə dogru olan qatdır).

b) divarın mərkəzi qatı (daxili və xarici üzlük qatlar arasında olan qat).

c) möhkəmləndirici qat (bu divar qatı xarici üzlük qatdan əvvəl yerləşməklə divara xüsusi möhkəmlik verir).

d) Divarın xarici üzlük qatı (bu qat Mərkəzi bürcün bayır tərəfdən yaraşıqlı, təmiz və hamar görsənməsini təmin etməklə bərabər həm də divara vurula bilən dinamiki zərbələrə qarşı möhkəmlik verir. )

Mərkəzi bürcün yuxarıda sadalanan heyranedici keyfiyyətlərini və xüsusiyyətlərini təsvir etmək məqsədi ilə onun qatlarının hörgüsünə və hörgü quruluşuna nəzər salaq. Mərkəzi bürcün dağılmış hissələri onun divar qatlarının qalınlığı və hörgü quruluşu haqqında tam dəqiqliklə fikir söyləməyə imkan verir. Belə ki, bürcün daxili və xarici qatları ayrı-ayrılıqda müntəzəm şəkildə hörüldükcə, yəni “a” ”b” ”d” onların arasında yerləşən orta qat da tikilirdi. Əgər xarici və daxili qatlar xüsusi hörgü qaydasına əsaslanırdısa, orta qat bir növ doldurucu özək qat kimi qarışıq hörgü ilə tikilirdi. Belə ki, daxili və xarici qatlar əsasına 50-80 mm qalınlığında yapışdırıcı məhlul yaxılır, ondan sonra onun üzərinə müxtəlif ölçülü çay daşları düzülürdü. Sonra düzülmüş çay daşlarının üzərinə və aralarına yenidən yapışdırıcı beton məhlulu yaxılaraq daşların araları doldurulurdu. Bu qayda ilə alınan orta qat sanki bütov bir monolit yaradıb. Yəni bu qat qalınlığı 2700 mm-lə 7100 mm arasında dəyişən (bürc yarımdairə olduğundan) böyük həcmli, dayanıqlı, möhkəm və sərt monolit bir kütlə əmələ gətirmişdir. Məhz bu mərkəzi bürcün son dərəcə müdafiyə qabiliyyətli olmasını təmin edə bilmişdir.

Göründüyü kimi bu tip hörgü üsulunda daxili və xarici divar qatları istər-istəməz orta divar qatı ilə vəhdət təşkil edir.

Daxili divarlarla orta divar qatının materiallarının bir-birinin daxilinə 200 mm-lə 600 mm arasında daxil olması daxili divarla orta divarı bütövləşdirirdi.

Bu hal daxili divar qatı ilə xarici divar qatı arasında xüsusilə valehedicidir. Belə ki, xarici üzlük divar qatını əsasən 220x220x50 mm olan bişmiş kərpiclərlə, 300 mm-lə 600 mm arasında dəyişən iri ağ daşlarla və çaydaşı hörgüsü ilə hörürdülər.




**Xarici üzlük divar qatından görünüş**

Xarici divar qatı tikilərkən daxili divar hörgü materialı, kərpic hörgüsü və iri həcmli ağ daş hörgüsü bir-birinin daxilinə keçməklə eyni zamanda divara xüsusi möhkəmlik, bağlılıq və gözəllik vermişdir. Deyilənlərin sxematik alaraq aşağıdakı kəsiyinə baxaq.

1) daxili qat (bişmiş kərpic, çaydaşı, və ağ daş hörgüsü qalınlığı 300-600 mm)

2) orta qat qalınlıq 2100-7100 mm çaydaşı və yapışdırıcı məhluldan monolit kütlə

3) Xarici dinamik təsirlərə cavab verən möhkəmləndirici qat (üst-üstə 4,5,6 cərgə, ölçüləri 220x220x50 mm olan kərpic qatı)

4) Xarici üzlük- bişmiş kərpic, çaydaşı, və ağ daşla hörülmüş yaraşıq qatı

Beləliklə, yuxarda qeyd olunanlar orta əsr Şəmkir şəhərinin istehkam tikililərinin yüksək peşəkarlıqla inşa edildiyini təsdiqləyir. Mərkəzi bürcün mövcud vəziyyəti isə onun qalıqlarının uzun müddətli qorunması üçün təcili konservasiya işlərinin aparılmasını tələb edir.

## ƏDƏBIYYAT

1. Dostiyev T.M 2006-2007-ci illərdə Şəmkir şəhər yerində aparılmış arxeoloji tədqiqatlar. //Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı.I Respublika elmi-praktik konfransın materialları. Bakı 2008, s. 31-60
2. Dostiyev T.M ,Başirov R.Y, Hüseynli N.N Şəmkir şəhər yerində aparılmış arxeoloji tədqiqatlar. //Azərbaycanda arxeoloji tədqiqatlar. Bakı, 2008.

# ABOUT ONE TOWER OF SHAMKIR STRONGHOLD

***Rasulaga Mirzayev***

***Summary***

This article is about the central tower of eastern wall of Shamkir stronghold. The author pays a special attention to the plan, location and meaning of central tower, as well as the features of its construction. The tower was built by combined laying, where the lines of burnt brick, cobble-stone and white limestone are taking turns. The author analyzing the eastern walls of stronghold notes that the tower of Shamkir needs the urgent measures of conversation.

# ОБ ОДНОЙ БАЩНЕ ШАМКИРСКОЙ ЦИТАДЕЛИ

***Расулага Мирзаев***

***Резюме***

Данная статья посвящена центральной башне восточной стены цитадели средневекового города Шамкир. В статье рассматривается планировка восточной стены цитадели, расположение и значение центральной башни в ней, особенности конструкции и строительного приёма башни. Она была возведена комбинированной кладкой, где чередовались ряды обожжённого кирпича, булыжника и белого известняка. Анализируя состояние центральной башни восточной стены цитадели, автор отмечает необходимость срочных мер по консервации этого памятника.

# ИСТОРИКО-АНАЛИТИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ ЖЕЛЕЗНЫХ ИЗДЕЛИЙ СРЕДНЕВЕКОВОГО ШАМКИРА

***Халида Селимханова***
*(Институт Археологии и Этнографии НАН Азербайджана)*

Проблема истории использования железа и его сплавов представляет собой важный, но недостаточно изученный раздел в истории металлургии древнего Азербайджана. При археологических изысканиях обнаружено значительное количество железных изделий, которые до сих пор не исследованы и требуют к себе однако определенного внимания.

Наличие богатых залежей железной руды создало благоприятные условия для развития металлургии и металлообрабатывающего ремесла на территории Азербайджана.

Об этом свидетельствуют обнаруженные при археологических изысканиях минералы. Для раннего производства железа, вероятно, использовались руды, расположенные на поверхности месторождений, из которых вследствии их легкой плавкости можно было несложным путем получить железо. Необходимо отметить, что древний рудокоп использовал руды-минералы, которые являются продуктами образования осадочных месторождений, образующихся при различных природных процессах, например выветривании, смывании ливневыми дождями, оползней почвы, вследствие чего происходило обнажение рудного тела на месторождении. К поверхностным минералам, которыми пользовались древние плавильщики для выплавки железа, относятся: гематит, лимонит, гетит, пирротин, магнетит. Самым первым минералом, используемым древним человеком, является гематит, который содержит 70% железа [2, с.5-11, 252, 253].

Письменные источники, относящиеся к раннему периоду использования железа, в Азербайджане отсутствуют. Они существуют лишь со средневекового времени. Одним из первых пишет о железе историк Хамдулла Казвини (XIII в.). В своих трудах наряду с другими полезными ископаемыми, добываемыми в Азербайджане, он приводит краткие сведения о добыче железа вблизи Гянджи и Каламбара (Дашкесана). Можно предположить, что железная руда добывалась на Дашкесанском месторождении с древнейших времен. В течении продолжительного времени древние ремесленники получали из руд Дашкесанского месторождения железо кричным способом [1, с. 18, 21].

При археологических раскопках на территории Азербайджана в средневековом городе Шамкир археологом Т.Достиевым в 2007 г. обнаружено значительное количество железных изделий. Предметы были предс-

тавлены для анализа в Лабораторию археологической технологии Института Археологии и Этнографии НАН Азербайджана. Однако их анализировали в Институте химии.

Предметы средневекового происхождения, датированные автором раскопок IX-X вв., покрыты толстым слоем окислов коричневого цвета. Исследованные изделия местного происхождения, так как на территории Шамкирского района имеются выходы гематита. Это Чанлибельское (бывшее Чардахлинское) проявление гематита расположено в 2,5-3,0 км к западу от с. Чанлибель (Чардахлы) Шамкирского района, в верховьях реки Гаранлых-чай и носит название Зиядлыдере.

Найденные изделия были изучены в Институте химии НАН Азербайджана методом атомно-абсорбционного анализа, результаты которого приведены в таблице.

Результаты атомно-абсорбционного анализа

| № | Название предмета | Содержание элементов, в % | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Fe | Cu | Sn | Pb | Zn | As | Sb | Ag | Au | Bi | Ni | Co | Mn |
| 1 | Наконечник стрелы, 20 г | основа | 0,0484 | 0 | 0,0048 | 0,0209 | 0 | 0 | 0 | 0 | 0 | 0,0201 | 0,0125 | 0,0484 |
| 2 | «---», 18,5 г | основа | 0,0109 | 0 | 0,0075 | 0,0152 | 0 | 0 | 0 | 0 | 0 | 0,0138 | 0,0132 | 0,0427 |
| 3 | «---», 9 г | основа | 0,0342 | 0 | 0,0065 | 0,0182 | 0 | 0 | 0 | 0 | 0 | 0,0243 | 0,0154 | 0,0417 |
| 4 | «---», 9,2 г | основа | 0,0876 | 0 | 0,0068 | 0,0483 | 0 | 0 | 0 | 0 | 0 | 0,0225 | 0,0146 | 0,1274 |
| 5 | «---», 19,2 г | основа | 0,0528 | 0 | 0,0077 | 0,0214 | 0 | 0 | 0 | 0 | 0 | 0,0241 | 0,0151 | 0,0698 |
| 6 | Крицы | основа | 0,0169 | 0 | 0,002 | 0 | 0 | 0,02 | 0 | 0 | 0 | 0,002 | 0 | 0,07 |
| 7 | Пирит | основа | 0,034 | 0 | 0,003 | 0,1 | 0 | 0,007 | 0 | 0,007 | 0,007 | 0,002 | 0,003 | 0 |
| Примечание: №1-5 – автор раскопок Т.Достиев, датировка IX-X вв. н.э., №6 – автор раскопок Д.Халилов, IX-XV вв. н.э., №7 – Чанлибельского месторождения, передал на анализ Н.М.Селимханов. Месторождение Чанлибель – бывшее Чардахлы. | | | | | | | | | | | | | | |

Из приведенных результатов анализов видно, что исследуемые изделия по своему химическому составу идентичны с составом исходных руд Чанлибельского месторождения, из которых по всей вероятности они и были изготовлены.

Насчёт химического состава исследуемых изделий необходимо отметить, что все изделия изготовлены из сплавов на основе железа с примесями меди, свинца, цинка, никеля, кобальта и марганца. Несмотря на то, что вышеотмеченные элементы присутствуют в железных изделиях в малом количестве, они заметно влияют на физико-химические свойства выплавленного железа следующим образом. Примеси меди придают железу пластичность при ковке, как холодной, так и горячей. Свинец придает легкотекучесть при разливе в литейные формы, никель и кобальт придает прочность сплаву, а марганец – твёрдость.

В заключение необходимо отметить, что исследуемые изделия мест-

ного происхождения. Свидетельством этого является состав исходных железных руд, имеющихся на территории Азербайджана, а также руд Чанлибельского месторождения. Химический состав исследуемых изделий показывает, что изделия являются высококачественными, т.е. твердыми и прочными. Это говорит о том, что ремесленники средневекового города Шамкир владели всеми технологическими навыками и знаниями по выплавке железа. Высокое мастерство древних мастеров позволило им сохранить при плавке ценные естественные примеси, придающие выплавленному железу высокое качество.

## ЛИТЕРАТУРА

1. Кашкай М.А.Петрология и металлогения Дашкесана. Москва, 1965.
2. Вахромеев С.А. Месторождение полезных ископаемых, их классификация и условия образования. Москва, 1961.
3. Геология Азербайджана. Рудные полезные ископаемые. Баку, 1961, т. 6.

## ORTA ƏSR ŞƏMKİRİN DƏMİR MƏMULATLARININ TARİXİ-ANALİTİK TƏDQİQİ

*Xalidə Səlimxanova*

*Xülasə*

Dəmir məmulatları və onun ərintilərinin istifadə tarixi Azərbaycanın metallurgiya tarixində kifayət qədər öyrənilməmiş sahədir. Arxeoloji tədqiqatlar zamanı çoxlu sayda dəmir məmulatı aşkar olunmuşdur.

Orta əsr mənşəli əşyalar qazıntıların müəllifi tərəfindən IX-X əsrlərə aid edilmişdir. Həmin əşyaların üzəri yaşıl-qəhvəyi ərplə örtülmüşdür. Tədqiq olunmuş əşyalar dəmir filizindən hazırlanmışdır. Bu əşyalar yerli mənşəlidir, belə ki, Şəmkir ərazisində dəmir filizi hematitin olması aşkar edilmişdir. Hematit filizi Şəmkir rayonunun Çənlibel kəndindən 2,5-3,0 km qərbdə, Qaranlıq çayının yuxarı hissəsində, Ziyadlıdərə adlı sahədə tapılmışdır.

Aşkar olunan dəmir məmulatı AMEA Kimya İnstitutunda atom-absorbsiya metodu ilə analiz edilmişdir (bax cədvəl). Əşyalar öz kimyəvi tərkibinə görə Çənlibel (Çardaxlı) yataqlarında aşkar olunmuş filizlərlə eynidir və güman ki, bu filizlərdən hazırlanmışdır.

# HISTORICAL ANALYTICAL INVESTIGATION OF MEDIEVAL IRON ARTIFACT FROM SHAMKIR

*Khalida Selimkhanova*

## *Summary*

The problem of a history of use of iron and its alloys represents important, but insufficiently investigated section in a history of metallurgy of the ancient world in territory of Azerbaijan. During archaeological investigations has been found out the significant amount of iron products which till now were not investigated and required the certain attention of researchers.

Subjects of a medieval origin are dated by the author of excavation to the IX-X centuries. They are covered with green-brown patina. The investigated products are made of iron ore; most likely these products of a local origin as in territory of Shamkir district are available hematite displays. It is Chanlibel display of hematite, is located in 2.5-3.0 kms to the west of Chanlibel village of the Shamkir district, in upper reaches of the Garanligchay and called also as Ziyadlidere.

The found products archaeological have been analyzed in Institute of Chemistry of Azerbaijan NAS by an atom-absorption analysis method. The results: see in the table.

From the given results of analyses it is visible that investigated products on the chemical composition are identical with composition of initial those ores of Chanlibel deposit of which most likely they have been made.

# МАТЕРИАЛЫ К КАТАЛОГУ МОНЕТ ИЗ РАСКОПОК ГОРОДИЩА ШАМКИР (2007-2008 гг)

***Ганира Пиркулиева***
*(Институт Археологии и Этнографии НАН Азербайджана)*

Проведенные за последние несколько лет стационарные археологические исследования на территории городища Шамкир выявили определенное количество монетных находок.

Представленные нам для атрибуции ученым– археологом Тарих Достиевым эти нумизматические материалы в основном медные фулусы, кредитные посеребреные дирхемы и несколько экземпляров копеек XVIII - XIX вв. Монеты обнаружены как на поверхности городища при разведочных работах, так и в культурных строительных слоях. Все монетные находки носят внекладовый характер.

На основе определения нумизматических материалов, обнаруженных в 2006-2007 годах, мы предварительно датировали время интенсивного развития Шамкирского городища второй половиной VIII – XII столетиями (6; с. 70-73). Однако, с продолжением археологических раскопок количественное соотношение монетных регалий увеличивается «в пользу» монгольского периода. Здесь присутствуют как ранние монеты периода монгольских нашествий, так и определенное количество монет Хулагуидов – Абу Саида, Олджайту – султана, Сулеймана и т.д. Определены также единичные экземпляры медных фулусов, чеканенные от имени Джагатайского правителя Махмуд хана, медный чекан города Шамахи конца XIV века, медная анонимная монета последних Джалаиридов и мелкие денежные единицы – копейки Российского Императорства .

В процентном соотношении преобладают так называемые «кредитные» дирхемы Атабеков – Ильдегизидов, когда возможно в этот период в Шамкире, как впрочем и в других крупных и средних по размеру городах Азербайджана функционировали собственные монетные дворы, удовлетворявшие не только потребности внутреннего рынка, но и всего государства. Они отличаются между собою иконографическими и метрологическими особенностями. Обнаруженные монетные находки из Шамкира чеканены в различных городах Азербайджана. Подобный факт ещё раз доказывает, что «проникновение меди за пределы узколокального рынка вызвано двумя причинами. Во-первых, ростом экономических связей; во-вторых, событиями политического характера. Таким образом, медь на территории другого государства могла исполнять функцию денежного платежного средства, (но в первую очередь и главным образом её появление здесь, было результатом торговых отношений») (2, с. 107).

Исследования археологов подтверждают наши предположения по поводу расцвета Шамкира как города именно в период Атабеков – Ильдегизидов (1; с. 37-38). Однако, в своё время ученый – нумизмат Е.А.Пахомов, изучая монеты из городища Орен-Кала (Бейлакан), поставил такой интересный и проблемный вопрос: «за находками аббасидских монет IX в. следует как бы хронологический перерыв, не означает ли он упадок городской жизни во время завоевания Восточного Закавказья сельджуками?» (5; с. 91). Дальнейшие научные исследования доказали, что с середины IX в., с распадом Аббасидского халифата, образовались феодальные государства. Конкретно из Шамкира известны несколько экземпляров монет Шеддадидов, Ширваншахов (8; с. 44-48).

На основе монетных находок, мы считаем, что следующим периодом восстановления и развития города Шамкира является время правления монгольских правителей Хулагидов. Так, если в первой половине прошлого столетия ученым был известен чекан города Барда исключительно 1322, 1328, 1332 годов от имени Абу Саида, то в последние годы проведенные исследования доказывают широкой ареал распространения этих монет из собственных азербайджанских городов – Нахчыван, Тебриз, Дербенд и т.д. (4; с. 20-24). Чекан монет Шамкира данного периода довольно редкий. Это связано, видимо и с тем, что при Хулагуидах, кроме местного чекана по всему государству, обращались и монеты других городов.

В нумизматической науке имеется другой, общепринятый научный вывод о том, что «Джалаириды с приходом к власти редко чеканили монеты. Они в основном пользовались денежными единицами монгольских хулагуидских правителей» (3; с. 118; 7; с. 10-12). Высокая степень изнашиваемости монет некоторых монгольских правителей из этого городища является прямым доказательством данного фактора и, возможно, Шамкир в некоторой степени еще продолжал функционировать в начале второй половины XIV века.

Итак, к первой четверти XIV века жизнь в городище Шамкир приходит в упадок. Редкие монеты, относящиеся к Джагатаидам, Джелаиридам и более поздние денежные единицы являются случайными находками. Последние свидетельствуют о продолжении функционирования торгового пути, проходившего с давних времен через Шамкир, всегда имевший важное стратегическое значение.

1. 221. Аноним. Фулус В=0,9 гр; Д=6-7 mm. Раннеарабский период. Надписи почти стёрты. На аверсе определяется конусообразный орнамент. На реверсе имеется надчекан, где внутри чеканено слово «бисмиллах».
2. 41 (Т 1-3). В=0,7 гр; Д=9-10 mm. Фулус. Наср-Бин (?). (?) 71.

На аверсе имеется предполагаемое имя наместника арабов в Азербайджане – Наср-Бин. От даты чекана сохранились цифры (?) 71.

3. 62. В=2,1 гр; Д=21-24 mm. Ранние Ширваншахи. Аноним фулус. На аверсе читается титул «Ширваншах» на арабском языке без диакритических точек. Остальное стёрто, в том числе и ободок.
4. 227. Такая же, как № 62.
5. 206. Такая же, как № 62.
6. 551. Такая же. Ранний период. Чекан города Тебриза. Имеется имя правителя Шамседдина Ильдегиза.
7. 470. Такая же. Ранний период. Чекан города Тебриза.
8. 285. Атабеки. В=9 гр; Д=18-19 mm. Шамкир. Дата отсутствует. Кредитный дирхем.На аверсе имя, изображение двузубца. Место чеканки Шамкир. Ободок отсутствует. На реверсе все стёрто.
9. 665. (Т 1-2). Такая же, как № 62. На основе некоторых элементов можно датировать XI веком. На поверхности имеются следы посеребрения.
10. 552. Такая же. Все стёрто.
11. 610. Такая же. Все стёрто.
12. 380. Такая же. Все стёрто.
13. 380. Такая же. Все стёрто.
14. 186. Такая же. Чекан Шамкира. 711 г.х.
15. 127. (Т 1-3). Вассал Атабеков-Манклы. В= ок. 2 гр. Д=5-6 мм. Медь. На основе остатков некоторых элементов и аналогиях, мы предполагаем, что данный денежный номинал относится к нач. XIII в. Вассалом Атабеков-Манклы.
16. (Т 2-4). Предположительно раннемонгольский период. В=2,5 гр. Д=12-13 мм. Баку. Медь. На аверсе сохранилось в небольшом круге имя правителя Абага-хан. Ободок стерт. На реверсе место чеканки – Бакуйя.
17. Такая же. Все стёрто.
18. 641. Такая же, как № 62. На основе изображений можно датировать концом XIV в.
19. 244. (Т 3-4). Хулагуиды (?). В= около 5,2 гр.; Д=13-14 мм. Тебриз. 709 г.х. Медь. На аверсе имя правителя в стёртом состоянии. Предположительно монета относится к ранним Хулагуидам. Определяется место и дата чеканки – Тебриз, 709. На реверсе определяются некоторые элементы обрамления. Ободок стёрт.
20. 168 (Т 2-4). Хулагуиды. В= ок. 6 гр; Д=16-18 мм. Султание (?) 31. Медь. На аверсе имя правителя без титулатуры «Хулаку». Ободок линейный. На реверсе определяется название города «Султания» и

год чеканки (?) 31. Ободок как на аверсе.

21. 511. 285. 186. Такая же. Абу Бекр. Дирхем. Такая же. Чекан Шамкир. 711 г.х.
22. 632. Такая же. Все стёрто.
23. 502. Такая же. Все стёрто.
24. 610. Такая же. Все стёрто.
25. Такая же. Все стёрто. Фулус.
26. 348. (Т 4-4). Хулагуиды. В=4,3 гр. Д=8-12 мм. Тебриз. 711 г.х. Двойной дирхем (2 единицы).
    На аверсе имеется имя Олджайту-султан, остальная часть легенды не определяется. На реверсе место и дата чеканки – Тебриз, 711. Ободок стерт.
27. 350. (Т. 5-1). Хулагуиды. В=4,4 гр. Д=10-12 мм.Тебриз. 714 г.х. Медь. На аверсе в центре поля [redacted] Саид Бахадур. Мусульманская калима чита[redacted] стёрт. На реверсе надписи в стёртом состоянии. [redacted]тся место и дата чеканки Тебриз, 714 г.х.
28. 154. (Т 2-3). Хулагуиды. В= около 5 гр; Д=19-3-17 mm. Тебриз. 714 г.х. Медь.
    На аверсе определяется имя правителя - Абу Саид Бахадур. С краю-место и дата чеканки - Тебриз, 714 г.х. 25. 21. Такая же. Все стерто.
29. 110. (Т 1-2). Хулагуиды. В= около 5 гр; Д=12-16 mm. Дербенд (??) 1 г.х. Медь с небольшой примесью серебра. На аверсе в центральном картуше читается имя правителя Абу Саид Бахадур. Ободок в стёртом виде. На реверсе на углу место чеканки – Дербенд. Ободок стёрт.
30. 181. (Т 3-1). Хулагуиды. В= около 5 гр; Д=19-3-15мм. Барда (?). Медь. На лицевой стороне определяется имя правителя Абу Саид Бахадур. На лицевой стороне в картуше, состоящий из сплетения линий, имеется имя правителя - Абу Саид Бахадур. Тут же, справа, место и дата чеканки в неполном состоянии: Тебриз, 7 (??).Ободок стерт. На реверсе место чеканки «Барда» определяется с некоторыми искажениями в буквах. Дата чеканки и ободок в стертом состоянии.
31. 229. (Т 2-1). Хулагуиды. В=4,2 гр; Д=10-18 mm (?) 16 г.х. Предположительно, в составе металла небольшое количество золота. На аверсе определяется имя правителя - Абу Саид Бахадур. Остальное стёрто. Ободок отсутствует.
32. 802. (Т 2-1). Хулагуиды. В=2,0 гр. Д=10-14 мм. Шахристани-Рашид. 716 г.х. Медь.
    На аверсе в центре сплетения линий, образующих геометрическую

фигуру, имеется имя правителя - Олджайту-султан. Ободок стёрт. На реверсе место и дата чеканки Шахристани-Рашид, 716.

33. 438. (Т 5-2). Хулагуиды. В=4,8 гр. Д=12-13 мм. Тебриз. 7 (??). Медь. На аверсе имеется имя правителя - Султан Абу Саид. Некоторые части легенды в стёртом состоянии. На обратной стороне все в стёртом состоянии. Определяется место и дата чеканки – Тебриз, 7 (?). Ободок стёрт.
34. 428. (Т 3-2). Хулагуиды. В=5,0 гр. Д=12-13 мм. Нахчыван. Медь. На аверсе имя правителя Абу Саид. Имеется дата чеканки в небольшом состоянии: (?) 97. На реверсе определяется только место чеканки – Нахчыван
35. 497 (Т 3-3). Хулагуиды. В=5,01 гр. Д=12-13 мм. Тебриз. (?) 7. Медь. На аверсе место и дата чеканки в небольшом оформлении – Тебриз (?) 7. Имя правителя – Сулейман. На реверсе все надписи в стёртом состоянии.
36. 711. Хулагуиды. Абу Саид Саве. (?). 13 г.х. Медь. На аверсе имя правителя Абу Саид определяется с трудностью. Ободок стёрт. На реверсе место и дата чеканки Саве (?) 13 г.х.
37. 186. В=5,1 гр. Д=13-15 мм. Дербенд (?) 4 г.х. Медь. На аверсе имя правителя в картуше точно не определяется. Ободок стёрт. На реверсе место и дата чеканки в неполном состоянии – Дербенд (??) 4 Ободок стёрт.
38. 750 Хулагуиды. В=4,9 гр. Д=10-12 мм. (?) 41. На аверсе имя правителя Абу Саид Бахадур читается в небольшом центральном картуше. Ободок стёрт. На реверсе все в стёртом состоянии.
39. 81 (Т 2-3). Хулагуиды. В=2,5 гр. Д=13-15 мм. Тебриз 720 г.х. Медь. На аверсе имя правителя в центральном прямоугольном картуше – Абу Саид Бахадур хан. Ободок стёрт. На реверсе дата и место чеканки – Тебриз. 720.
40. 443 (Т 5-3). Хулагуиды. В= около 5 гр. Д=10-12 мм. Шахристани-Рашид. 716 г.х. Двойной дирхем. (Предположительно, в составе металла имеется золото). На аверсе в небольшом картуше имеется имя правителя Олджайту-султан. С обеих сторон имеется место и дата чеканки – Шахристани-Рашид. 716. На реверсе все надписи стерты. Ободок отсутствует.
41. 4. (Т 2-2). Хулагуиды. В=2,1 гр. Д=0,9-10 мм. Тебриз. 7 (??). Медь. На аверсе в центральном картуше образующем линиями поля имя правителя Олджайту-султан. Ободок стерт. На реверсе в поле место и дата чеканки Тебриз. 7 (??). Ободок стерт.

42. 510 (Т 3-4). Хулагуиды. В= ок. 4 гр. Д=8-9 мм. Шамкир. (?) 09. Медь. На аверсе имеется имя правителя Олджайту-султан. Все остальные надписи в стёртом состоянии. По краям имени правителя имеются шиитские символы, состоящие из имен мусульманских святых. Ободок стёрт. На реверсе все надписи стёрты.
43. 237. Хулагуиды. В=4,9 гр. Д=11-13 мм. Тебриз. 721 г.х. Медь с небольшой примесью серебра. На лицевой стороне имя правителя в небольшом картуше. По краям место и дата чеканки – Тебриз, 721 г. На реверсе все надписи в стёртом состоянии. Ободок стёрт.
44. 219. (Т 3-2). Хулагуиды. В=4,3 гр. Д=10-11 мм. (??) 9 г. Медь с примесью серебра. Дирхем. На аверсе поле линейных соединений, где имеется имя правителя - Олджайту-султан и калима. Из даты чеканки сохранилась цифра 9. На реверсе все стёрто.
45. 293 (Т 4-3). Джалаириды. В=2,1 гр. Д=7-9 мм. Тебриз. Медь. На аверсе имеется титул правителя «султан». По оформлению предположительно эта монета относится к последнему правителю Гиясаддину Ахмеду. Ободок стёрт.На реверсе всё стёрто.
46. 713. 5-копеечный номинал Российской империи. Сохранность отличная. Имеется монограмма.
47. 713 а. 2-копеечный номинал Российской империи. 1823 г.
48. 106. 5-копеечный номинал Российской империи. 1823 г.
49. 128. (2 экз.) 3-копеечный номинал Российской империи. 1851, 1873 годы. Имеется множество монет, не поддающихся определению. Причины такого состояния зависят от высокой степени стёртости или же от характера заготовки, а также от формы монеты, что ещё раз доказывает существование и интенсивное функционирование собственного монетного двора в Шамкире, особенно в период Атабеков-Ильдегизидов.

## ЛИТЕРАТУРА


1. Dostiyev T.M. 2006-2007-ci illərdə Şəmkir şəhər yerində aparılmış arxeoloji tədqiqatlar. "Şəmkir. Arxeoloji irsi, tarixi və memarlığı". Birinci Respublika elmi-praktik konfransın materialları. Bakı, 2008.
2. Гусейнов Р.А. Из истории денежного обращения в Передней Азии в XI – XII вв. – «Нумизматика и Эпиграфика», т. IX. Москва. 1971.
3. Марков А.К. Каталог Джалаиридских монет. СПб, 1897.
4. Пахомов Е.А. Бардинский клад 1940 года. – Известия Аз. ФАН ССР, 1943, № 8.
5. Пахомов Е.А. Монеты из раскопок городища Орен-кала. – Труды Азербайджанской (Оренкалинской) археологической экспедиции. Т. 1. – 1953-1955 гг. Москва–Ленинград, 1959.

6. Пиркулиева Г.А. О медных монетах, найденные из раскопок Шамкира 2007 года. – Материалы I Республиканской научно-практической конференции, посвящённой археологическому наследию, истории и архитектуре Шамкира. Баку, 2008.
7. Пиркулиева Г.А. Медные монеты Азербайджана. Баку, 2007.
8. Сейфеддини М.А. Нумизматика Азербайджана, т.2. Баку, 1999.

## ŞƏMKİR ŞƏHƏR YERİNDƏN TAPILMIŞ SİKKƏLƏR KATALOQUNA DAİR (2007-2008-ci illər)

*Qənirə Pirquliyeva*

### *X ü l a s ə*

Məqalədə 2007-2008-ci illərdə Azərbaycanın orta əsrlərə aid olan şəhərləri sırasında özünəmaxsusluqları ilə seçilən Şəmkir şəhər yerindən arxeoloji qazıntılar zamanı aşkar edilmiş sikkə nümunələrinin elmi araşdırması təqdim olunur. Numizmatik materiallar erkən ərəb dövrü, Şirvanşahlar dövləti, Atabəylər və bir neçə ədəd Rusiya imperiyasında XVIII – XIX əsrin əvvəllərində dövriyyədə olan "kopeyka" adlı nominallardan ibarətdir.

Nəticədə müəllif Şəmkirin şəhər kimi fəaliyyət göstərməsinin VIII – XIV əsrin I yarısını əhatə etməsini göstərir. Sonrakı dövrlərə aid olan sikkə nümunələrinin təsadüfi xarakter daşıyaraq, ticarət yollarının fəaliyyəti və müəyyən siyasi hadisələrlə bağlı olması sübuta yetirilir.

## MATERIALS FOR THE CATALOGUE OF COINS FOUND IN THE CITY SITE OF SHAMKIR (2007-2008 years)

*Qanira Pirkulieva*

### *Summary*

The article deals with the scientific research of coins found in the result of archeological expeditions in the city site of Shamkir, differing from other middle age cities of Azerbaijan with its specific peculiarities. Numismatic materials consist of nominals named "kopeyka" being in the recurrence at the beginning of the XVIII-XIX centuries in the states of Shirvanshahlar, Atabeyler and The Russian Empire.

In the result the author shows that Shamkir had been acted like a city in the VIII and in the first half of XIV centuries. The article proofs that the coins having casual character and belonging to the next ages have been closely connected with development of trade and some political events.

Таблица



1



4



82



186



428



497

# ŞƏMKİR KİTABƏLƏRİ

*Məşədixanım Nemət*
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)

Şəmkir şəhəri Şəmkirçayın sol sahilində, dəmir yolunun ikiyüz metrliyində, qədim karvan-ticarət yolunun üzərində yerləşmiş, Azərbaycan və Cənubi Qafqazın iqtisadi-siyasi inkişafında mühüm rol oynamışdır (14, 20).

IX – XIII əsrin ərəb səyyahları əl-Bəlazuri, İbn əl-Fakih, əl-İstəxri, əl-Müqəddəsi və Yaqut əl-Həməvinin verdiyi məlumatlara görə Şəmkir çiçəklənmiş, inkişaf etmiş şəhər olmuşdur. Şəhər ərəb işğalı zamanı, VII əsrdə dağıdılmış (4,9), IX əsrin ortalarında bərpa olunmuşdur (5, 293; 6, 187; 7, 374). Həmdullah Qəzvinin sözlərinə görə XIV əsrdə şəhər yenidən dağıdılmışdır (8, 181).

Şəmkir şəhəri haqqında bəzi məlumatlara Münəccim Başının "Came əd-Dövəl" əsərində də rast gəlmək olur. O hicri 441 (=1049/ 50)- ci il hadisələrindən bəhs edərkən şəhər qala qapıları, yəni qala hasarı haqqında yazmışdır (13, 33- 34).

1970-ci ildə biz şəhər yerində gəzərkən yer üzərində tökülmüş al-əlvan şirli saxsı qab parçaları diqqətimizi cəlb etmişdi (2;3).

Şəmkirdə 1970-ci ildə şəhər yerindən qaz kəməri çəkilərkən Şəmkir qülləsinin (şək.1) ərəb dilində kufi xəttilə daşa (1,02x0,38m) yazılmış kitabəsi (şək. 2) tapılmışdır (2,148; 3).

Kitabədə hərbi müdafiə tikintilərindən olan gözətçi qülləsinin XI əsrdə Şeyx M-N-?-L-u bin (oğlu) Afşin ( və ya Aqşin) tərəfindən öz hesabına tikdirməsi haqqında söhbət gedir: "Allahın adıyla bu gözətçi bürcünün, yüksək Allahın qüdrətilə bina olunmasına və onun istəyi və onun mühafizəsi və tam himayəsi altında, mömin Şeyx M... L-u bin Əfşin (ya Əqşin-M.N.) öz malı ilə (öz hesabına-M.N.) mühafizə binaları silsiləsindən dörd yüz doxsan üçüncü ildə əmr etmişdir". Hicri 493-cü il 1099/1100-cü miladi ilinə uyğundur (1,38, şək. 6,6A; 14,20, şək.29,31; 15,6,şək.2A, 2B).

Şək. 1.



Memarlar abidəni minarə kimi qəbul edib, tikintisini XII-XIII əsrlərə aid etmişlər (16,75). Memarların abidənin istər təyinatına, istərsə də inşa olunma tarixinə dair fikirləri səhvdir. Qüllənin yuxarısında balkon vardır. Qüllənin balkondan 6 sajen yuxarı ucaldılması və fənər ilə tamamlanması, eləcə də qüllənin aşağısında da ətrafa nəzarət üçün pəncərə açırımlarının olması onun gözətçi qülləsi olduğuna dəlalət edir. Qüllənin XIX əsrdə Q.Qaqarin və Monpere tərəfindən çəkilmiş rəsmlərində qüllə üzərindəki kitabə 1970-ci ildə şəhər yerindən tapılmış kitabəyə oxşardır və kitabədə yuxarıda qeyd olunduğu kimi qüllənin tikilmə tarixi XI əsrə aiddir.



Şək. 2.

Tarixi mənbələrdə Şəmkirdə şəhər salınması haqqında konkret məlumat yoxdur. Bu baxımdan orta əsr Şəmkir şəhəri yerində arxeoloji qazınlar aparmaqla bir çox qaranlıq məsələlərə aydınlıq gətirmək mümkündür. Lakin Şəmkir şəhəri yerində uzun illər arxeoloji qazıntılar da aparılmamışdır.

Şəmkir şəhər yerində 2006-cı ildən arxeoloji qazıntı işlərinə başlayan tarix elmləri doktoru Tarix Dostiyev tərəfindən burada orta əsrlərdə qaynar şəhər həyatını əks etdirən zəngin maddi mədəniyyət qalıqları, o cümlədən maraqlı kitabələr tapılmışdır. Kitabələrdən biri Şəmkir şəhər yerinin şəhristan hissəsinin şimal-şərq sektorundan, VI qazıntı sahəsindən tapılmışdır. Vaxtı ilə üzlük hörgüdə olmuş bişmiş kərpic üzərinə gəc suvaq çəkilmiş, gəc üzərində kufi xəttilə "الحكم لله ... Hakimiyyət Allaha məxsusdur..." sözləri yazılmışdır (şək.3). Belə kitabələr Bakıda, İçərişəhərdə məscidlər üzərində yazılmışdır. Qız qalası yaxınlığında arxeoloq Fərhad İbrahimov tərəfindən aşkar edilmiş məscidin mehrabında və Aşur məscidinin (h.567= 1171/72 il) giriş qapısı üzərində الحكم لله "Hakimiyyət Allaha məxsusdur" sözləri yazılmışdır. Buna əsasən arxeoloq Tarix Dostiyevin XI-XII əsrlərə aid mədəni təbəqədən aşkar etdiyi həmin kitabənin məscidə aid olduğunu qəbul etmək olar.

Oxşar kitabə Şəmkir rayonun Orta əsr Muncuqlutəpə abidəsindən də məlumdur. 1987- ci ildə Əsgər Əliyev tərəfindən Şəmkir rayonunda Yenikənd HES-nın inşası ilə əlaqədar Kür çayı sahilində Muncuqlutəpə yaşayış yerində apardığı arxeoloji qazıntıdan daş sütun başlığında ərəb dilində kufi xəttilə cızma üsulu ilə yazılmış kitabə



Şək. 3.

aşkar edilmişdir. Həmin kitabə də الحاكم الله "Hakimiyyət Allaha məxsusdur" sözləri ilə başlayır. Kitabənin tam məzmunu aşağıdakı kimidir: "Hakimiyyət allaha məxsusdur (dörd yüz qırx ikinci il (1050/1051) İmamallah bin Məhəmməd əl-Müdəbbirin işidir. Allah ona rəhm etsin" (1,37). Kitabəli abidə hazırda AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun muzeyində mühafizə olunur.

Tarix Dostiyevin orta əsr Şəmkir şəhər yerində qazıntılar zamanı V qazıntı sahəsindən aşkar etdiyi iki qabın oturacağında da kitabələr var (17, s. 166).

Bir qabın oturacağında qara rəngli mürəkkəblə 14 məsuməyə -Məhəmməd peyğəmbərə, Həzrəti Fatiməyə və 12 imama-Allahın Salamı olan mətindən





Şək. 4-5.

- صل الله محمد "Məhəmməd peyğəmbərə (ə.s.) Allahın salamı olsun" sözləri yazılmışdır (şək.4). Bu mətn Azərbaycanda bir çox abidələr üzərində tam yazılmışdır. (1,69-71, 79 və s). Digər qabın üzərində محر الله sözləri yazılmışdır (şək.5). Ərəb, fars lüğətində محر الله sözü yoxdur. حر الله—Allah azadlıq verəndir-sözləri var.

Daha sonra bir neçə kufi xətli kitabə parçaları aşkar edilmişdir (şək.6-8.). Onlardan ikisi ağ gəc lövhə üzərində həkk edilmiş kitabəyə məxsus, biri bişmiş kərpic, digəri kaşı üzərindəki kitabənin fraqmentləridir. Bu parçalarda ancaq ayrı-ayrı hərflər oxunur. Yazı tam deyil. Bu səbəbdən məzmunu aydın deyildir.







Şək. 6-8.

## ƏDƏBIYYAT:


1. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана (арабо-персо-тюркоязычные надписи Баку и Апшерона XI - начала XX вв.). т.I. Баку, 1991.
2. Нейматова М.С. , Ахмедов Г.М. Новые данные о городе Шамкур. // АО 1970 года. Москва, 1971.
3. Нейматова М.С., Ахмедов Г.М. Шамкур неожиданно заговорил. // Бакинский рабочий, 1971, 19 февраль.
4. كتاب فتوح البلدان تاليف الامام ابى العباى احمد ابن يحيى بن جا برالبلا ذ ورى باكو ١٩٢٧
5. Ibn al-Fakih al-Hamadani Compendium Libri Kitab al-Boldan –Bibliotheca Geographorum arabicorum, V. Lugduni Batavorum, 1967.
6. من كتاب مالک الممالک لابى اسحق ابراهيم بن محمد الفارسى الاسطخرى
7. Al-Moqaddasi. Descriptio imperii moslemici, Bibliotheca Geographorum arabicorum, III. Lugduni Batavorum, 1967.
8. Hamd-Allah Qazvini Nuzhat al- Qulwb composed by Hamd-Allah Mustawfi of Qazwin, edited by G.Lt Strange –EJ.W.Gibb Memorial series, Leiden, 1915, Vol. XXIII
9. Бретаницкий Л.С. Зодчество Азербайджана XII-XV вв. и его место в архитектуре Переднего Востока. Москва, 1966.
10. Dubas de Montpereux Voyage autour da Caucase, Paris 1839-1843, t. IV
11. Суханов А. Проскнитарий Арсения Суханова 1649-1653 гг. СПб., 1889.
12. Обозрение российских владений за Кавказом. СПб., 1836, ч.II.
13. Minorsky V. Studies in Caucasian history London, 1953 ( Combridge Oriental Series. :V 6). Арабск. текст, &, русск. перевод. AMEA Tarix İnstitutunun arxivi, inv №3310.
14. Məşədixanım Nemətova, Əsrlərin daş yaddaşı, Bakı, 1987.
15. Неймат М.С. Эпиграфические памятники Азербайджана эпохи Низами. Баку, 1991.
16. Усейнов М., Бретаницкий Л., Саламзаде А. История архитектуры Азербайджана. Москва, 1963.
17. Dostiyev T.M. Şəmkir arxeoloji ekspedisiyası (2006-2008). Bakı, 2009.

# INSCRIPTIONS OF SHAMKIR

***Mashadi Neymat***

***Summary***

The author devoted this article to the inscriptions found in different years from medieval Shamkir. One of those inscriptions was found as early as in 1970. This inscription is in Arabic written in Kufic script. It informs us about the construction of defensive building in 493 years of Hegira (1099-1100) by sheikh ...Afshin. The other Kufic inscription, discovered in VI excavation says that" the power belongs to Allah".

Inscriptions in Arabic found at the bottom of glazed ceramic bowls are written by black ink. One of them found at the bottom of bowls says: "Allah greets the prophet Muhammad". There are also fragments of tiles and bricks where had been preserved only separate letters.

# Надписи Шамкира

***Мешади Неймат***

***Резюме***

В данной статье рассматриваются обнаруженные в разные годы надписи из средневекового городища Шамкир. Одна из них, обнаруженная ёще в 1970 г., на арабском языке почерком куфи, сообщает о возведении оборонительного сооружения в 493 г.х. (1099-1100 г.) шейхом Афшином. Другая куфическая надпись, обнаруженная на раскопе VI, гласит: «... власть принадлежит Аллаху». Надписи на арабском языке имеются также на днищах глазурованных керамических чаш, выполненные чёрными чернилами. На днище одной чаши написано: «Да приветствует Аллах пророка Мухаммеда». Имеются также фрагменты кирпичей и изразцов, на которых сохранились только отдельные буквы.

# MARAQLI TAPINTILAR
# INTERESTING EXPLORATIONS
# ИНТЕРЕСНЫЕ НАХОДКИ

## ORTA ƏSR ŞƏMKİR ŞƏHƏR YERİNDƏN TAPILMIŞ BƏZİ KƏRPİC NÜMUNƏLƏRİ HAQQINDA

***Xaqani Həbibov***
*(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)*

Orta əsrlərdə Azərbaycanda əzəmətli istehkamları, monumental tikililəri, mükəmməl su təchizatı və kanalizasiya sistemi, inkişaf etmiş sənət istehsalı olan çoxlu abad şəhərlər olmuşdur. Belə şəhərlərdən biri də Şəmkir idi. Hazırda Şəmkir rayonunun Muxtariyyə kəndinin şimalında, Şəmkirçayın sol sahilində yerləşən şəhər xarabalıqları orta əsrlərdə burada qaynar şəhər həyatının mövcudluğunu təsdiqləyən çoxlu sirləri özündə saxlayır (2,s.5). Belə ki, tarix elmləri doktoru T.M.Dostiyevin rəhbərliyi ilə aparılan arxeoloji qazıntı işləri nəticəsində ərazidən külli miqdarda maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Onların arasında inşaat keramikası, xüsusilə bişmiş kərpic nümunələri özünəməxsus yer tutur.

Böyük konstruktiv-texniki, iqtisadi, eləcə də dekorativ imkanları olan bişmiş kərpic Azərbaycanın çox yerində başlıca tikinti materialı olmuşdur. Bişmiş kərpic xoş rənginə, gözəl fakturasına, biçim rəngarəngliyinə, atmosfer təsirlərinə dözümünə görə yaxşı üzlük materialı olaraq işlədilmiş, sənətkara zəngin bəzək çeşidləri yaratmağa imkan vermişdir (5,s.184).

Şəmkir şəhər yerində aparılmış arxeoloji qazıntı işləri abidənin şəhristan hissəsində VIII əsrdən XIII əsrədək şəhər həyatının mövcudluğunu təsdiqləmiş, XI-XII əsrlərdə şəhərin çiçəklənmə çağını keçirdiyini müəyyənləşdirməyə əsas yaratmışdır (2,s.6). Bu dövrdə Azərbaycan memarlığı artıq özünə xas olan bir görkəm almışdı. Qədim dövrlərdən gələn inşaat ənənələri islam dövrünə köklənmiş yeni yaradıcılıq ənənələri ilə birləşərək yerli memarlıq məktəbinin yaranmasına imkan yaratdı (3,s.29). Şəmkir şəhər yerindəki tikililər Arran memarlıq məktəbinin ən gözəl nümunələrindən biridir.

Şəmkir şəhər yerində IX-XIII əsrə aid tikililər əsasən 20x20x5sm, 21x21 x5sm, 22x22x5sm, 23x23x5sm, 23,5x23,5x5sm, 23,5x23,5x5,5sm ölçüdə bişmiş kərpiclərdən və çaydaşından əhəngli və ya kirəcli məhlulla inşa olunmuşdur. Diqqəti çəkən IX-X əsrlər təbəqəsində 45x45x6sm, 45x45x7sm ölçüdə iri bişmiş kərpiclərə rast gəlinməsidir (1,s.31). Qala divarları daha möhkəm tikilmişdir.



Şək. 1.



Şək. 2.



Şək 3.



Şək. 4



Şək. 5.

Buradan aşkar edilmiş bəzi kərpic nümunələri xüsusilə maraqlıdır. Belə ki, bu kərpiclərin bəzilərinin üzərində insan əlinin surəti əks olunmuşdur. Şəmkir şəhər yerinin III qazıntı sahəsindən aşkar edilmiş belə kərpiclər əsasən kvadrat formalı və qırmızı-cəhrayı rəngli olub, keyfiyyətli bişirilmiş, alt üzü qeyri-hamar olduğu halda üst üzü səliqəli və hamardır. Yaş ikən usta və ya kimsə əlini qoyaraq basmış və nəticədə kərpicin üzərində insan əlinin əksi yaranmışdır.

Kərpiclərdən birinin üzərindəki insan əlinin pəncəsi və barmaqlarının əksi tam qalmışdır. Kərpicin ölçüləri 23x23x5sm. Kvadrat formalı olan bu kərpic nümunəsinin vəziyyəti digər kərpiclərdən fərqli olaraq daha yaxşıdır. Əl surətinin ölçüləri 19x17x1,8sm. Baş barmağın uzunluğu 5sm, şəhadət barmağının uzunluğu isə 7 sm. Baş və şəhadət barmaqları arasındakı məsafə 6sm-ə bərabərdir. Üçüncü barmağın uzunluğu 8sm, şəhadət barmağı ilə arasındakı məsafə 2sm-ə bərabərdir. Dördüncü barmağın uzunluğu 8sm və üçüncü barmaqla arasındakı məsafə 1,5sm. Çeçələ barmağın uzunluğu 7sm və dördüncü barmaqla arasındakı məsafə 1,5sm. Kərpicin alt səthi nahamar olduğu halda, üst hissəsi səliqəli və hamardır (şək. 1).

Digər nümunə fraqmentlə təmsil olunub. Fraqmentdə dörd barmaq tam, beşinci barmaq və pəncə qismən qalmışdır (şək. 2). Salamat qalmış ölçüləri 19x14,6x5sm. Fraqmentdəki əlin uzunluğu 17sm. Baş barmağın uzunluğu 6sm, dərinliyi 1,6sm. Şəhadət barmağının uzunluğu 10sm, dərinliyi 1,2, baş barmaqla arasındakı məsafə 6sm. Üçüncü barmağın uzunluğu 8 sm, dərinliyi 1,3sm, şəhadət barmağı ilə arasındakı məsafə 2,4sm. Dördüncü barmağın uzunluğu 7,4sm, üçüncü barmaqla arasındakı məsafə 2,6sm. Kərpic sındığından beşinci barmaq və pəncənin əksi tam qalmamışdır.

Başqa bir kvadrat formalı bişmiş kərpic fraqmentində üç barmaq tam, dördüncü barmaq və pəncə qismən qalıb. Salamat qalmış ölçüləri 19x17x5sm. Barmaq izlərindən birinin dərinliyi 1,6sm, qalanları isə 1sm. Baş barmağın əksi olan hissə sınmışdır (şək. 3).

Bişmiş kərpic nümunələri üzərində belə təsvirlərin olması xalq dekorativ-tətbiqi və bədii sənət nümunələrində ənənələrin böyük rol oynadığını bir daha sübut edir (7,s.5). Belə ki, qədim dövrlərdə Azərbaycan dekorativ-tətbiqi sənətində mövcud olmuş insan əlinin əksi geniş yayılmışdı. Bu ilk əvvəl əməyin rəmzi olsa da, islam dövründə iki məna daşımağa başlayır. Bunlardan biri müqəddəs müharibə zamanı Fərat çayı vadisində həlak olmuş həzrəti Abbasın əlinə işarədir. Digər mənada isə bu şiəliyin simvolu olan insan əlinin beş barmağını tərənnüm edir. Burada beş müqəddəsə-Məhəmməd peyğəmbərə, həzrəti-Fatimə, həzrəti-Əli, həzrəti-Həsən, həzrəti-Hüseynə işarə edilir. Təsadüfi deyil ki, dini bayraqlarda, şiələrə məxsus qəbirüstü abidələrdə və müxtəlif dualarda biz insan əlinin təsvirinə rast gəlirik (6,s.92).

Ümumiyyətlə, şiəliyin rəmzinə çevrilən insan əlinin əksi olan abidələr Azərbaycanda çoxlu saydadır. Xüsusilə, Lahıcdakı qəbirüstü abidələr bu mə-

sələyə münasibətdə xüsusi maraq kəsb edir. Burada dəfn edilən insanın adı ilə yanaşı müxtəlif əmək alətlərinin təsviri (dəmirçi zindanı, gürz, qayçı, maşa və s.) və insan əlinin təsviri yer almışdır (6,s.92). Nəzərə alsaq ki, insan əlinin təsviri həm də islamın beş əsas təməl sütununa (Namaz, Oruc, Zəkat, Kəlime-yi-şəhadət, Həcc ziyarəti.) işarədir, orta əsr Şəmkir şəhər yerindən tapılmış insan əlinin təsvirlərini də zənnimizcə, islam dininin memarlığa təsirinin bir nümunəsi kimi hesab etmək olar.

Şəmkir şəhər yerindən aşkar edilmiş kərpiclərin bəzilərinin üzərində it, pişik və ya küçüyün ləpirinin izi qalmışdır. Fraqmentlərdən birinin üzərindəki ləpir izi isə başqalarından fərqli olaraq nisbətən böyük ölçülüdür. Fraqmentdəki ləpir əksinin uzunluğu və eni 4,8sm, dərinliyi 1sm. Kərpicin bir hissəsi sınmışdır. Güman ki, bu cür fraqmentlərin üzərindəki ləpir əksləri təsadüfi düşmüşdür. Çünki, bu təsvirlər sistemli şəkildə əks olunmamışdır.

Bəzəkli bişmiş kərpic fraqmentinin üzərində ərəb əlifbasının kufi xətti ilə yazı vardır. Ola bilsin ki, bu kərpic fraqmenti hansısa bir kitabənin bir hissəsidir. Lakin digər kərpiclər tapılmadığından kitabədə nəyin yazıldığını aydınlaşdırmaq olmur, yalnız ayrı-ayrı hərfləri müəyyənləşdirmək olur. Fraqmentin üzərində "lam" və "əlif" hərfləri oxunsa da, digər hərfləri aydınlaşdırmaq çətindir. Bu bişmiş kərpic nümunəsinin salamat qalmış ölçüləri 17,5x16x7sm. Hərflərin dərinliyi 1,8sm. Hərflər qazma üsulu ilə yazılmışdır. Fraqmentin üzərindəki lam hərfinin hündürlüyü 12sm, eni 1sm. Əlif hərfinin hündürlüyü 7sm, eni 1sm. Fraqmentdəki hərflərin səliqəli formada qazılması çox güman ki, kitabədə hər hansı bir Quran ayəsinin və ya dini səciyyə daşıyan mətnin yazılmasını ehtimal etməyə əsas verir. Təəssüf ki, kərpic sındığından və digər kərpiclər tapılmadığından biz kitabədə nəyin yazıldığını oxuya bilmirik (şək. 4).

Başqa bir bişmiş kərpic fraqmentinin üzərində bir tərəfdə ox işarəsi, digər tərəfdə isə tam olmayan düz xətt işarəsi qismən qalmışdır. Salamat qalmış ölçüləri 18x16x4.8sm. Fraqmentin üzərində ox işarəsi qazılmışdır. Ox diaqonal şəkildə kərpicin küncünə istiqamətlənmişdir (şək. 5). Fraqmentdəki digər bir işarənin yalnız düz xətti qalmışdır. Kərpic qırıldığından biz onun hansı formada olduğunu deyə bilmərik. İşarə qazma üsulu ilə salınmışdır. Zənnimizcə, bu işarə inşaatla bağlı olan xüsusi bir işarədir. Şəmkirdən aşkar olunmuş bu tipli kərpic nümunələrini əsasən, XI-XIII əsrlərə aid etmək olar. Bu dövr ərzində çiçəklənmə çağını keçirmiş Şəmkir şəhərinin inkişaf ahəngi monqol istilası ilə pozulmuşdur.

Beləliklə, aşkar olunmuş bəzi kərpic nümunələrinə əsasən demək olar ki, Şəmkirdə inşaat keramikası istehsalı inkişaf etmiş və özünəməxsusluğu ilə seçilmişdir. Belə ki, Şəmkirdən tapılmış üzərində insan əlinin əksi olan kərpic nümunələrinə Azərbaycanın digər şəhərlərində hələ ki, rast gəlinməmişdir. Əldə olunmuş bu kimi materiallar orta əsr inşaat sənətini, Azərbaycanın şəhər mədəniyyətini öyrənmək baxımından olduqca qiymətlidir.

## ƏDƏBIYYAT:


1. Dostiyev T.M. 2006-2007-ci illərdə Şəmkir şəhər yerində aparılmış arxeoloji tədqiqatlar. /Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı. Birinci Respublika elmi-praktik konfransının materialları. Bakı, 2008.
2. Dostiyev T.M. Şəmkir arxeoloji ekspedisiyası 2007. Bakı, 2007.
3. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, 2007
4. Əhmədov Q. Orta əsr Beyləqan şəhəri . Bakı, 1979.
5. Qiyasi C. Nizami dövrü Azərbaycan memarlığı. Bakı, 1991
6. Эфенди Р. Эмблематика и символика в декоративно-прикладном искусстве Азербайджана. // Известия Академии наук Азербайджанской ССР, серия литературы, языка и искусства,1967, №2.
7. Ремпель Л. И. Цепь времен: вековые образы и бродячие сюжеты в традиционном искусстве Средней Азии. Ташкент, 1987.


## SOME SAMPLES OF BRICKS FROM THE MEDIEVAL SHAMKIR

***Khagani Habibov***

***Summary***

This article is about baked bricks that have prints of humans hands, prints of animals' clutchs, the signs of builder and the inscription. The bricks with the prints of human hands are of a great interest. One of them is being preserved as a whole three of samples are presented only by fragments. The inscription where have been gaved only seperate letters is in Arabic and its made by Kufic script.

## О НЕКОТОРЫХ ОБРАЗЦАХ КИРПИЧЕЙ СРЕДНЕВЕКОВОГО ШАМКИРА

***Хагани Габибов***

***Резюме***

Статья посвящена образцам обожжённых кирпичей, имеющие отпечатки человеческой руки, лапы животного, знак строителя и надпись. Особенно большой интерес вызывают кирпичи с отпечаткой человеческой руки. Одна из них целая, а три- экземпляра представлены фрагментами.

Надпись, сохранившаяся в виде отдельных букв, выполнена арабской графикой почерком куфи. К сожелению, сохранились отдельные буквы, что не позволяют определить сущность надписи.

# ORTA ƏSR ŞƏMKİR ŞƏHƏR YERİNDƏN TAPILMIŞ SÜMÜK MƏMULATI HAQQINDA

***Seymur Hüseynov***
*(AMEA Milli Azərbaycan Tarixi Muzeyi)*

Hələ ərəb istilası zamanı mövcud olan Şəmkir şəhərinin adına orta əsr yazılı mənbələrində rast gəlinir. IX əsr tarixçisi Əhməd əl-Bəlazuri Azərbaycanın ərəblər tərəfindən işğalından bəhs edərkən Salman ibn Rəbiə əl-Bahilinin qədim Şəmkir şəhərini fəth etməsini qeyd edir. Böyük İpək yolunun üzərində yerləşən Şəmkir şəhəri IX əsrin II yarısı-X əsrdə yüksəliş keçirərək mühüm sənətkarlıq və ticarət mərkəzinə çevrilmiş (1, s.31), IX-XII əsrlərdə inkişaf yolunu keçmişdir. Lakin monqolların hücumu zamanı, 1235-ci ildə şəhər amansızcasına dağıdılmış, sonra şəhər tənəzzülə uğramış, bir daha əvvəlki vəziyyətinə qayıda bilməmiş, son orta əsrlərdə isə burada yaşayış olmamışdır (1, s.31 ).

Şəmkir şəhərinin xarabalıqları hələ XIX əsrdə tədqiqatçıların diqqətini çəksə də, burada əsaslı arxeoloji tədqiqat işləri 2006-cı ildən sonra başlamışdır. 2006-2008-ci illərdə aparılan arxeoloji qazıntılar nəticəsində Şəmkir şəhəri xarabalıqlarından orta əsrlərə aid müxtəlif maddi-mədəniyyət qalıqları, o cümlədən, sümük məmulatı qalıqları aşkar olunmuşdur (1, s.31-32).

Hazırki məqalənin məqsədi arxeoloji qazıntılar zamanı üzə çıxarılmış sümük məmulatını təhlil etməkdən ibarətdir. Sümük məmulatını təyinatına görə əsasən məişət ləvazimatına və bəzək əşyalarına bölmək olar.

Arxeoloji qazıntılar zamanı Şəmkir şəhəri xarabalıqlarından ayrı-ayrı illərdə tapılan bizlərdən toxuculuqda və məişətdə istifadə olunmuşdur. Bunlardan biri buynuzdan hazırlanaraq uc hissəsi üçbucaq şəkillidir və uca doğru sivriləşir. Tutacaq tərəfində iti alətlə kəsmə izi qalmışdır. Digər ucu isə uzunmüddətli istifadə nəticəsində cilalanmış və sivriləşmişdir. Alətin uzunluğu 10sm, tutacaq hissədə diametri 1-1,5 sm, uc hissənin diametri isə 0,5 sm (şəkil1).

Digər dörd ədəd bizdən biri karandaşvari formada olub buynuzdan hazırlanmışdır. Alətin en kəsiyi dairəvidir, orta hissədə qalınlaşır, sonra isə tədricən uca doğru daralmış və ucu sivriləşmişdir. Həm sənətkarlıqda, həm də məişətdə istifadə olunması ehtimalı var. Bu əmək aləti o birilərindən nazikliyinə görə fərqlənir, çünki üzəri diqqətlə işlənmiş və hamardır. Lakin ucu sınıb. Bu səbəbdən alətin tam ölçülərini dəqiq deyə bilmirik. Salamat qalan hissənin uzunluğu 9,5 sm, en kəsiyin diametri 0,6 sm, ortadan diametri isə 0,8 sm (şəkil 2).

Başqa bir sümük alət VI qazıntı sahəsinin 3 d kvadratından, XII əsr inşaat qatından tapılmışdır. Nərə balığının burnu formasında olan bu sümük biz Şəmkirdən tapılmış digər bizlərdən fərqlənir. Bir tərəfi mişarlanmış, digər tərəfi uzunmüddətli istifadə nəticəsində cilalanmış formadadır. Tutacaq hissədə iti alətlə yonma və kəsmə izləri qalmışdır. Yonma və kəsmə izi alətin uc tərəfində

də vardır. Alətin uzunluğu 11,5 sm, uc hissənin diametri 0,5 sm, tutacaq hissənin uzunluğu 3 sm, ən geniş yeri isə 2 sm.

O biri sümük alət isə iki tərəfdən daralan xəncər tiyəsinə oxşayır. Alətin aşağı tərəfi iti ucludur, yuxarısı isə küt və düz xətt üzrə kəsilib. Yuxarı tərəfində mərkəzində nöqtə olan 3 ədəd çevrə salınıb. Sümük parıltıya qədər cilalanıb. Alətin uzunluğu 8,3 sm, eni 1-3,3 sm, naxışların arasındakı məsafələr 0,5 və 0,6 sm, qalınlığı isə 0,5 sm (şəkil 3).

Ox formasında hazırlanmış sümük əşya da, ehtimal ki, biz kimi istifadə olunmuşdur. Onun üzəri səliqə ilə hamarlanaraq cilalanmışdır (şəkil 8).

Şəmkir şəhər xarabalıqlarından toxuculuqda istifadə edilməsi ehtimal edilən sümük əşya da tapılıb. VI qazıntı sahəsindən aşkar olunmuş həmin sümük əşyanın ortasında yan-yana üç ədəd deşiyi vardır. Ətrafının sürüşkənliliyi onun işlək olduğunu sübut edir. Materialın üzərində olan deşiklərin forma və ölçüləri demək olar ki, eynidir. Əşyanın səthi hamar və cilalanmışdır. Uzunluğu 6,5sm, eni 1,5sm, qalınlığı 0,5sm, əşyanın üzərində olan hər bir deşiyin diametri isə 1sm.

Tapıntılar arasında dəstək fraqmentinə də rast gəlinib. Belə ki, içərisi boş, hər iki ucu mişarlanmış sümük əşya, görünür, yığma dəstəyin hissəsidir (şəkil 7).

Dördbucaq biçimli, mərkəzində dairəvi deşik açılmış sümük əşyanın təyinatı hələ müəyyənləşdirilməyib (şəkil 9).

Şəmkir şəhərinin Narınqala hissəsindən, IV qazıntı sahəsindən bəzək əşyası kimi istifadə olunan sümükdən iki ədəd düymə tapılmışdır. Birinci sümük düymə dairəvi formada olub çəhrayı rəngdədir və üzəri cilalanmışdır, ortasında deşik vardır, üstü qabarıqdır, alt tərəfi isə düz kəsilmişdir (şəkil 12).

Alt tərəfi həm də hər iki tərəfdən, yəni, deşiyin hər iki tərəfindən kəsilmişdir. Bu kəsmələrdən nəyisə yapışdırmaq, bağlamaq üçün istifadə olunması ehtimal olunur. Bəzək əşyasının yan tərəfinə üç qazma dairəvi paralel xətt salınmışdır. Bu əşyaya xüsusi bəzək vermək məqsədilə çəkilmişdir. Üstündə, həmin xətlərin arasında 7 ədəd pərgar naxışı, yəni, nöqtəli çevrə salınmışdır. Sümük düymənin diametri 1,5 sm, deşiyinin diametri 0,4 sm, hündürlüyü isə 0,7 sm. Bu tip düymələr başqa orta əsr Azərbaycan şəhərlərinin, o cümlədən, Gəncə (2, s.293), Beyləqan (3, s. 63), Qəbələ (4, s. 53), Şabran şəhərlərinin (5, s. 189), Təxti-Tavus (6, s. 52) abidəsinin qazıntılarından yaxşı məlumdur.

İkinci düymə də IV qazıntı sahəsini 8d kvadratdan, 2,50 m dərinlikdən tapılmışdır. Bu düymə də dairəvi formadadır, üzəri cilalanmışdır, ortasında deşik vardır. Onun alt tərəfi düz kəsilmiş, üst tərəfi isə qabarıqdır. Əşyanın alt tərəfində və üst tərəfində dairəvi cızma xətt salınmışdır. Bu iki xətt arasında 5 ədəd həndəsi naxış elementi salınmışdır. Əşyanın diametri 1,6 sm, deşiyin diametri 0,5 sm, hündürlüyü isə 1 sm (şəkil 11).

Bunlardan başqa, orta əsr Şəmkir şəhər yerində arxeoloji qazıntılar zamanı V qazıntı sahəsindən, qala divarları yaxınlığından qoyun və ya quzu aşıqlarının 29-u topa halında tapılmışdır. Onlardan bəzilərində sürtünmə izləri qalmışdır.

Bu tapıntılardan xalq arasında "aşıq-aşıq oyunu" adlanan oyunda istifadə edilmişdi. Sürtünmə izləri olan, ehtimal ki, "aşıq-aşıq oyunu"nda istifadə olunmuş aşıq IV qazıntı sahəsində, IX-X əsrlər təbəqəsindən də aşkarlanmışdır (şəkil 5).

Arxeoloji qazıntılar zamanı şəhərin şəhristan hissəsində, V və VI qazıntı sahələrində istehsal tullantılarının tapılması yerli sümükişləmə sənətinə dəlalət edir. Onlar, əsasən, buynuz sümüyündəndir, üzəri nahamardır, hər iki tərəfdən mişarlanmış xammaldır (şəkil 6). Bu da onların istehsal tullantısı olduğunu göstərir.

Yuxarıda bəhs etdiyimiz sümük istehsal tullantısına oxşar, mişarlanmış, lakin istehsala cəlb edilməmiş buynuz qalıqlarına Azərbaycanın digər orta şəhərlərinin arxeoloji qazıntılarında da rast gəlinmişdir.

Ümumiyyətlə, orta əsrlərdə Azərbaycanda sümükişləmə ayrıca bir sənət sahəsi kimi fəaliyyət göstərirdi. Sümükişləmə sənətində istehsal prosesi ayrı-ayrı mərhələlərdən sonra başa çatırdı. Birinci mərhələ zamanı xammal müvafiq olaraq ev və ya ov heyvanların sümük və buynuzlarından toplanır, daha sonra xammal yarimfabrikat halına salınırdı. Bu zaman əvvəlcə sümük yağsızlaşdırılır, bir neçə dəfə kül suyunda, yaxud da turşumuş süd məhsularında qaynadılırdı. Bundan sonra xammal kəsmə yolu ilə formaya salınır, lazımi məmulat hazırlanır və sonda məmulat cilalanır və naxışlanırdı (5, s. 187-188).

Şəmkir şəhər yerində arxeoloji qazıntılar zamanı tapılan sümük məmulatı bir daha təsdiq edir ki, orta əsr Şəmkir şəhərində sümükişləmə sənəti ayrıca bir sənətkarlıq sahəsi kimi fəaliyyət göstərmişdir.

## ƏDƏBİYYAT:

1. Dostiyev T.M. 2006-2007-ci illərdə Şəmkir şəhər yerində aparılmış arxeoloji tədqiqatlar. // Şəmkir: arxeoloji, irsi, tarixi və memarlığı. Birinci respublika elmi-praktik konfransın materialları. Bakı, 2008, s.31-60.
2. Azərbaycan arxeologiyası. Bakı, 2008, VI c.
3. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri. Bakı, 1979.
4. Babayev İ.A, Əhmədov Q,M. Qəbələ. Bakı, 1981.
5. Dostiyev T.M. Şimal-şərqi Azərbaycan IX-XV əsrlərdə, Bakı, 2001.
6. İsmayılzadə Q.S. Təxti-Tavusun sorağında. // Azərbaycan arxeologiyası, Xəzər Universitəsi, 1999, N 3-4.

# BONE GOODS FROM THE MEDIEVAL SHAMKIR CITY

***Seymur Huseynov***

***Summary***

This article is about the medieval bone goods revealed during archaeological excavations in Shamkir city. Bone goods of Shamkir are represented by makeshift tools, household foods and decorations. Among tools the awls prevail over other, one of awls is decorated by ocellated ornament while the other is arrow- shaped. There are 3 polished buttons among decorations; one of them is ordinary, two others- are with geometric ornaments.

# О КОСТЯНЫХ ИЗДЕЛИЯХ СРЕДНЕВЕКОВОГО ГОРОДИЩА ШАМКИР

***Сеймур Гусейнов***

***Резюме***

Данная статья посвящена костяным изделиям средневекового города Шамкир, обнаруженным при археологических раскопках. Они, в основном, представлены орудиями труда, предметами быта и украшениями. Из орудий труда преобладают проколки. Одна из них украшена глазчатым орнаментом, а вторая сделана в форме стрелы. Среди предметов украшения выделяются пуговицы, которые полированы до блеска; одна простая, не орнаментирована, а две- с геометрическим орнаментом.

Tablo



# ELM TARIXI
# SCIENTIFIC HISTORI
# ИСТОРИЯ НАУКИ

## ŞƏMKİRÇAY HÖVZƏSİ TAYFALARININ ENEOLİT VƏ TUNC DÖVRÜ MƏDƏNİYYƏTİ (1974-1979-cu ilin arxeoloji tədqiqatları əsasında)

*Hidayət Cəfərov*
*(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)*

Hazırda Azərbaycanın müxtəlif bölgələrində sistemli arxeoloji tədqiqatlar aparılır. Bunların sırasında Şəmkir kompleks arxeoloji ekspedisiyası xüsusi yer tutur. Lakin xatırlatmaq yerinə düşər ki, bu ekspedisiyanın ilkin tədqiqatları uzaq 1974-cü ildə Şəmkir Su Elektrik Stansiyasının tikilməsi ilə əlaqədar olaraq başlanılmışdır. Həmin vaxt ekspedisiya Şəmkir Su Elektrik Stansiyasının tikiləcəyi təsir zonasında geniş axtarış işləri aparmış, çoxsaylı və müxtəlif dövrlü arxeoloji abidələri qeydə almış, onların koordinatlarını müəyyən etmiş, arxeoloji xəritəsini çıxarmışdır. Müxtəlif illərdə ekspedisiya Rəhim Vahidov, Hətəm Kəsəmənli və Hidayət Cəfərovun rəhbərliyi altında fəaliyyət göstərmişdir. Ekspedisiyanın tərkibində adları çəkilən ekspedisiya rəisləri ilə yanaşı, Azərbaycan arxeologiya elminin inkişafında xidmətləri olmuş alimlər – İdeal Nərimanov, İlyas Babayev, Fərman Mahmudov, Münəvvər Hüseynova, Solmaz Qaşqay, Qələndər Aslanov və b. daxil olmuşlar. 1974-1979-cu illər arasında ekspedisiyanın bütün fəaliyyətinin əsas məsuliyyəti iki nəfərin – Hətəm Kəsəmənli və Hidayət Cəfərovun öhdəsinə düşmüşdür. Bütün çətinliklərə baxmayaraq ekspedisiya onun qarşısında qoyulmuş vəzifənin - ərazinin arxeoloji abidələrinin ekstrimal şəraitdə qeydə alınması və tədqiqi vəzifəsinin öhdəsindən şərəflə gəlmişdir.

**Eneolit dövrü.** Ərazidə aşkar olunmuş son eneolit dövrünün Keçili yaşayış yeri ilə təmsil olunmuşdur. Abidə 1975-ci ildə, Keçili kəndindən 1,2 km şimal-qərbdə, Şəmkirçayın hündür sol sahilindən 1,5 km qərbdə aşkar olunmuşdur (1). Yaşayış yeri son tunc dövrü və orta əsrlərə aid qəbirlərlə çox dağıdılmışdır. Qalmış sahəsi 1 ha, hündürlüyü 2 m-ə çatırdı. Burada 70 $m^2$ sahədə aparılmış yoxlama qazıntısı zamanı dördbucaqlı planlı, çiy kərpicdən inşa edilmiş divar qalıqlarının bir hissəsi aşkar olunmuşdur. Eneolit təbəqəsindən daşlar, sürtgəclər, obsidian və çaxmaqdaşından lövhələr, habelə çoxsaylı keramika nümunələri aşkar olunmuşdur. Axırıncılar sayca və tipoloji baxımdan

daha çox diqqəti cəlb edir. Keramikanın əksəriyyəti qırmızımtıl-şabalıdı və sarımtıl-qəhvəyi rəngli olub, gilinin tərkibi bitgi qatışıqlıdır. Bəzi qabların səthi səliqəli anqoblanıb və üzəri daraqvari əşya ilə işlənib. Qabların bir qismi kobud quruluşludur, gilinin tərkibində iri qum dənələri çoxluq təşkil edir. Bu tip keramika dairəvi və ya yumurtavari oturacaqlı camlar, küpələr və silindrik boğazlı qablardan ibarətdir. Ağız kənarı yana olan qablara, kəsikdə üç təbəqəli divarı olan nümunələrə də təsadüf olunur. Bir çox qab parçalarında ağız kəsiyinə çəpəki çərtmələr vurulmuşdur. Üzəri sığallı, bitgi qatışıqlı bəzi qab nümunələrində üfüqi yapma qurşaq, digər qab nümunələrində boğazda qoşa, başqalarında isə ağız kənarından aşağı bir cərgə üfqi deşik açılmışdır. Ağız kənarından aşağıda, qabın gövdəsini əhatə edən məməcik-çıxıntılara, habelə cızma naxışlara da təsadüf olunur. Saxsı məmulatında küpə formalı qabın boğazına və tabaqvari qabın ağız kənarının içi boyu qara rənglə xətt çəkilmişdir.

Araşdırmalarla müəyyən edilmişdir ki, yaşayış məskənində vaxtilə yaşayış intensiv olmuşdur. Lakin sonrakı dövr qəbir abidələri onun dağılmasına və tikinti qalıqlarının tam izlənməsinə imkan verməmişdir.

Eneolit dövrü əhalisi əkinçilik və maldarlıq, ev sənətkarlığı ilə məşğul olmuşdur. Suya olan tələbat yaxınlıqdakı qaynama bulaq hesabına təmin olunmuşdur.

**İlk tunc dövrü abidələri.** Ekspedisiyanın tədqiq etdiyi abidələrin bir qismi ilk tunc dövrünə aid olmuşdur. Bunların sırasında Keçili eneolit dövrü yaşayış yerində aşkar olunmuş, orta əsrlər dövrünün müsəlman qəbirləri ilə hədsiz dağıdılmış ilk tunc dövrü qəbirinin qalıqlarını göstərmək olar. Qəbir qalığı 1,4m dərinlikdə aşkar olunmuşdur. Dəfn quruluşunu təyin etmək mümkün olmamışdır. Kür-Araz mədəniyyətinin inkişaf etmiş mərhələsi üçün xarakterik olan bikonik formalı, qoşa yarımşar qulplu iki qab yeganə qəbir avadanlığı olmuşdur (2).

İlk tunc dövrünü təmsil edən bir qrup abidələr Şəmkir SES-bəndi yaxınlığındakı "Osman bozu" adlı nekropolda yerləşmişdir. Burada, həmin dövrün beş (5) kurqan abidəsi açılıb öyrənilmişdir. Kurqanlar daş və torpaq qatışıqlı örtüyə (diametri – 15-20m; hündürlüyü 0,5-2,5 arasında) malik olmuşdur. Kurqanaltı qəbir çalaları düzbucaqlı quruluşlu olmuş, qəbirlərdə mürəkkəb dəfn mərasimi icra edilmişdir.

1977-ci ildə tədqiq olunmuş bir saylı kurqanın daş örtüyü altındakı qəbirdə kremasiya adəti ilə dəfn qalığı aşkar olunmuşdur (3). Məlumdur ki, ilk tunc dövründə kremasiya adətinin varlığı Azərbaycanın Qəbələ (4), Borsunlu (5) və b. abidələrində də qeydə alınmışdır.

1978-ci ildə ilk tunc dövrünün daha dörd kurqan abidəsində arxeoloji tədqiqatlar aparılmışdır (6). Kurqanlardan daş və qaratorpaq, qum qatışıqlı örtüklü olanlarda (NN 4,5)1 saylı kurqanda olduğu kimi ölüyandırma adəti ilə kollektiv dəfn; torpaq örtüklü, ətrafı düzgün dairəli kromlexlə əhatə olunmuş başqa iki

kurqanda (NN 2,3) isə qəbir çalası və dəfn izinə təsadüf olunmamışdır (kenotaf tipli abidə).

4 Saylı daş örtüklü kurqan (d-18m; h-1,5m) altındakı qəbirə (3,2x4x1,5m) şərqdən daxil olan giriş yolunun (1,3x4x0,8m) qarşısında şaqüli basdırılmış iki ədəd əhəngdaşı lövhəsi qeydə alınmışdır. Belə lövhələrə 1 saylı Osman Bozu kurqanında, habelə, Borsunlu və Gəncəçay rayonunun tunc dövrü kurqanlarında rast gəlinmişdir. Xatırlatmaq yerində olar ki, Osman bozunun kenotof kurqanlarından birinin (N3) ətəyi bu tip əhəngdaşı lövhələri ilə "üzlənmişdir". Qəbirdə kül qalığı, kömür qalıqları, yanıb qızarmış və qaralmış daş yığını içərisində kremasiya edilmiş beş (5) ölünün sümüklərinin fraqmentləri təmizlənmişdir. Qəbirin dibində ağacdan hazırlanmış çərçivə, divarlarında isə aşağı ucları həmin çərçivəyə pərçim edilmiş ağac "üzləmə"nin varlığı müəyyən edilmişdir. Vaxtilə qəbir ağac tirlərlə örtülmüşdür.

Qəbirdə 5 müxtəlif tipli, əldə kobud hazırlanmış, Kür-Araz mədəniyyətinin ilkin dövr qəbir abidələri üçün xarakterik olan saxsı qablar qoyulmuşdur.

Həmin il tədqiq olunmuş başqa bir (N5) kurqan (d-12m, h-0,5m) əsas əlamətləri ilə 4 saylı kurqanı xatırlatsa da, burada giriş yolu olmamışdır. Düzbucaqlı quruluşlu qəbir kamerası (5x4x1,7m) əvvəlki kimi qərb-şərq istiqamətli olub, burada 10 (on) ölü kremasiya edilmişdir. Qəbirdə ölülərin sayı qədər keramika nümunələri-cam, kasa, xeyrə və küpələr qoyulmuşdur. Qablar əldə hazırlanmışdır. Oturacaqları qalındır, gilinin tərkibi qum dənələridir. Naxış yoxdur. Qabların çiyin və ağız kənarında tək, yaxud qoşa, Kür-Araz mədəniyyəti üçün xarakterik olan lentvari qulpları var idi. Bişirmədən asılı olaraq rəngləri boz, qara və qəhvəyi çalarları əks etdirir.

**Orta tunc dövrü** abidələri 1974-cü ildə, Kür çayının sağ sahilindən 1km, Şəmkirçayın hündür sol sahilindən 1,5km qərbdə yerləşən Keçili-I nekropolundakı, habelə 1979-cu ildə, Osman bozu nekropolunun qərbindəki torpaq qəbirləri (müvafiq olaraq hərəsində bir ədəd) ilə təmsil olunmuşdur. Materiallar e.ə. XVIII-XVII əsrlər üçün xarakterik əlamətlərə malik qulpsuz keramika nümunələrindən ibarət olumuşdur.

**Son tunc dövrü abidələri.** Bu dövrün arxeoloji abidələri Bitdili yaşayış yeri, habelə Keçili eneolit yaşayış məskənində aşkar olunmuş dörd sallama torpaq qəbrindən ibarətdir.

Keçili yaşayış yerinin eneolit təbəqəsində 1,3-1,6m dərinlikdə son tunc dövrünün dörd torpaq qəbiri açılmışdır (7). Qəbir kameraları dördkünc quruluşlu olub, qərb-şərq istiqamətli idi. Müvafiq olaraq hər qəbirdə sağ və ya sol yanı üstə, bükülü vəziyyətdə qoyulmuş bir ölü dəfn olunmuşdur. Ölülərdən birinin (N2) başı dərin camın içərisində qoyulmuşdur. Belə dəfn adətinə Azərbaycanın bir çox həmdövr abidələrində dəfələrlə təsadüf olunmuşdur.

Qəbir avadanlığı müxtəlif tip və quruluşlu saxsı qab nümunələri- küpələr, camlar, dolça, xeyrə, kuzələr, bərni və qazanlardan, habelə tunc məmulatı və bəzək əşyalarından ibarətdir.

Küpə və kuzələr şarşəkilli- uzunsov gövdəyə, silindrik boğaza malik olub, bir və ya iki xarakterik qulpla təchiz edilmişdir. Səthi səliqəli sığallanıb, cızma torvari, üçbucaqlı, bəzən şüyrəli xətlərlə naxışlanıb. Küpələrdən birinin oturacağında üç məməcik yapışdırılmışdır.

Camlar şarvari gövdəli olsa da boğazlı qısadır. Bir nüsxədə qoşa şaquli qulp yapışdırılıb. Bu tip qabların səthi cızma, batıq və şüyrələmə üsulu ilə torşəkilli, habelə paralel xətlərlə naxışlanmışdır.

Qara və tünd qəhvəyi rəngli xeyrələr ağız kənarında, üfüqi deşikli yapışdırma qulplara malik olub, bir qayda olaraq xaricdən, bəzən daxildən şaquli süyrəli xətlərlə naxışlanıb.

Təkqulp parçaların səthi düz və dalğavari habelə maili süyrəli xətlərdən ibarət naxışlarla bəzənmişdir. Bir nüsxənin oturacağı dabanlıdır.

Metal əşyalar yarpaqvarı tiyəsi kəsikdə rombvarı planlı, dəstəyi şəbəkəli piramidaşəkilli başlığa malik tunc xəncərdən, kəsikdə dördtilli tunc biz, tunc üzükdən ibarət olmuşdur.

Daş məmulatı armudvari quruluşlu toppuzdan ibarətdir.

Arxeoloji materialların bir qismini qırmızı və çəhrayı rəngli, şarvari, kəsik və s. tipli əqiq, pasta muncuqları, "Nassa gibbosula" tipli dəniz iblizi qabığından olan bəzək nümunəsi təşkil edir.

Arxeoloji materialların kompleks təhlili onları Xocalı-Gədəbəy mədəniyyətinin ikinci inkişaf dövrünə, e.ə. XII-XI əsrlərə aid etməyə imkan verir.

Qəbirlərdən birinin yanında (sol yanı üstə, çox bükülü vəziyyətdə) heç bir arxeoloji material tapılmamışdır.

Həmin dövrdə Şəmkir arxeoloji ekspedisiyasının ən uğurlu tədqiqat obyektlərindən biri son tunc və ilk dəmir dövrünə aid Bitdili yaşayış yeri olmuşdur (8). Abidə Şəmkir Su Elektrik Stansiyasının işçiləri üçün salınan Kür qəsəbəsi binalarına bünövrə qazılarkən açılmışdır.

"Bitdili" yaşayış yeri vaxtilə 2 ha artıq sahəni əhatə etmişdir. Yerli əhalinin verdiyi məlumata görə buralar vaxtilə qalın meşələrlə örtülmüşdür. Sonralar əkin sahələrini genişləndirmək məqsədilə meşələr qırılmışdır. Qəsəbə tikilən ərəfədə isə yaşayış yeri və ona yaxın sahələrdə üzüm tarlaları salınmışdır. Dəfələrlə yer səthinin şumlanması nəticəsində üst təbəqələr dağıdılmışdır. Yaşayış yerinin şimal hissəsində 210 $m^2$ ölçüdə iki qazıntı sahəsi seçilmiş və tədqiqatlar aparılmışdır. Eyni dövrə aid mədəni təbəqənin qalmış qalınlığı 1,6m-ə çatırdı.

Birinci qazıntı sahəsində çoxsaylı maddi-mədəniyyət qalıqlarına, xüsusilə müxtəlif tip keramika nümunələrinə təsadüf olunmuşdur. Bunların sırasında ağız kənarı yana əyilmiş dərin və ya dayaz camlar, xeyrələr xüsusi yer tuturdu. Onların səthi düzgün paralel və dalğavari xətlər, çəyirdəkvari və dırnaqvari naxışlarla örtülmüşdür. Saxsı qabların digər nümunələri müxtəlif ölçülü, şarvari

və ya uzunsov gövdəli küpələr, bərni, qazan və çölməklərdən ibarətdir. Onların çoxusunun səthi üzəri çimdikli, çərtmələr və s. işlənmiş yapışdırma kəmərvari, habelə, batıq və qabarıq xətlərlə naxışlanmışdır. Qabların böyük əksəriyyəti səthi yolkavari və düyməciklərlə bəzənmiş qulplarla təchiz olunmuşdur. Gil qablara həmçinin çəlləkvari və kubokşəkilli nümunələr, materikə basdırılmış iri həcmli təsərrüfat küpləri, təknəvari qablar da daxildir. Burada gil suvaqla örtülü ocaq tapılmışdır.

Birinci qazıntı sahəsinin maddi qalıqlarının bir qismini daş məmulatı təşkil edir. Kolleksiyaya çay daşlarından hazırlanmış dən daşları, sürtgəclər, həvəng dəstələri, bülöv, asmalar və araba təkəri modeli daxildir.

Metal əşyalar yalnız kiçik ölçülü tunc halqalardan ibarətdir.

İkinci qazıntı sahəsinin əhəmiyyətli tapıntıları sırasında üç dulus kürəsi qalığı xüsusilə qeyd olunmalıdır. Odlama sahəsi düzbucaqlı quruluşlu olub, səliqəli və düz səthə malikdir. Döşəməsi gil suvaqla örtülmüşdür. Mərkəzi hissəsindən uzunsov-düzbucaqlı planlı, materikdə qazılmış odlama kanalı keçirdi. Kanalın döşəməsi və kənarları qum qatışıq gil təbəqəsi ilə suvanmışdır. Kanalın səthindəki yanma izinin qalınlığı (15sm) onun uzun müddət istifadədə olmasını göstərir. Sonralar dulus kürələri yararsız hala düşdüyündən bura tullantı yerinə çevrilmişdir. Burada çoxsaylı kərpic qırıqları, saxsı qablara məxsus müxtəlif fraqmentlərin tapılması da bunu sübut edir. Saxsı qab fraqmentləri birinci qazıntı sahəsinin materialları ilə eyni tiplidir. Dulus kürələrinin meydana gəlməsi və keramika istehsalında onun rolu Azərbaycanın müxtəlif dövr abidələri əsasında yaxşı izlənilmişdir. İlk dulus kürələri eneolit dövrünün əvvəllərindən istifadə də olmuş, (Kültəpə I, Şomutəpə, Çalağantəpə, Əliköməktəpə, Leylatəpə) (10), sonrakı dövrlərdə daha geniş intişar tapmışdır (Mingəçevir) (11). Bitdili sobaları quruluş etibarilə Mingəçevirin son tunc dövrü dulus kürələrinə daha yaxındır.

Qısa jurnal məqaləsində Şəmkir arxeoloji ekspedisiyasının 1974-1979-cu illərdə apardığı çoxşaxəli və sistemli tədqiqatları geniş əks etdirməyin çətinliyini nəzərə alaraq qeydlərimizi bununla yekunlaşdırırıq. Bir daha xatırlatmaq istərdik ki, o vaxtlar elmi araşdırmaları, çöl-tədqiqatlarını aparmaq üçün heç də bütün şərait yaradılmırdı. Çox zaman tikintilərin intensiv aparılması arxeoloqları "seytnot" vəziyyətdə qazıntılar aparmağa məcbur edirdi. Lakin, bununla belə, biz arxeoloqlar üzərimizə düşən vəzifəni ləyaqətlə yerinə yetirə bilmişdik.

## ƏDƏBIYYAT:

1. Кесаманлы Г.П., Джафаров Г.Ф., Гусейнова М.А., Асланов Г.Г. Археологические работы в зоне строительства Шамхорской ГЭС. «Археологические и этнографические изыскания в Азербайджане (1975г., Баку, Элм, 1978, с. 22-23; Кесаманлы Г.П., Гусейнова М.А., Джафаров Г.Ф., Кашкай С.М.,

Асланов Г.Г. Новые памятники в районе строительства Шамхорской ГЭС. – АО 1975 года, Москва, 1976, с. 502.
2. Кесаманлы Г.П., Джафаров Г.Ф., Гусейнова М.А., Асланов Г.Г. Археологические работы..., с. 26.
3. Кесаманлы Г.П., Джафаров Г.Ф., Бабаев И.А. Археологические исследования в зоне строительства Шамхорской ГЭС. АЭИА (1977г.), Баку, 1980, 7-11.
4. Qazıyev S.M. Qəbələ kurqanları və ölüyandırma (kremasiya) adəti. Azərb. SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1969, N3, səh. 42-46.
5. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı – I minilliyin əvvəllərində. Bakı, Elm, 2000, səh. 34.
6. Джафаров Г.Ф., Кесаманлы Г.П., Нариманов И.Г. Археологические раскопки в зоне строительства плотины Шамхорской ГЭС. АЭИА (1978г.), Баку, 1982, с. 9-11.
7. Кесаманлы Г.П., Джафаров Г.Ф., Гусейнова М.А., Асланов Г.Г. Археологические работы зоне строительства Шамхорской ГЭС. АЭИА (1975г.), 25-26.
8. Кесаманлы Г.П., Джафаров Г.Ф. Раскопки на поселении Битдили. АЭИА (1976 г.) Баку, 1979, с. 8-11.
9. Кесаманлы Г.П., Джафаров Г.Ф., Алиев А. Работа в зоне строительства Шамхорской ГЭС. АЭИА (1979г.), Баку, 1984, с. 11-14.
10. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку, Элм, 1987, с. 16, 47, 48, 51, 58-60, 62-63, 67, 150 и.т.
11. Асланов Г.Г., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку, 1959, с. 144-147, рис. 104, 105, 106.

# CULTURE OF TRIBES OF UNDECURRENT OF SHAMKIRCHAY ROVER OF ENEOLITHIC AND BRONZE PERIODS
## (According to the materials of archaeological research in 1974-1979)

*Hidayat Jafarov*

***Summary***

Shamkir complex expedition is one of the successful expeditions. The basis of this expedition is Shamkhor archaeological expedition is founded in 1974 during the beginning of the construction of huge Shamkhor hydroscheme. This archaeological expedition had investigations in undercurrent and creek of Shamkirchay as well as in the medium stream of Kura river.

In the course of archaeological investigations the great consideration was given to the reveal o9f archaeological monuments, their accurate definition, the making of cartography of fixed objects and chiefly, the carrying out archaeological excavations. From 1974 up to 1979 dozens of monuments occuring at different times. As a result of excavations the monuments of Eneolith period (Kechili), early Bronze (Osman bozu), Middle Bronze (Kechili II, Osman bozu) and late Bronze (Kechili, Osman bozu, Bitdili) have been revealed.

# КУЛЬТУРА ПЛЕМЁН БАССЕЙНА ШАМКИРЧАЯ ЭПОХИ ЭНЕОЛИТА И БРОНЗЫ
## (По материалам археологических исследований 1974-1979 гг.)

*Гидаят Джафаров*

***Резюме***

Шамкирская комплексная экспедиция является одной из успешно функционирующих ныне археологических экспедиций. Уместно упомянуть, что в истоках археологических изысканий этого края стояла Шамхорская археологическая экспедиция, созданная ещё в 1974 году в связи с началом грандиозного строительства Шамхорского гидроузла. Археологическая экспедиция вела исследования в обширной зоне строительства и затопления, т.е. в нижнем течении и устье Шамкирчая, а также в среднем течении реки Куры.

В ходе археологических исследований основное внимание было уделено выявлению археологических памятников, уточнению их координатов, составлению картографии зафиксированных объектов и, самое главное, ведению систематических археологических раскопок. С 1974 по 1979 годы были выявлены десятки разновременных памятников, во многих из которых проведены раскопки. Так, в результате были исследованы памятники эпохи энеолита (Кечили), ранней (Осман бозу), средней (Кечили II, Осман бозу) и поздней (Кечили, Осман бозу, Битдили) бронзы.

# KÖMƏKÇİ FƏNLƏR
# SCIENTIFIC HISTORI
# ИСТОРИЯ НАУКИ

## О НЕКОТОРЫХ ПРОБЛЕМАХ НАУКИ ЭТНОГРАФИИ АЗЕРБАЙДЖАНА

***Эмиль Керимов***
*( Институт Археологии и Этнографии НАН Азербайджана)*

Этнография одна из немногих социальных и гуманитарных наук, сфера деятельности которой охватывает все стороны традиционного и современного быта культуры народов. Неслучайно, что еще на заре 20-х гг. XX в. создатели Ленинградской школы этнографов Л.Я.Штернберг и В.Г.Богораз считали этнографию «венцом всех гуманитарных наук». Вместе с тем, как и всякая наука, она тесно связана с другими отраслями. С дальнейшим прогрессом общества, особенно с расширением масштабов глобализации для решения многих насущных и актуальных проблем требуются иные подходы. Известно, что многие важнейшие научные открытия и новшества рождались на стыке наук. Наряду с самостоятельными науками в решении тех или иных задач немаловажное место занимают междисциплинарные науки и научные направления.

Сегодня в этнографии Азербайджана успешно применяется этносоциология, этнодемография, этнолингвистика, этностатистика и этнополитология. Такой подход к проблеме позволяет специалистам более объективно и ёмко оценить современную действительность. Смежные науки дают возможность в полной мере вскрыть закономерности этносоциальных, этнокультурных, межнациональных, внутриэтнических процессов и прослеживать изменения в структуре самого этноса. Отметим, что исследования в вышеуказанном ракурсе в основном направлены на изучение современности.

Помимо перечисленных дисциплин существует и целый ряд других, а именно этноэкология и ее составная часть, этнокультурное ландшафтоведение, этногеография, ономастика, палеоэтнография, этноархеология, этническая картография, этномедицина, этномузыка, без применения которых невозможно решить ни одну узловую проблему этнографии в сферах типологии и классификации традиционной материальной и духовной культуры, общественного, семейного и хозяйственного быта как в прошлом, так и в настоящем.

Безусловно, этнография Азербайджана в течение 70 лет советской власти достигла больших успехов. Основное внимание в те годы уделялось исследованию быта и культуры современного рабочего класса и колхозного крестьянства. Тогда этнография полностью была подчинена интересам советской идеологии. Неслучайно, что народный комиссар просвещения А.В.Луначарский считал этнографию «основой советской политики».

Наряду с этим появились и работы по изучению исторической этнографии, в частности традиционной земледельческой и скотоводческой культуры азербайджанцев.

За годы независимости Азербайджана открылись широкие перспективы для свободной разработки многих актуальных тем. Этнография стала функционировать как самостоятельная наука. Весьма важным является критический, вместе с тем и новый объективный научный подход на образ жизни, быт и культуру «советского народа». Вместе с тем, мы еще не избавились от некоторых негативных явлений и пережитков прошлого. Еще встречаются чисто описательные работы без необходимых научных обобщений, где местами стираются даже грани между этнографом и информатором. Мы абсолютно не отрицаем описательную этнографию, которая составляет фактическую и материальную базу в научно-теоретических построениях. Описательная и теоретическая этнография взаимообусловлены и тесно взаимосвязаны. Они дополняют друг друга. При изучении пищи, напр., для этнографа неважно описание технологии приготовления ее, это в основном задача кулинаров. Тут требуется системный подход. Материальная вещь не должна привлекать внимание специалиста вне ее социальной базы. В данном случае важны поведенческие аспекты, модели питания, «пищевая экзогамия» и т.д. При изучении национальной одежды, напр., следует обратить внимание на знаковые средства и этномаркеры. Одежда, ее цвет, материал, украшения имеют разные социокоды. Нередко отдельные части комплекса служат своего рода этномаркером.

Аналогичный подход требуется и при изучении традиционных типов и форм жилищ. Всё это еще раз свидетельствует о том, насколько велики место и роль смежных научных дисциплин в теории и практике науки.

Заметную практическую помощь может оказывать *прикладная этнография*. Известно, что Азербайджан один из древнейших очагов земледельческой культуры на Земле. Путем народной селекции азербайджанские садоводы создавали и выращивали сотни сортов эндемических фруктов. Известно что, фруктовые деревья-национальное достояние народа. Однако, за годы советской власти массовым образам многие деревья были выкорчеваны или вырублены, в результате чего большинство из них бесследно исчезли. Они были заменены «безликими», стандартными фруктами российского или европейского происхождения.

Этнографы могут активно включиться и в сферу моделирования и конструирования современной одежды, планировки и строительства жи-

лиц, и тем самым придать им национальной колорит, а также восстановить старинные национальные блюда и традиционный застольный этикет.* Благодаря утилитарной этнографии можно оптимизировать и совершенствовать брачно-семейные отношения, восстанавливать старинную свадебную обрядность азербайджанцев и выявить ее былую полуфункциональность.

Известно, что между этносом и природной средой существуют определенные взаимосвязи и закономерности, дополняющие друг друга, которые являются предметом изучения *этногеографии*, где в частности внимание уделяется размещению и территориальному расселению населения. Географический фактор активно влияет на особенности планировки, структуры и строительства традиционных городских и сельских жилых домов. Выбор места строительства дома, стройматериала, системы отопления так же во многом зависит от вышеуказанного. Отметим, что в советской науке влияние географического фактора в истории общественного развития фактически отрицалось. В те годы в обществе господствовала «всепобеждающая марксистко-ленинская идеология» и «исторический материализм».

К этнографии по некоторым параметрам примыкают *этническое картографирование, этническая демография,* а также *этническая экология.* Последняя сформировалась на стыке экологии человека и этнографии. В круг ее научных интересов входит изучение особенностей традиционных систем, жизнеобеспечения этносов в природных и соцально-культурных условиях их обитания, этнические аспекты болезней (5, с.8).

Одной из составных частей этноэкологии является *этнокультурное ландшафтоведение.* Как известно, природа, население и культура гармонично взаимосвязаны. Природные свойства страны отражаются в пространственных проявлениях культуры. По мнению известного ученого В.Н.Калуцкова, культурный ландшафт пространственное проявление этнического (4, с.8). Указанное научное направление немаловажное внимание уделяет взаимоотношениям этнического фактора с природно-географическими условиями. Такие процессы наиболее ярко проявляют себя и в особенностях адаптации и переадаптации населения к местным естественным условиям.

У нас до сих пор не разработаны этнографические аспекты народной медицины-*этномедицина.*** Опубликованные работы этнографов мало чем

---

* Отметим, что системный подход к изучению национальной пищи весьма успешно применяется руководителем Центра национальной кулинарии Т. Амираслановым. Достаточно отметить его монографию «Армянская экспансия в кулинарной культуре или армянские учёные и вопиющая кулинария» (Баку, Элм, 2003)

** Еще в 70-х годах прошлого века в Ленинграде состоялась научная конференция, посвященная этнографическим аспектам изучения народной медицины. См. Советская этнография, Москва, 1975, №6.

отличаются от работ медиков. Среди ученых и сегодня не утихают споры вокруг понятий «народная медицина» и «традиционная медицина». По мнению И.И.Брехмана, напр., для народной медицины характерна устная передача знаний, а для традиционной–письменная (1, с.4). Помимо лечения больных различными средствами, с точки зрения этнографии интересны и лечебная магия, изгнание злых духов-экзорцизм, заговоры, народные названия болезней, психотерапевтическое воздействие, сопровождаемое различными обрядами. Азербайджан богат лекарственными растениями. Они издавна широко применяются при лечении самых различных недугов. Об этом свидетельствуют археологические раскопки. Еще в 50-х годах прошлого века археологом О.Ш.Исмизаде во время раскопок на холме Кара-тепе Мильской степи в культурном слое, датируемым V-I вв. до н.э., обнаружен кувшин с плодами üzərrik/üzərlik (дикая рута) гармала (Peqanum haramala L.,), (2, с. 627-630). Любопытно, что узеррик и сегодня распространен среди населения как средство защиты от сглаза и болезней. О богатом опыте народного лечения сложных болезней в Азербайджане писал известный русский хирург Н.И.Пирогов, посетивший в 1847 г. Гусар, Шемаху, Губу и Нуху (6, с. 42).

Еще в 60-70-х гг. прошлого века на Западе путем интеграции археологии и этнографии возникла новая пограничная наука-*этноархеология*. Первое время она функционировала под разными названиями – «живая традиционная культура», «живая археология», а с 80-х годов наиболее употребляемым термином стала этноархеология. По мнению этнографа Н.А.Томилова, «этноархеология-отрасль научного знания о культуре и обществе, интегрирующая археологические и этнографические знания, она призвана решать круг проблем по генезису и динамике общества и культуры человечества…» (7, с.55). Примечательно, что известный этнограф и археолог И.И.Мещанинов еще на заре XX в. высказывал мысль о необходимости совместной работы археологов и этнографов. Особенно он подчеркивал роль «живой старины» при решении сложных археолого-этнографических задач (3, с.7). В настоящее время в Институте Археологии и Этнографии НАН Азербайджана действует отдел этноархеологии, где ведутся исследования по разным темам.

Азербайджанскую этнографическую работу в значительной степени может обогатить и *ономастика*, особенно при исследовании антропонимов, этнической истории, духовной культуры, общественного и семейного быта. Как известно, работа в указанном направлении до сих пор преимущественно проводится по линии лингвистики.

Известно, что этногенез один из ведущих ветвей этнографической науки. Однако, вместе с тем при решении указанной проблемы необходимо соблюдать системный подход с привлечением целого ряда наук, но при этом в первую очередь надо исходить из самой этнографии, как в ис-

торическом, так и современном и ретроспективном плане. Тут исключительная роль принадлежит *палеоэтнографии*. Очень важно отметить, что реликты старинной культуры продолжают бытовать в современной жизни народа. Необходимо положить конец дилетантскому подходу к этногенезу, который широко распространен среди филологов, фольклористов и лингвистов. У последних наблюдается подмена этногенеза глоттогенезом.

Изложенные выше некоторые соображения свидетельствуют о том, насколько велика роль междисциплинарных наук и научных направлений в этнографических разработках. Указанные дисциплины весьма сложны по структуре, граница между некоторыми расплывчаты, иногда идентицировать их нелегко. Среди специалистов нет единого мнения по данному вопросу. Тем не менее, без них невозможно полнокровно решать многие вопросы науки.

## ЛИТЕРАТУРА

1. Брехман И.И. Народная медицина в свете теории информации. // Тезисы Всесоюзной научной конференции «Этнографические аспекты изучения народной медицины». Ленинград, 1975, с. 4.
2. Исмизаде О.Ш. Лекарственные растения народной медицины в древних археологических находках. // Доклады АН Азерб. ССР, №7, Баку, 1959, с. 627-630.
3. Мещанинов И.И. О пользовании этнографическим материалом при археологических исследованиях. // Известия Общества Обследования и Изучения Азербайджана, №5, Баку, 1928.
4. Калуцков В.Н. Этнокультурное ландшафтоведение. // Вести Московского Университета, серия 5, география, №2, Москва, 2006, с. 8.
5. Козлов В.И. Основные проблемы этнической экологии. Совесткая этнография, Москва, 1973, №1, с. 8.
6. Пирогов Н.И. Отчёт о путешествии по Кавказу. // Записки по части врачебных наук, кн. 3-4, Спб, 1484, кн.1-3, Спб, 1849.
7. Томилов Н.А. К проблемам методологии некоторых частных исторических и смежных с ними наук. // «Этнографическое обозрение», №1, Москва, 2004, с. 55.

# AZƏRBAYCAN ETNOQRAFİYASININ BƏZİ PROBLEMLƏRİ HAQQINDA

*Emil Kərimov*

*Xülasə*

Məqalə yeni və unudulmuş bir sıra fənlərarası elm sahələrinin etnoqrafiya elmində çətin problemlərin həllində roluna həsr edilib.

Təsadüfi deyil ki, bir çox mürəkkəb elmi məsələlər məhz belə elmlərin köməyi nəticəsində həll olunmuşdur.

Bu gün Azərbaycan etnoqrafiyasında etnososiologiya məsələlərinə xüsusi diqqət yetirilir. Elmə belə baxış müasir gerçəkliyi obyektiv olaraq işıqlandırmağa imkan verir. Fənlərarası elm sahələri və aparıcı elmi istiqamətlər etnososial, etnomədəni, etnoslararası və etnosdaxili proseslərin qanunauyğunluqlarını və etnosun strukturunda baş verən dəyişiklikləri aşkar etməyə imkan verir.

Yuxarıda qeyd olunan elmlərlə yanaşı son onilliklər ərazidə bir sıra yeni elm sahələri– etnoekologiya, etnomədəni landşaftşünaslıq, etnoarxeologiya, tətbiqi etnoqrafiya və s. formalaşmışdır.

# ABOUT SOME PROBLEMS OF AZERBAIJAN ETNOGRAPHY

***Emil Karimov***

***Summary***

This article is about some subsidiaries and their role in ethnography. The author notes that alone with subsidiaries a number of new fields of science has been formed. Among them: ethnoecology, ethnoarchaeology, applied ethnography and etc. The author notes that some scientific problems have been solved with the help of subsidiaries.

# BİZİM MÜSAHİBƏ
# OUR INTERVIEW
# НАШЕ ИНТЕРВЬЮ

Müsahibimiz Şəmkir arxeoloji ekspedisiyasının rəisi, tarix elmləri doktoru *Tarix Meyrut oğlu Dostiyevdir.*

**Arxeologiya böyük zəhmət tələb edən elm sahəsidir. Siz bu ixtisası seçməkdən peşman deyilsiniz?**

Siz haqlısınız. Arxeologiya maraqlı, lakin böyük zəhmət tələb edən çətin elm sahəsidir və bu sahəni mən könüllü seçmişəm. Arxeologiya romantika, əyləncə deyildir. O elmin ciddi, məsuliyyətli sahəsidir. Düşünürəm ki, xalqımızın, geniş mənada isə bəşəriyyətin qədim tarixinə, mədəni irsinə maraq olmadan, çöl şəraitinin bütün çətinliklərini arxeoloq həyatında adi hal kimi qəbul etmədən, arxeoloji abidələrin qoruduğu sirləri açmaq, zəngin informasiyanı obyektiv şərh etmək üçün daim öz üzərində çalışmadan yetkin arxeoloq olmaq, bu elm sahəsində uğur qazanmaq qeyri-mümkündür və hər bir arxeoloqun nüfuzunun göstəricisi onun tədqiq etdiyi abidələrin əhəmiyyətində, həll etdiyi problemlərin dəyərində və elmə gətirdiyi kəşflərdədir.

**Nə vaxt və harada ilk dəfə arxeoloji qazıntılarda iştirak etmisiniz ?**

Hələ tələbə ikən, düz otuz il bundan öncə, 1978-ci ildə ilk dəfə Qax rayonunda yerləşən Ləkit monastr kompleksində arxeoloq, t.e.n. Aliyə Qarəhmədovanın rəhbərlik etdiyi arxeoloji qazıntılarda iştirak etmişəm. Çöl tədqiqatla-



rında ilk müəllimim Aliyə xanım olub.

**Arxeologiya elmində Siz kimi müəlliminiz hesab edirdiniz ?**

Bakı Dövlət Universitetinin Tarix fakültəsində təhsil aldığım müddətdə Azərbaycan arxeoloqları t.e.d., professor Məmmədəli Hüseynov, t.e.d., professor Qüdrət İsmayılzadə, t.e.d., professor Abdulla Orucov mənə dərs demişlər, t.e.n., dosent Fərman Mahmudov isə diplom işimin elmi rəhbəri olmuşdur. Moskva Dövlət Universitetinin Arxeologiya kafedrasında təcrübəçi-tədqiqatçı vəzifəsində təhsilimi davam etdirərkən akademik G.A. Fyodorov-Davıdov, akademik V.L.Yanin, akademik B.A.Rıbakov, t.e.d., professor L.R.Kızlasov və digər görkəmli arxeoloqların mühazirələrini dinləmişəm. Mən arxeoloq kimi formalaşmağımda professor German Alekseyeviç Fyodorov-Davıdova borcluyam. İslam arxeologiyasının, müsəlman numizmatikasının, türk xalqlarının tarixinin gözəl bilicisi olan German Alekseyeviç obyektiv tədqiqatçı, elmə sədaqətlə xidmət edən görkəmli rus ziyalısı, böyük alim idi. Sovet və rus arxeologiyasında öz məktəbini yaratmış professor German Alekseyeviç Fyodorov-Davıdov ardıcıllarının, tələbələrinin arxeologiya elminin sirlərinə, incəliklərinə yiyələnməsi, onların yüksək səviyyəli kadr kimi hazırlanması üçün yorulmadan çalışırdı. O, xoşxasiyyət, mülayim, eyni zamanda tələbkar müəllim idi.

**Arxeologiya Sizə nə verib?**

İlk növbədə bəşər cəmiyyətinin inkişaf qanunauyğunluqlarını dərk etməyə, bəşər övladının keçdiyi uzun bir yolu izləməyə, yaratdığı mədəniyyətlərlə tanış olmağa imkan verib. Arxeologiya mənə vətənə, elmə xidmət etməyə imkan yaradıb, Azərbaycanda müsəlman mədəniyyətinin təşəkkülü və inkişafını, orta əsrlərdə urbanizasiya prosesləri və digər maraqlı problemləri araşdırmaq prespektivlərini açıb.

**Hansı abidələrdə arxeoloji qazıntılar aparmısınız?**

Orta əsr Şabran şəhər yerinin, Quba-Xaçmaz bölgəsinin orta əsr kənd tipli yaşayış yerlərinin, Gəncə-Qazax bölgəsinin orta əsr abidələrinin arxeoloji qazıntılarında iştirak etmişəm. Müstəqil arxeoloji qazıntıları ilk dəfə olaraq Xaçmaz rayonunda yerləşən Seyidli və Salmanbulaq orta əsr yaşayış yerlərində, qədim Canaxır şəhər yerində aparmışam. Hazırda Orta əsr Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılara rəhbərlik edirəm.

**Sevimli arxeoloji abidəniz varmı?**

Heç şübhəsiz ki, Orta əsr Şəmkir şəhər yeri. İlk dəfə bu abidədə 2004-cü ilin yayında oldum və ona heyran qaldım. Hələ o zaman məndə Orta əsr Şəmkir şəhər yerində arxeoloji qazıntılar aparmaq arzusu yarandı. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi Şurasında 2006-2010-cu illərdə aparılacaq tədqiqatların baş planı müzakirə olunarkən Orta əsr Azərbaycan şəhərinin öyrənmək nöqteyi-nəzərindən Şəmkir şəhər yerinin unikal bir abidə olduğunu və burada arxeoloji qazıntılar aparılması zərurətini diqqətə çatdırdım. İnstitut

rəhbərliyi Orta əsr Şəmkir şəhər yerində arxeoloji qazıntılar aparmaq təklifimi müsbət qarşıladı. 2006-cı ilin yayında abidənin şəhristan sahəsində kiçik stratiqrafik yoxlama qazıntısı apardıq. Yoxlama qazıntı gözlənilən nəticələri verdi və abidədə intensiv şəhər həyatına dəlalət edən zəngin mədəni təbəqə yatımının varlığını təsdiqlədi. Yoxlama qazıntı həm də abidədə geniş sahəli arxeoloji qazıntılar aparılması zərurətini gündəmə çıxardı. Bu isə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu və Regionların İnkişafı İctimai Birliyinin birgə layihəsi üzrə mümkün oldu. Həmin layihə əsasında 2007-ci ildən Orta əsr Şəmkir şəhər yerinin narınqala və şəhristan sahələrində geniş miqyaslı arxeoloji qazıntılar aparılır. Bu qazıntılar Orta əsr Azərbaycan şəhərinin, bütövlükdə isə, orta əsr Müsəlman şəhərinin araşdırılması üçün çox dəyərli faktik materiallar verib və bu abidədə aparılan arxeoloji tədqiqatlar perspektivlidir. Bunu xüsusi qeyd etmək lazımdır ki, Regionların İnkişafı İctimai Birliyi regionların sosial- iqtisadi inkişafına dair Dövlət Proqramının icrası çərçivəsində bölgənin sosial-iqtisadi və mədəni inkişafında yaxından iştirak edir və çox mühüm layihələri həyata keçirir. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Regionların İnkişafı İctimai Birliyi ilə birgə layihələr üzrə işi təkcə arxeoloji qazıntılarla məhdudlanmır, həm də arxeoloji qazıntılar nəticəsində üzə çıxarılan mədəni irsin və əldə edilən elmi nəticələrin elmi dövriyəyə daxil edilməsini, eləcə də arxeoloji irsin təbliğini əhatə edir.

Məhz Orta əsr Şəmkir şəhər yerində uğurlu arxeoloji tədqiqatlar, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Regionların İnkişafı İctimai Birliyi ilə sıx əməkdaşlığı 2007-ci ildə "Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı" mövzusunda I Respublika elmi konfransının, 2008-ci ildə isə "Qafqaz arxeologiyası



və etnologiyası" beynəlxalq elmi konfransının Şəmkir şəhərində keçirilməsinə imkan verdi. Xüsusilə Qafqaz arxeoloq və etnoqraflarının ənənəvi beynəlxalq elmi konfransının yubley məclisinin Şəmkir şəhərində müasir tələblərə uyğun yüksək elmi səviyyədə keçirilməsi artıq Azərbaycan regionlarının beynəlxalq elmi forumlara ev sahibliyi etmək iqtidarında olduğunu və müstəqillik illərində Azərbaycan dövlətinin regionların sosial-iqtisadi və mədəni inkişafı üzrə uğurlu siyasətinin nəticələrini əyani nümayiş etdirdi.

**Azərbaycan arxeologiyasının uğur və çatışmazlıqları haqqında fikirləriniz?**

Son illər arxeologiya elminə dövlət qayğısı, ölkəmizin bütün bölgələrinin arxeoloji tədqiqatlara cəlb olunması, arxeoloqların uğurlu tədqiqatları Azərbaycan arxeologiyasının gələcəyinə inamı artırır. Erkən əkinçilik mədəniyyəti, qədim qəbir abidələri və dəfn adətləri, erkən şəhərlər, Qafqaz Albaniyası arxeologiyası, orta əsr şəhərləri və kənd tipli yaşayış yerlərinin tədqiqində mühüm nailiyyətlər əldə olunub. Bu danılmaz faktdır. Sevindirici haldır ki, əldə olunan nailiyyətlərdə nüfuzlu arxeoloqlarla yanaşı gənc arxeoloqların da payı vardır. Lakin bu uğurlar nəzəri arxeologiya sahəsində qabarıq müşahidə olunmur. Metodologiya, konseptual problemlərin həllinə diqqətin daha da artırılması zəruridir.

Arxeologiya maddi dəlillərə əsaslandığından bu sahədəki araşdırmaların obyektivliyinə inam daha çoxdur. Təsadüfi deyildir ki, keçən əsrin məşhur tarixçilərindən biri qeyd edirdi ki, tarixçi millətçilik xəstəliyinə tutulduqda onu arxeoloji faktların köməyi ilə islah etmək mümkündür. Bu mənada bəzən arxeoloji tədqiqatlarda saxtakarlığa yol verilməsi narahatlıq doğurmaya bilməz. Xüsusilə saxtakarlıq düşünülmüş şəkildə ediləndə.

**Arxeologiya üzrə ixtisaslaşan gənc nəslə arzu və tövsiyyələriniz?**

Şübhəsiz ki, Azərbaycan arxeoloji məktəbinin gələcəyi gənc arxeoloqları-



mızla bağlıdır. Hazırda istedadlı, müstəqil tədqiqat aparmağa qadir gənclərimiz vardır. Mən inanıram ki, onlar Azərbaycan arxeologiya elmini müasir tələblər səviyyəsində inkişaf etdirə biləcəklər. Bu mənada Azərbaycan arxeologiyasının gələcəyindən narahat deyiləm. Gənclərə məsləhətim isə arxeologiyada sensasiya axtarmamaq, səbrli və məsuliyyətli olmaq, ciddi tədqiqat aparmaq.

**Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunan ədəbiyyat sırasında altı cilddə çap edilməsi nəzərdə tutulan Azərbaycan arxeologiyası da var. Orta əsrlərə həsr olunan VI cild artıq işıq üzü görmüşdür. Həmin cildin əsas müəlliflərindən biri və məsul redaktorusuz. Bu nəşr barədə fikirlərinizi bilmək istərdik?**

Oxucuların mühakiməsinə təqdim olunan Azərbaycan arxeologiyasının VI cildi uzun illərin gərgin əməyinin nəticəsi olaraq yazılmışdır. XXI əsrin əvvəllərinədək aparılan arxeoloji qazıntılar əsasında bu əsərdə Azərbaycanın IX-XVII əsrlər maddi mədəniyyət abidələri kompleks şəkildə tədqiq edilərək ümumiləşdirmələr aparılmış, orta əsr arxeologiyasının inkişaf yolları izlənilmiş, xalqımızın tarix və mədəniyyətinin öyrənilməsində arxeologiya elminin tutduğu mövqe müəyyənləşdirilmiş və mümkün perspektivləri şərh edilmişdir. Kitabda yığcam şəkildə orta əsr abidələrinin arxeoloji tədqiqi tarixindən, arxeoloji qazıntı aparılmış şəhər, kənd, qala və digər yaşayış yerlərindən, qəbir abidələrindən bəhs olunur, onların arxeoloji səciyyəsi verilir. Əsərdə həmin dövrün istehkam tikililəri, ictimai və dini binaları, yaşayış evləri, şəhər abadlığı, inşaat texnikası, memarlığı haqqında məlumat verilir, sənətkarlıq və ticarətinə diqqət yetirilir, əmək alətləri, silah və döyüş ləvazimatları, məişət avadanlığı, bəzək əşyaları, bir sözlə arxeoloji qazıntılarda üzə çıxarılan zəngin maddi mədəniyyətin bütün nümunələri təhlil olunur. Bu kitab orta əsrlər arxeologiyasının XXI əsrin əvvəllərinə olan vəziyyətini əks etdirir, görülmüş işlərə yekun vurur və həllini gözləyən aktual problemləri üzə çıxarır.

Çoxcildli Azərbaycan arxeologiyasının yazılaraq çap olunmasının 30 ildən artıq bir müddət ərzində mühüm vəzifə olaraq qarşıya qoyulduğunu nəzərə alsaq, onda bu nəşrin əhəmiyyətini dərk etmək çətin deyil. Fürsətdən istifadə edib adı çəkilən əsərin işıq üzü görməsində əməyi olan, öz yardımını göstərən insanlara öz dərin təşəkkürümü bildirirəm.

**Gələcək yaradıcılıq planlarınız?**

Orta əsr Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılar çoxlu suallar ortaya çıxarıb. İlk növbədə həmin suallara cavab tapmaq vacibdir. Abidənin alt təbəqəsini tədqiq edərək şəhərin erkən çağı ilə bağlı ağ ləkəni ləğv etmək, bu məsələyə aydınlıq gətirmək. Orta əsr Şəmkir şəhərinə həsr olunmuş sanballı monoqrafiya yazmaq.

***Müsahibəyə görə sağ olun!***

***Müsahibəni apardı: Roza Arazova***

# XRONİKA, RƏYLƏR, XƏBƏRLƏR
# CHRONICLES, REVIEWS, INFORMATIONS
# ХРОНИКА, РЕЦЕНЗИИ, СООБЩЕНИЯ

## Qafqaz: Arxeologiya və Etnologiya. Beynəlxalq elmi konfrans. 11-12 sentyabr 2008-ci il.

Qafqazın arxeologiya və etnologiyasına həsr olunmuş ənənəvi beynəlxalq konfransın yubiley, X toplantısı 2008-ci il sentyabrın 11-12-də Azərbaycanda, Şəmkir şəhərində keçirildi. Azərbaycan, Gürcüstan, Rusiya, Türkiyə, Almaniya və Fransa alimlərinin qatıldığı bu beynəlxalq elmi konfransın təşkilatçıları Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutu və Regionların İnkişafı İctimai Birliyi idi. Konfransın iş proqramına 95 məruzə daxil edilmişdi.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik Mahmud Kərimov konfransı giriş sözü ilə açıb, regionun arxeoloji abidələrinin, qədim tarixinin, mədəni irsinin, Qafqaz xalqlarının etnoqrafiyasının öyrənilməsində "Qafqazın arxeologiyası və etnologiyası" beynəlxalq elmi konfransının əhəmiyyətini qeyd etdi. Müstəqillik illərində Azərbaycanın regionlarında sosial-iqtisadi və mədəni inkişafın sürətləndiyinə diqqəti yönəldən akademik M.K.Kərimov məhz bunun məntiqi nəticəsi olaraq belə bir mötəbər elmi forumun Şəmkir şəhərində yüksək səviyyədə keçirilməsinin mümkün olduğunu bildirdi. Konfransın açılışında Şəmkir rayon icra başçısı Nazim Veysov, Regionların İnkişafı İctimai Birliyinin sədri Seymur Quliyev çıxış edərək





konfrans iştirakçılarını salamladılar və konfransın işinə uğurlar arzuladılar.

Plenar iclasında AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru, t.e.d. M.N.Rəhimova "Qafqazın arxeologiyası və etnologiyası beynəlxalq konfransının 10 ili" mövzusunda məruzəsində keçən 10 il ərzində bu elmi məclisin Qafqaz arxeologiyası və etnoqrafiyası sahəsində elmi nəaliyyətlərin mübadiləsində mühüm rol oynadığını vurğuladı. Məruzəçi SSRİ-nin dağılması ilə arxeoloji və etnoqrafik tədqiqatlarda tənəzzülün baş verdiyini, çöl tədqiqatlarının kəşfiyyat xarakterli işlər ilə məhdudlandığını, lakin son 10 ildə vəziyyətin əsaslı şəkildə dəyişdiyini, geniş arxeoloji tədqiqatlara başlanıldığı bildirdi. Məruzəçi Azərbaycan prezidentinin xüsusi fondundan çöl arxeoloji tədqiqatları üçün 1 milyon manat vəsaitin ayrılmasını Azərbaycan arxeologiyasına dövlət qayğısının təzahürü kimi qiymətləndirdi.

Gürcüstanlı alim, akademik V.M.Şamiladzenin "Humanitar elmlər sahəsində inteqrasiya prosesləri və sosial-mədəni antropologiyanın əhatə dairəsi", Dağıstanlı alim, professor M.Aqlarovun "Qafqaz gerçəklikləri Rusiya tarixşünaslığında (XVIII-XIX əsrin əvvəlləri)", Moskvalı alim, professor S.N. Korenevskinin "Qafqazda erkən Maykop tipli xəncərlər və onları dəfn mərasimində müşaiət edən daş millər, əşyalar və alətlər", Türkiyəli alim doç., doktor Yüksəl Sayanın "Azərbaycanın qədim epitafiyalarına dair tədqiqatlar (2006-2007-ci illərin materialları əsasında)", fransız alimi Lyonet Bertilin "Azərbaycan - Fransa ekspedisiyasının Soyuqbulaqda 2006-cı ildə apardığı qazıntıların ilkin nəticələri" mövzularında məruzələri maraqla dinlənildi. Daha sonra konfrans "Arxeologiya" və "Etnologiya" olmaqla iki bölmədə davam etdi.



"Arxeologiya" bölməsində İbtidai insanların məskunlaşma yolları və texniki ənənə məsələləri haqqında, erkən əkinçilik mədəniyyətinə dair, tunc və erkən dəmir dövrü qəbir abidələri haqqında, erkən albanlara dair, orta əsr abidələrinin arxeoloji tədqiqinə həsr olunmuş məruzələr dinlənildi. Məruzələrin bir qrupu Şəmkir rayonu ərazisində yerləşən arxeoloji abidələrdəki son tədqiqatların nəticələrini əks etdirirdi. T.e.n. N.Ə.Müseyblinin "Erkən tunc dövrü Şəmkirçay kurqanları", AMEA müxbir üzvü, prof. İ..A.Babayevin "Azərbaycanın Şəmkir rayonunun Qaracəmirli kəndi yaxınlığında Əhəməni dövrü abidəsinin qazıntıları", t.e.d. T.M. Dostiyevin "Orta əsr Şəmkir şəhərinin Narınqalasının qazıntıları", N.N.Hüseynlinin "Şəmkir-Qazax bölgəsinin orta əsr arxeoloji abidələrinin səciyyəsinə dair" mövzularda məruzələri bu qəbildəndir.

Etnologiya bölməsində Qafqaz xalqlarının mənəvi mədəniyyətinə, etnik proseslərə, adət-ənənələrə həsr olunmuş məruzələr dinlənildi.

Sentyabrın 11-də bölmə iclasları bitdikdən sonra 2007-ci ildə keçirilmiş "Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı" I Respublika elmi-praktik konfransın materialları məcmuəsinin təqdimetmə mərasimi oldu.

Sentyabrın 12-də yekun iclasdan sonra konfrans iştirakçıları Orta əsr Şəmkir şəhər yerinin arxeoloji qazıntıları ilə tanış oldular.

***Tarix Dostiyev***


МАТЕРИАЛЫ
ШАМКИР


ŞƏMKİR


ŞƏMKİR
SHAMKIR


QAZINTILAR TAPINTILAR PERSPEKTİVLƏR
ŞƏMKİR
ARXEOLOJI EKSPEDISIYASI